Xalqın qəzeti!

# Xalq qəzeti

№ 173 (30867) 19 avqust 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır

*Prezident İlham Əliyev bu ölkənin yeni səfirinin etimadnaməsini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də İsrail Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ronen Krauszun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.**

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə ildən-ilə genişləndiyini qeyd edərək, əməkdaşlığımızın səviyyəsindən məmnunluğunu bildirdi və dostluq münasibətlərimizin bir çox istiqamətlər üzrə gələcəkdə daha da dərinləşəcəyinə əminliyini vurğuladı. Prezident İlham Əliyev hazırda Azərbaycan-İsrail əməkdaşlığının inkişafı üçün geniş imkanların olduğunu dedi.

Dövlətimizin başçısı səfirin ölkəmizə tarixi dövrdə - ABŞ-ın dəstəyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyi üzrə nailiyyətlərin əldə edildiyi bir zamanda gəldiyini bildirərək, bunun regionda sülhün və təhlükəsizliyin təmin edilməsi, həmçinin qarşıdurmaya son qoymaq üçün əhəmiyyətli olduğunu qeyd etdi. Prezident İlham Əliyev bütün bunların bağlantılar və müxtəlif növ qarşılıqlı əlaqələr baxımından Azərbaycan və bütövlükdə Cənubi Qafqaz regionu üçün yeni imkanlar açdığını vurğuladı.

Prezident İlham Əliyev İsrail şirkətlərinin həmişə olduğu kimi, gələcəkdə də ölkəmizdə fəal işləyəcəklərinə ümidvarlığını ifadə etdi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Etimadnaməsini dövlətimizin başçısına təqdim etməkdən şərəf hissi duyduğunu deyən səfir yenidən Bakıya gəlməkdən xoşbəxt olduğunu vurğuladı. O, 2010-2015-ci illərdə ölkəmizdə diplomatik fəaliyyət göstərdiyini məmnunluqla xatırladı.

İsrail-Azərbaycan münasibətlərinin həqiqətən də strateji xarakter daşıdığını deyən Ronen Krausz qeyd etdi ki, ölkələrimizin liderləri və xalqları arasında əsl dostluq münasibətləri mövcuddur.

Səfir ölkəmizdə yəhudi icmasına göstərilən qayğı və diqqətə görə təşəkkürünü bildirdi, özünün dəfələrlə Qubadakı Qırmızı Qəsəbəyə səfər etdiyini, orada yəhudi icması üçün yaradılmış şəraitlə tanış olduğunu vurğuladı.

***AZƏRTAC***

## Rusiya düşmənçiliyi dərinləşdirirmi?

*Bu sualı ritorik edən cəhətlərə baxış*

**Deyilənə görə, döyüşdə, müharibədə qalibiyyətə və uğura aparan bütün vasitələr keçərlidir. Amma düşmənçiliyin və ədavətin də əxlaqı olmalıdır. Rusiya birinci dəfə avqustun 8-də Azərbaycanın Ukraynadakı enerji obyektlərinə zərbə endirmişdi. Üzərindən 10 gün keçməmiş ikinci belə fakt qeydə alındı. Yəqin, nə demək istədiyimizi anladınız.**



Deməli, avqustun 17-də Rusiya ordusu pilotsuz təyyarələr və raketlərlə yenidən Ukrayna ərazisinə hücum edib. Ukrayna Silahlı Qüvvələrinin məlumatına görə, Odessada vurulan obyektlər sırasında SOCAR-a məxsus neft bazası da var. Özü də bazaya dəqiq zərbələr endirilib ki, bu, hadisənin təsadüfən baş verməsinə dair ehtimalı sıfıra endirir. Nəticədə bir neçə çən, nasos stansiyasının binası, operator məntəqəsi, texniki otaqlar zədələnib, hasar dağılıb.

Avqustun 8-dəki hadisəyə gəldikdə, həmin tarixdə Rusiya SOCAR-ın neft anbarına zərbə endirmişdi. Nəticədə yanğın baş vermiş və dizel boru kəmərinə ziyan dəymişdi. Ən əsası, şirkətin 4 əməkdaşı ağır yaralanmışdı. Yeri gəlmişkən, bu il iyunun 28-də Rusiya hərbi qüvvələri Trans-Balkan qaz kəmərinin əsas elementi olan Orlovka yaxınlığındakı qazpaylayıcı stansiyaya hücum edib. Söhbət Azərbaycan qazının Ukraynaya idxalında mühüm rol oynayan stansiyadan gedir.

*(ardı 5-ci səhifədə)*

## Mandat və məqsəd arasında ziddiyyət



səhifə ➩ 6

## Vaşinqtonda “Ukrayna razılaşması” müzakirəsi



səhifə ➩ 11

## Moskva və Tehranın “Tramp marşrutu”na “hə” deməsi fərqlidir




səhifə ➩ 3

## İnsanlıq siyasəti

*Azərbaycanın humanitar diplomatiyası və qlobal həmrəylik missiyası*




**Müasir beynəlxalq münasibətlər artıq təkcə sərt güc – tankların, raketlərin, iqtisadi hegemonluğun diktəsi ilə formalaşmır. XXI əsrin siyasi arenasında başqa bir güc xətti yüksəlir – humanitar diplomatiya. Əgər XX əsrdə dövlətlərin nüfuzu əsasən hərbi potensial və iqtisadi resurslarla ölçülürdüsə, bu gün önə çıxan dəyərlər fərqlidir: Mədəniyyət, elm, təhsil və ən əsası insan həyatına yönəlmiş humanitar təşəbbüslər. Dövlətin “yaxşı niyyət” aktoru kimi tanınması, böhran və müharibə şəraitində insan amilinə üstünlük verməsi onun beynəlxalq sistemdə etibarlı tərəfdaş kimi qəbul olunmasına xidmət edir. Azərbaycan son illərdə bu prinsipə sadiq qalaraq, humanitar diplomatiyanı ardıcıl və sistemli şəkildə həyata keçirir.**

*(ardı 5-ci səhifədə)*

## Dövlət idarəetməsində sinerji və innovativlik: Azərbaycan təcrübəsi



səhifə ➩ 6

## “Yaşıl” enerji hədəfləri milli prioritetlər sırasındadır



səhifə ➩ 8

## Təbiət idraka çağırır bizi



səhifə ➩ 9

# Prezident İlham Əliyev Slovakiya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Elçin Qasımovun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı bildirdi ki, azərbaycanəsilli diplomatın Slovakiyanın Azərbaycanda səfiri təyin edilməsi Slovakiya tərəfindən ölkəmizə olan hörmətin və etimadın təzahürü kimi qəbul olunur.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayaraq, bu xüsusda Slovakiyanın Baş naziri Robert Fitsonun 2024-cü ildə Azərbaycana səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı anlaşmanın və dəstəyin mövcud olduğu vurğulandı, enerji sahəsində əməkdaşlığın mühüm əhəmiyyət daşıdığı qeyd edildi.

Görüşdə Azərbaycan–Avropa İttifaqı münasibətlərinə toxunuldu, bu xüsusda Slovakiyanın Avropa İttifaqının üzv dövləti kimi bu əlaqələrin inkişafına göstərdiyi dəstək vurğulandı. Həmçinin Slovakiyanın ölkəmizdə NATO-nun əlaqələndirici səfirliyi funksiyasını yerinə yetirdiyi qeyd olunaraq, bu ölkənin Azərbaycan–NATO əlaqələrinin inkişafına da dəstək verdiyi bildirildi.



Dövlətimizin başçısı avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin dəstəyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması üçün imzalanmış sənədlərin əhəmiyyətinə toxundu, bunun tarixi xarakter daşıdığını və regionda davamlı sülh üçün yeni perspektivlər açdığını qeyd etdi.

Prezident İlham Əliyev səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Səfir öz növbəsində Azərbaycanla Slovakiya arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Slovakiya Prezidentinin və Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, həmçinin dövlətimizin başçısının Slovakiyaya rəsmi səfərə dəvət olunduğunu bir daha qeyd etdi.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Slovakiya Prezidentinə və Baş nazirinə çatdırılmasını xahiş etdi. Dövlətimizin başçısı Slovakiyaya səfərə dəvəti məmnunluqla qəbul etdiyini bildirdi.

Elçin Qasımov avqustun 8-də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Görüşdə enerji, kənd təsərrüfatı sahələrində əməkdaşlıq, həmçinin Qarabağda aparılan bərpa və quruculuq işlərində Slovakiya şirkətlərinin iştirakı məsələlərinə dair fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# İndoneziya Respublikasının Prezidenti Zati-aliləri cənab Prabovo Subiantoya

**Hörmətli cənab Prezident!**

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Azərbaycan–İndoneziya münasibətlərinin son dövrlərdə inkişaf dinamikası, istər ikitərəfli qaydada, istərsə də çoxtərəfli strukturlar çərçivəsində əməkdaşlığımız məmnunluq doğurur. Ölkələrimizin Qoşulmama Hərəkatı, BMT, İslam Əməkdaşlıq Təşkilatı, D-8 və digər beynəlxalq təsisatlar çərçivəsində səmərəli əməkdaşlığını xüsusi qeyd etmək istərdim.

Biz Azərbaycan ilə İndoneziya arasında sağlam təməllər üzərində qurulmuş, qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Hazırda siyasi, iqtisadi, mədəni, turizm və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etdirilməsi üçün əlverişli zəmin və imkanlar formalaşmışdır. Hesab edirəm ki, mövcud imkanlardan bəhrələnərək ikitərəfli fəaliyyət gündəliyimizin genişlənməsinə nail ola bilərik.

İnanıram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, birgə fəaliyyətimizin potensialından tam istifadə olunması, beynəlxalq strukturlar çərçivəsində səmərəli əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İndoneziya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# Milli Məclisin Sədri ukraynalı həmkarını Azərbaycana dəvət etdi




**Milli Məclisin Sədri Sahibə Qafarova ilə Ukrayna Ali Radasının Sədri Ruslan Stefançuk arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı iki ölkə parlamenti arasında əməkdaşlıq məsələləri müzakirə edilib, əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub.

Söhbətdə Azərbaycan-Ukrayna münasibətlərinin hərtərəfli inkişafı fonunda parlamentlər arasında əməkdaşlığın daha da genişləndirilməsi yolları nəzərdən keçirilib, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Bu kontekstdə, Sahibə Qafarova Ruslan Stefançuku Azərbaycana səfərə dəvət edib. Telefon danışığı zamanı parlamentlərarası əlaqələrin birgə səylərlə həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da inkişaf edəcəyinə inam ifadə olunub.

# **Şavkat Mirziyoyev:** Azərbaycan Mərkəzi Asiyadan Avropaya strateji körpüdür




**Son illərdə Özbəkistan-Azərbaycan münasibətləri qarşılıqlı etimad və dəstək ruhunda fəal şəkildə inkişaf edir, Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzalanıb, Ali Dövlətlərarası Şura fəaliyyət göstərir.**

Bu fikirlər Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Özbəkistan, Azərbaycan və Avropa – ümumi inkişaf naminə əməkdaşlıq" adlı yüksək səviyyəli görüşün iştirakçılarına müraciətində əksini tapıb.

"Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Mərkəzi Asiya ilə Avropanı birləşdirən strateji körpü rolunu oynayır", - deyə o bildirib.

Qeyd olunub ki, Avropa İttifaqı və digər tərəfdaşlarla birlikdə Özbəkistan səmərəli nəqliyyat-logistika və enerji dəhlizlərinin inkişafı istiqamətində məqsədyönlü işləri davam etdirəcək.

"Mən əminəm ki, bu tədbirlər bölgəmizin Qərb ilə Şərq arasında hab rolunu bərpa etməsinə imkan verəcək", – deyə Prezident əlavə edib.

Ş.Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevin yeni ümumregional proseslərin inkişafında iştirak etmək və Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında əməkdaşlığın möhkəmləndirilməsi sahəsindəki səylərini yüksək qiymətləndirib. O, Vaşinqtonda Ermənistanla imzalanmış üçtərəfli Birgə Bəyannamə münasibətilə dost Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edib.

Bu gün Özbəkistanın dinamik islahatları davam etdirdiyini və bu istiqamətdə artıq böyük nailiyyətlər qazandığını bildirən Prezident qeyd edib: "İndiki son dərəcə mürəkkəb dövrdə Özbəkistan və Mərkəzi Asiya regionu beynəlxalq ictimaiyyətə əvəzsiz resurs – sabitlik, etimad və inkişaf təklif edir".

Şavkat Mirziyoyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin böyük azərbaycanlı mütəfəkkir Nizami Gəncəvinin bənzərsiz yaradıcılıq irsinin qorunmasında və geniş təbliğində mühüm rolunu da xüsusi vurğulayıb.

"Mərkəzin beynəlxalq gündəliyə dair məsələlərin öyrənilməsində fəal iştirakı xüsusi diqqətə layiqdir. Onun himayəsi ilə keçirilən illik Qlobal Bakı Forumu beynəlxalq və regional miqyasda ən aktual problemlərin həlli üçün yeni ideyaların irəli sürüldüyü nüfuzlu qlobal dialoq platformalarından birinə çevrilib", - deyən Prezident diqqətə çatdırıb. Deyib ki, bu görüş Mərkəzi Asiyanı dünyaya geniş şəkildə təqdim etmək, konsolidasiya və əməkdaşlıq proseslərinin sürətləndiyi bir vaxtda regionlararası qarşılıqlı əlaqələri möhkəmləndirmək, eləcə də Özbəkistan və Azərbaycanın potensialından, imkanlarından tam istifadə məsələlərini müzakirə etmək üçün unikal imkandır.

*XQ*

# Ədliyyə Nazirliyinin Çağrı Mərkəzi yenilənib



**Ədliyyə Nazirliyinə edilən müraciətlərə operativ baxılması, vətəndaş məmnunluğunun artırılması, nazirliyin fəaliyyət istiqamətləri üzrə vətəndaşları maraqlandıran məlumatların daha əlçatan olması məqsədilə 881 Çağrı Mərkəzi müasir tələblərə cavab verən yenilənmiş formatda vətəndaşların istifadəsinə verilib.**

Yenilənmiş mərkəz ən müasir texnoloji avadanlıqlarla, o cümlədən interaktiv səsli cavablandırma (IVR) sistemi, səsboğucu cihazlar, proqram təminatı, texniki və metodiki vasitələrlə təchiz olunub. Mərkəz vətəndaşlara rəsmi iş günlərində saat 09:00-dan 18:00-dək xidmət göstərir.

Xatırladaq ki, mərkəzin fəaliyyəti ilə Ədliyyə naziri Fərid Əhmədov yerində tanış olub.

*XQ*

# DSX rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib



**Dövlət Sərhəd Xidmətinin rəhbərliyi və şəxsi heyəti Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasının 106-cı ildönümündə əvvəlcə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini dərin hörmətlə yad edərək məzarı önünə gül dəstələri qoyub.**

DSX-nin mətbuat mərkəzindən verilən məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də ehtiramla anılıb.



Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının xatirəsi yad edilərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

*

**Dünən Azərbaycan Sərhəd Mühafizəsinin 106-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirilib. "Sərhədçi" Mədəniyyət Mərkəzində Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə DSX-nin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək Azərbaycanın Sərhəd Mühafizəsinin 106-cı ildönümü münasibətilə şəxsi heyəti təbrik edib.**

Prezident İlham Əliyevin 2025-ci il 16 avqust tarixli sərəncamları şəxsi heyətə elan olunub, zabitlərə ali hərbi rütbələr təqdim edilib, xidməti-döyüş fəaliyyətində fərqlənən hərbi qulluqçular orden və medallarla təltifləndiriliblər.

Tədbirin rəsmi hissəsindən sonra şəxsi heyət Azərbaycan Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətini özündə tərənnüm edən "Sərhədin 106 ili" filmi nümayiş olunub.

*XQ*

# Moskva və Tehranın "Tramp marşrutu"na "hə" deməsi fərqlidir

## *Zəngəzur dəhlizi kənar aktorların maraqlarının birləşmə – ayrılma nöqtəsidir*




**Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş yaradan və Zəngəzurdan keçən Tramp marşrutu (TRIPP – Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) ilə bağlı avqustun 8-də Ağ Evdə imzalanan razılaşmadan sonra Tehran sərt bəyanatlar səsləndirdi. Amma az sonra İran hakimiyyətinin siyasi tonunda dəyişiklik hiss olundu ki, bu da onun layihəni qəbul etməyə hazır olduğu mənasına gəlir.**

Xüsusən də XİN rəhbəri Abbas Əraqçi Vaşinqton sammitinin nəticələrini və Tehranla İrəvan arasında sonrakı təmasları şərh edərkən dedi ki, "Ermənistan tərəfi bizim bütün qırmızı xətlərimizə əməl ediləcəyinə" inandırıb. "Təbii ki, bu məsələnin miqyası (Vaşinqtondakı razılaşmalar) hələ tam aydın deyil. Ermənistan baş naziri cənab Paşinyan prezidentimizə zəng etdi, onların xarici işlər naziri mənimlə əlaqə saxladı və xarici işlər nazirinin müavini Tehrana gəldi. Onlar bizə hərtərəfli izahatlar verdilər. Baş verənlər və baş verə biləcəklər fərqli şeylərdir. Mən demirəm ki, indiki proseslər bizi narahat etmir...", – Əraqçi bildirib. Onun sözlərinə görə, Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı müzakirələrin əvvəlində əsas ideya, guya, Ermənistanın Sünik rayonunu "ələ keçirmək" və bununla da Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında birbaşa quru əlaqəsi yaratmaq olub. "Sonradan söhbət 5-10 kilometr enində dəhliz yaradılmasından gedirdi ki, bu dəhliz Ermənistanın suverenliyində deyil, Azərbaycanın nəzarətində olacaqmış. Həmin vaxt bizim ciddi geosiyasi narahatlıqlarımız var idi və silahlı qüvvələrimiz sərhəddə yerləşdirilmişdi, hərbi mövcudluq yaratmışdıq. Amma Azərbaycan bizi əmin etdi ki, belə ssenarilər istisna edilir".

İndi söhbətin yalnız Ermənistanda qeydiyyatdan keçmiş və həmin ölkənin qanunları və yurisdiksiyasına uyğun şəkildə fəaliyyət göstərəcək Amerika şirkəti tərəfindən çəkilən yoldan getdiyini vurğulayan iranlı nazir İrəvanın Tehranı bu yolun Ermənistanın tam suverenliyi altında olacağına əmin etdiyini bildirib: "Bizim yaxınımızda Amerika qoşunları olmayacaq, İranın bütün qırmızı xətləri nəzərə alınıb".

Əraqçi əlavə edib ki, bu, təhlükəsizlik və ya hərbi fəaliyyətlə məşğul olmayan Amerikanın özəl mühəndis şirkətidir. Orada ABŞ hərbçisi yoxdur və təhlükəsizliyi erməni strukturları təmin edir. Üstəlik, İrəvan Amerikanın özəl mühafizə firmalarını belə ölkəyə buraxmır: "ABŞ Prezidentinin iştirakı ilə Ermənistan və Azərbaycanın imzaladığı birgə bəyannamədə bildirilir ki, regionun sərhədləri dəyişməz qalır, bütün ölkələrin müstəqilliyinə və ərazi bütövlüyünə hörmət edilir. Bu, bizim mövqeyimizlə tam uyğundur".

Prezident Məsud Pezeşkian və onun kabineti Vaşinqton razılaşmasının İranın maraqlarını təhdid etməsi ilə bağlı iddiaları "şişirdilmiş" adlandırıb. Görünən odur ki, Tramp marşrutu İran rəhbərliyində ciddi fikir ayrılığına səbəb olub. Artıq Tehran başa düşür ki, onun Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsinin qarşısını almaq imkanları məhduddur. Üstəlik, Ermənistanla quru sərhədinin bağlanması ilə bağlı narahatlıq özünü doğrultmayıb. Ermənistana səfəri öncəsi keçirdiyi iclasda Prezident Pezeşkian İrəvan–Bakı razılaşması ilə bağlı Tehranın konstruktiv qarşılıqlı fəaliyyət və qarşılıqlı fayda vasitəsilə regional əməkdaşlığı genişləndirmək və qonşu ölkələrlə əlaqələri gücləndirmək öhdəliyini təsdiqləyib.

***

İranın ardınca Rusiya da "Tramp marşrutu"na loyal yanaşdığını açıqlayıb. Baş nazirinin müavini Aleksey Overçuk bildirib ki, Rusiya Azərbaycanla "Tramp marşrutu" kimi tanınan nəqliyyat dəhlizi yaratmaqda Ermənistanı dəstəkləyir. O vurğulayıb ki, İrəvan Moskvanın mühüm strateji müttəfiqidir və Ermənistan hakimiyyəti bu layihənin ölkəyə xeyir verəcəyinə inanırsa, Rusiya onları dəstəkləyir. "Əgər onlar Vaşinqtonda müvafiq bəyannamənin imzalanmasının daha yüksək təhlükəsizlik təminatları təmin edəcəyinə inanırlarsa, bu, yaxşıdır. Axı biz də Cənubi Qafqazda sülh proseslərinin tərəfdarıyıq" – Overçuk bildirib. Deməli, Moskva baş nazirin müavininin dili ilə bəyan edir ki, Rusiya Azərbaycanla nəqliyyat dəhlizi yaratmaqda Ermənistanı dəstəkləyir. Üstəlik, üçtərəfli hökumət komissiyaları çərçivəsində əvvəllər əldə edilmiş razılaşmaların icrasını müzakirə etmək üçün Overçukun gələn həftə İrəvana səfəri gözlənilir.

Bundan əvvəl Rusiya XİN rəsmi bəyanatında "Tramp marşrutu" ilə bağlı razılaşmadan narazılığını ifadə edərək, Moskvanın "üçüncü ölkələrin" regiona müdaxiləsini bəyənmədiyini və nəqliyyat marşrutlarının açılmasının Rusiyanın iştirakı ilə üçtərəfli razılaşmalar çərçivəsində baş verməli olduğunu vurğulamışdı. Bəyanatda, həmçinin qeyd olunurdu ki, Ermənistan Avrasiya İqtisadi İttifaqının (Aİİ) üzvüdür və onun ərazisindən malların tranziti birliyin qaydaları ilə tənzimlənir. Rusiya sərhədçilərinin Ermənistanın İranla sərhədində yerləşdiyi də xatırlanırdı.

Fəqət, Overçukun bəyanatı fonunda Moskvanın "Tramp marşrutu"na və ümumilikdə Ağ Evin Azərbaycan və Ermənistan arasında sülhə nail olmaq üçün atdığı tarixi addıma münasibətinin dəyişdiyini söyləmək hələ tezdir. Ola bilsin ki, Rusiya bu marşrutdan ABŞ-la daha geniş sövdələşmənin bir hissəsi kimi, məsələn, Ukrayna məsələsi və ya ikitərəfli münasibətlərin bərpası kontekstində istifadə etməyi düşünür. Yəni, istisna etmək olmaz ki, Moskva "Tramp marşrutu"na razılıq verməklə Vaşinqtondan əlavə dividendlər alacağını gözləyir.

***

Rusiya baş nazirinin müavini A.Overçukun "Tramp marşrutu" ilə bağlı loyal açıqlamasına rəsmi İrəvan hələlik reaksiya bildirməsə də, müstəqil ekspert və blogerlər müxtəlif versiyalar irəli sürürlər. Misal üçün, politoloq Suren Surenyants Aleksey Overçukun son bəyanatına istinad edərək, Rusiyanın "Tramp marşrutu"nun işə salınmasının Ermənistana xeyir verəcəyi ilə bağlı mövqeyini şərh edərkən bildirib ki, bu layihə ətrafında Rusiya ilə Vaşinqton arasında müəyyən razılaşmaların olması qeyri-mümkün deyil: "Overçukun bəyanatı çoxlarını təəccübləndirdi: Moskvadan sərt imtina gözləyirdik, lakin belə bir ifadə eşitdik – "Ermənistan üçün yaxşı olarsa, biz onu dəstəkləyəcəyik". Surenyants Kremlin bu mövqeyini bir sıra səbəblərlə izah etməyə çalışır: Ukrayna müharibəsi şəraitində Moskva ABŞ-a qarşı yeni cəbhə açmaqdan yayınır. Kreml "Tramp marşrutu"nun real perspektivinə inanmır və sərt reaksiyanı yersiz sayır. Ola bilər ki, bu məsələdə Vaşinqtonla Moskvanın müəyyən razılaşmaları var. Bununla yanaşı, hay politoloq risklərin göz qabağında olduğunu yazır: Qərbin Cənubi Qafqazda təsirinin güclənməsi; Ermənistanın Rusiya orbitindən tədricən çıxması; Türkiyə və Azərbaycanın mövqelərinin möhkəmlənməsi.

Bu məqamda Moskvanın ikibaşlı oyununa diqqət çəkən Surenyants maraqlı fərziyə irəli sürür: "Rusiya layihənin iqtisadi komponentlərinə cəlb oluna, danışıqlar rıçaqlarını saxlaya və özünü sülhməramlı kimi göstərə bilər". O, bu qənaətə gəlir ki, belə taktika ilə Moskvanın indiki mərhələdə itirəcəyi heç nə yoxdur: "Layihə uğursuz olarsa, heç bir itki olmayacaq, amma reallaşarsa, ona qoşulmaq və ya, ən azı, öz maraqları üçün istifadə şansı qazanacaq".

Beləliklə, kənar aktorların bölgədə maraqlarının həm birləşmə, həm də ayrılma nöqtəsinə çevrilən Zəngəzir dəhlizinin (TRIPP) reallaşması artıq qaçılmazdır. Bundan ən çox udan isə Azərbaycan və Ermənistan olacaq.

*İmran BƏDİRXANLI*
*XQ*

### Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, siyasi icmalçı**

– Əvvəlcə onu nəzərə çatdıraq ki, Kremlin xüsusi tapşırıqlar üzrə səfiri İqor Xovayev keçən həftə Tehrana səfər etmişdi. Böyük ehtimalla deyə bilərik ki, bu səfərin məqsədi Ermənistan–Azərbaycan sülh prosesində yaranmış yeni durumla bağlı hər iki ölkənin mövqelərinin uyğunlaşdırılamasının müzakirəsi olub. Hazırda Moskva və Tehran yaxşı başa düşürlər ki, ümumi sülh prosesinə qarşı çıxmaq mümkün deyil. Çünki bu razılaşma Azərbaycan və Ermənistanın müstəqil qəbul etdikləri siyasi qərardır. Ən vacibi isə artıq nə Azərbaycandan Ermənistana qarşı, nə də əksinə istifadə etmək şansları yoxdur. Onlar üçün narahatlıq yaradan əsas məqam Birləşmiş Ştatların Zəngəzur dəhlizində hansı səviyyədə iştirak etməsidir. Hələlik bu istiqamətdə aydınlıq və konkretlilik yoxdur. Ermənistan XİN başçısının müavini Vaan Kostanyanın bəyanatına əsasən, hazırda İrəvan və Vaşinqton arasında ortaq şirkətin qurulmasına dair razılıq əldə edilib. Bunun hansı formada təşkil ediləcəyi, payçı kimi dövlətin və ya özəl şirkətin iştirakı məsələsi hələ dəqiqləşməyib. Eləcə də ABŞ dövlətinin, yaxud şirkətin layihədə hansı funksiyaları icra edəcəyi qeyri-müəyyəndir.

İkinci məqam odur ki, Tehrandan fərqli olaraq, Moskva bu nəqliyyat kommunikasiya marşrutunda tərəf kimi iştirak edir. Ən azı, 2021-ci il 11 yanvar üçtərəfli sammitin nəticələrinə görə formalaşan hökumətlərarası komissiyanın ondan çox iclası keçirilib. Digər tərəfdən, Rusiyanın dövlət şirkəti Ermənistan dəmir yollarını idarə edir. Yəni, Ermənistan və Azərbaycan arasında dəmir yolu əlaqəsinin bərpası və istifadəsində Moskva iştirak etmək niyyətindədir. Çünki həmin üçtərəli hökumətlərarası komissiyadan nə Azərbaycan, nə də Ermənistan çıxıb. İrəvan–Qazax, Naxçıvan–Gümrü marşrutlarına nəzarət edən Moskva ilkin razılaşma əsasında Zəngəzur layihəsində də iştiraka iddialıdır.

### Ekspert rəyi



**Züriyə QARAYEVA,**
**politoloq**

"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP), əslində, Cənubi Qafqazda kommunikasiya xəritəsini yenidən qurmaq potensialına malik strateji təşəbbüsdür. Ermənistanın bu layihəyə razılıq verməsi və ABŞ-la yanaşı "qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflərlə" əməkdaşlıq etməsi həm regional güc balansını dəyişə, həm də siyasi mesaj xarakteri daşıya bilər. TRIPP faktiki olaraq Zəngəzur dəhlizinin başqa ad altında beynəlxalq formata salınmasıdır. Bu ad dəyişiklikləri erməni ictimaiyyətində daxili müqaviməti yumşaltmaq və layihəni "regionlararası sülh və iqtisadi inkişaf" konsepti ilə təqdim etmək məqsədi daşıyır. Üçüncü tərəflərin layihəyə cəlb olunması geosiyasi baxımdan vacib məqamdır. Buraya Böyük Britaniya, Avropa İttifaqı ölkələri, Türkiyə və Yaxın Şərqdə strateji maliyyə imkanlarına malik dövlətlər daxil ola bilər. Onların iştirakı iki funksiyanı yerinə yetirir: Maliyyə və texniki dəstək – layihənin icrası üçün beynəlxalq maliyyə institutlarının (Dünya Bankı, Asiya İnkişaf Bankı və s.) resurslarını səfərbər etmək. Geosiyasi təminat – Rusiya və İranın bu layihəyə qarşı göstərə biləcəyi təzyiqləri yumşaltmaq və ABŞ-ın bölgədəki mövqeyini gücləndirmək. Layihənin ABŞ-ın qarantı altında həyata keçirilməsi Ermənistanın xarici siyasətində Qərbə meyli daha da artırır və Moskvanın təsir imkanlarını məhdudlaşdırır. Bu, həm də İran üçün yeni geosiyasi çağırış yaradır, çünki dəhliz Cənubi Qafqazda ABŞ-ın hərbi-siyasi təsirini artıracaq. Azərbaycan üçün isə TRIPP-in reallaşması Naxçıvanla maneəsiz quru əlaqəsi məsələsinin beynəlxalq təminatla həll olunması deməkdir. Bu, həm logistik üstünlük, həm də siyasi baxımdan mühüm qələbədir.

### Baxış bucağı

# Siyasi mənzərə dəyişir

## *Tarixi taleyimiz isə çək-çevir mövzusu deyil*



*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı, filologiya elmləri doktoru*

**Biz uzun bir tarixi prosesin sonlandırılmasına doğru yol gedirik. Və bu istiqamətdə yürüdülən siyasətin alternativi yoxdur. Atatürk Qurtuluş savaşını zəfərlə başa çatdırandan və yalnız Cümhuriyyətin elanından sonra 7 il müxalifətsiz fəaliyyət göstərdi. Yalnız 1930-cu ildə rəhbərliyində azərbaycanlı Əhməd Ağaoğlunun da təmsıl olunduğu müxalif Sərbəst Firqə yarandı. Sərbəst Firqə hökumətə müxalifətdə olsa da, cümhuriyyət ideallarına, yəni mövcud iqtidarın yürütdüyü siyasətə sədaqətli olacaqdı. Çünki zaman siyasi müxalifət zamanı deyildi. Birləşmək, daha güclü olmaq zamanı idi.**

İkinci Qarabağ Savaşındakı zəfərdən sonra Ali Baş Komandan İlham Əliyev Cənubi Qafqazda 300 ildir ki, davam edən və davam etməkdə hələ də israrlı olan siyasi mənzərəni dəyişib. Bu gün dövlət siyasətimizdə Azərbaycanın geopolitik mənzərəsi müasir gerçəklikləri nəzərə almaqla, tarixi reallıqlara istinad edən istiqamətə doğru yol gedir.

Bunun alternativi varmı? Yoxdur və bu düşüncəyə qarşı müxalifətdə olmaq mümkün deyil. Onun təftiş edilməsi də xalqın qəbul etməyəcəyi bir haldır. Çünki xalq qazanılmış zəfərin qlobal mahiyyətini dərindən anlayır. Çünki o, bu zəfəri ən azı 30 il gözlədi və bu 30 ildə məğlubiyyətlə heç bir halda razılaşmadı. İdeala doğru gedən yollarımızı bağlayan müxtəlif maneələr, nəhayət ki, ortadan qaldırıldı. ATƏT-in Minsk qrupu var idi. Vaşinqton görüşündə bu qurum buraxıldı. 907-ci düzəliş var idi, 30 ildən sonra bu düzəliş ləğv edildi. Və sair. Saziş bağlanması isə ona görə yubanır ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. O iddialar Ermənistan konstitusiyasından çıxarılmalıdır. Azərbaycanın siyasi masada mübahisəsiz qəbul edilən tələbinin miqyası milli iradənin gücü deyilmi?

"Məndən ötdü, qardaşıma dəydi" fəlsəfəsinin bölücü və acı nəticəsini, əsrlər boyu sağalmayan yaralarını biz 200 il əvvəl Azərbaycanın müxtəlif xanlıqlara bölündüyü çağlarda yaşamışıq. İkinci Qarabağ savaşındakı zəfərimizdən sonra davam edən dövlət siyasəti Zəngəzur dəhlizinin açılmasına (bunun necə adlandırılmasından asılı olmayaraq) doğru istiqamət götürüb və bu proses dünyada sülh layihəsi kimi anlaşılırsa və bu yolda atılacaq addımların daha davamlı olacağına dair verilən vədlər dövlət başçıları tərəfindən Amerikada paraflanırsa, bu, Azərbaycanın apardığı siyasətin böyük milli siyasət olduğundan soraq vermirmi?

Bu, təkcə Azərbaycanın Zəngəzur nahiyəsinə keçidini, Naxçıvana uzanan yollarımızın açılmasını, bir-birindən aralı düşmüş ərazilərimizin qovuşmasını təmin edən xətt deyil, eyni zamanda, türk dünyasını birləşdirən, türk birliyinin reallaşmasını təmin edən yoldur və tarixi taleyimiz bu məqamı siyasi çək-çevir mövzusuna çevirməyi heç kəsə bağışlamaz.

Müqayisə üçün qonşu Ermənistanda dövlət siyasətinə müxalif olanlanların məramına nəzər yetirmək bəs edər. Bir zaman şimal qonşumuzun başlatdığı işğalçılıq siyasətinin komponentlərindən biri Qarabağ və Qərbi Azərbaycan torpaqlarında bir erməni knyazlığı qurmaq təşəbbüsüylə bağlıydı. Bu gün Ermənistandakı müxalifətin hədəfi o zaman başlamış və Azərbaycan torpaqlarına erməniləri köçürüb yerləşdirmək ideyasını reallaşdıran qüvvəyə sədaqət hissidir və ona istinad edir. Vaxtilə bu prosesi başlayanlar, yəni Azərbaycan torpaqlarının hesabına ermənilər üçün torpaq qazanmaq, onlara vətən, dövlət qurmaq ideologiyasını irəli sürənlər və bu məqsədlə I Pyotrla, Yekaterina ilə danışıq aparanlar erməni katolikosları olmuşdu. Bu gün Ermənistanda o zaman başladılmış həmin prosesin iflasa uğramasından qeyzlənən erməni müxalifətinə, yəni revanşistlərə Erməni Apostol Kilsəsinin katolikosu başçılıq edir.

Ermənistan siyasətçilərini belə acınacaqlı duruma salan, əsrlər boyu inandıqları "Dənizdən dənizə Ermənistan" ideologiyasının boş bir xəyal olduğunu elə onların özünə etiraf etdirən səbəb İlham Əliyevin yürütdüyü ümumazərbaycan siyasətidir. Vaşinqton danışıqlarının nəticəsi olaraq imzalanan sənədlərə erməni müxalifətinin münasibəti belədir ki, bu sənədlər Azərbaycanla "Türkdilli blokadaya son qoymur, əksinə Ermənistanın suverenliyini məhdudlaşdıraraq, Azərbaycan üçün ölkədən keçən koridorun açılmasını təmin edir".

Onların müxalifəti belə düşünür və 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanda bu şəkildə şərh olunan hədsiz uğurlu bir siyasəti bütünlüklə təqdir etməmək, bu milli siyasətin daha güclü olmasına çalışmamaq sırf məntiqsizlik olardı.

Tarixin elə mərhələsini yaşayırıq ki, milli taleyimiz hamını ümumazərbaycan ideologiyasının ətrafında birləşmək üçün səfərbər olmağa çağırır. Müxalif olmaq zamanı deyil, birlik və bütövlük zamanıdır. Azərbaycan nə zamandı ki, bu siyasi məqamın gerçəkləşməsini gözləyirdi... İndi məhz o məqamın müasirləri və prosesin iştirakçısıyıq. Tarix Azərbaycan dövrünü yaşayır və son yüzillərdə belə bir dövrün analogiyasını göstərmək sadəcə, mümkün deyil.

# Araqarışdıran Aram kimə və nəyə xidmət edir?

## *Kilsə dini məbəd olmaqdan çıxaraq siyasi intriqa yuvasına çevrilib*

**Erməni Apostol Kilsəsi (EAK) erməni və Azərbaycan xalqları arasında tarixi ədavətin yaranmasında, ixtilaf və nifaq salınmasına müstəsna rol oynayıb. Kilsə XIX əsrin sonlarından etibarən xarici havadarlarından aldığı təlimat əsasında proseslərə dini çalarlar qataraq bütövlükdə, türk və müsəlman xalqları arasında düşmənçiliyin yaranması üçün əsas ideoloji mərkəzlərdən biri kimi çıxış edib. Həmin dövrdən etibarən EAK çar Rusiyası və daha sonra Qərb dövlətlərinin regiondakı siyasəti fonunda dini məbəd funksiyasını aşaraq siyasi alətə çevrilib. Kilsənin rəhbərləri millətçi ideologiyanı daim gücləndiriblər. Bunun nəticəsində erməni və Azərbaycan xalqları arasında qarşıdurmanın qızışmasına zəmin yaradılıb.**



Kilsə bu gün də öz ampluasındadır, eyni əməllərindən qalmır. Son illər müşahidə etdiyimiz mənzərə bundan xəbər verir. EAK-ın rəhbəri, katolikos II Qaregin faktiki olaraq Ermənistandakı radikal revanşistlərin ideya ilhamvericisi kimi çıxış edir. Böyük Kilikiya Evinin katolikosu I Aram da bu məsələdə Qaregindən geri qalmır. O, avqustun 17-də etdiyi çıxışında Vaşinqton razılaşmasının predmetli şəkildə və aydın bir yanaşma ilə xalqa təqdim edilməli olduğunu bildirib.

Katolikos deyib: “Bu yaxınlarda ABŞ paytaxtında Birləşmiş Ştatlar Prezidentinin vasitəçiliyi və iştirakı ilə Ermənistan və Azərbaycan arasında saziş imzalanıb. Bu, şübhəsiz ki, xüsusi bir hadisədir. Biz bu sazişin Ermənistanla bağlı mümkün qısamüddətli və ya uzunmüddətli, müsbət və ya mənfi nəticələrinin qiymətləndirilməsini siyasi analitiklərin ixtiyarına verəcəyik. Bununla belə, mən xatırlatmaq istərdim ki, Ermənistan birtərəfli güzəştlərə, şərti prinsiplərə əsaslanan, xüsusilə ikimənalı bəndlərlə dolu olan istənilən sülh sazişinin ölkə üçün ciddi təhlükəyə çevrilə biləcəyini nəzərə almalıdır. Ona görə də bu saziş məhz predmetli yanaşma ilə xalqa təqdim edilməlidir. Xalqın sazişlə bağlı öz fikrini bildirmək imkanının olması lazımdır. Xatırlatmaq istərdim ki, bu gün Ermənistan geosiyasi qüvvələrin toqquşma arenasına çevrilmək təhlükəsi qarşısındadır”.

I Aram qeyd edib ki, Vaşinqtonda təbəssümlər yağışı və sülh sazişi vədi altında imzalanmış sənəd müharibədə həlak olmuş ermənilərin ailələrinə və “Artsax xalqı”na ümid və təbəssüm bəxş edə bilər: “Lakin tarix bizə xatırladır ki, müvəqqəti mənfəətləri rəhbər tutmaq olmaz və Ermənistan öz maraqlarından çıxış edərək balanslaşdırılmış siyasət yürütməlidir”.

Katolikos Bakı Hərbi Məhkəməsində mühakimə edilən separatçı “qlavar”ların (I Aram onları “məhbus” adlandırır–S.H.) məsələsinə və Azərbaycanın özünün əzəli, əbədi torpağı olan Qarabağda apardığı işlərə də toxunub: “Artsax keçmişdə qalmayıb və “Artsax xalqı”nın geri qayıtma hüququnun həyata keçirilməsinə nail olmağa davam etmək, eləcə də oradakı kilsələrin beynəlxalq hüquqi müdafiəsini təmin etmək lazımdır”.

**ARAYIŞ:** Ənənəvi olaraq istər Ermənistanda, istərsə də xaricdə ermənilər Eçmiədzin katolikosunu təkcə kilsənin başçısı deyil, həm də özlərinin seçilmiş nümayəndəsi hesab ediblər. Hazırda inzibati cəhətdən iki müstəqil katolikosluq mövcuddur – mərkəzi Eçmiədzində olan Bütün Ermənilərin Katolikosluğu və mərkəzi Livanın Antilias şəhərində yerləşən Kilikiya Katolikosluğu. Kilikiya katolikosunun inzibati müstəqilliyi ilə yanaşı üstünlük şərəfi EAK-ın ali patriarxı tituluna malik olan və Milli Kilsə Assambleyası tərəfindən Eçmiədzində ömürlük seçilən bütün ermənilərin katolikosuna, yəni II Qareginə məxsusdur.

Bundan əlavə, EAK daxilində iki muxtar patriarxlıq var: Konstantinopol və Yerusəlim patriarxlığı. Onların başçıları arxiyepiskop ruhani dərəcəsinə malikdir və bütün ermənilərin katolikosuna tabedir. Yerusəlim patriarxlığına İsrail və İordaniya erməni kilsələri, Konstantinopol patriarxlığına isə Türkiyə və Krit (Yunanıstan) erməni kilsələri daxildir. Ermənistan daxilindəki bütün yeparxiyalar, eləcə də xaricdəki yeparxiyaların əksəriyyətinə bütün ermənilərin katolikosu rəhbərlik edir. Livan, Suriya və Kipr yeparxiyaları isə Kilikiya katolikosunun nəzarəti altındadır.

***

Bəli, qeyd etdiyimiz kimi, EAK tarixi boyunca yalnız dini mərkəz rolunu oynamayıb, həm də siyasi proseslərə aktiv müdaxilə edən bir institut olub. Xüsusilə də son illərdə kilsə rəhbərlərinin mövqeyi göstərir ki, onlar din pərdəsi altında revanşist dairələrin əsas dayağına çevriliblər. Bu gün Ermənistanın yaşadığı böhranların fonunda kilsə rəhbərlərinin səsləndirdiyi fikirlər, əslində, cəmiyyətin radikallaşdırılması və saxta xülyalara sürüklənməsi məqsədi daşıyır. Böyük Kilikiya Evinin katolikosu I Aramın son çıxışı buna bariz nümunədir. O, Vaşinqtonda imzalanan sənədləri (söhbət üç ölkə liderinin Vaşinqton görüşünün nəticələrinə dair imzalanmış Birgə Bəyannamədən, həmçinin iki ölkə xarici işlər nazirlərinin sülh sazişinin mətnini paraflamasından gedir–S.H.) şübhəli və təhlükəli sənədlər kimi təqdim etməklə, erməni xalqı arasında güvənsizlik yaratmağa çalışır. Halbuki həmin sənədlərin əsas mahiyyəti bölgədə dayanıqlı sülhün təmin olunması və Ermənistanın qonşuları ilə normal münasibətlər qurmasına imkan yaratmaqdır. Əgər bu sənədlər Ermənistan üçün təhlükə doğururdusa, ən azı onun açıq şəkildə hansı konkret bəndin hansı real təhlükəni yaratdığını göstərmək lazım idi. Amma I Aram ümumi sözlərlə danışır, qeyri-müəyyən ifadələrdən istifadə edir, nəticədə ictimai şüurda süni qorxu yaradır.

Onun çıxışında diqqəti çəkən başqa bir məqam yenidən Qarabağ məsələsinə qayıtmasıdır. Ermənistan hakimiyyəti artıq bu mövzunu bağlamağa çalışsa da, kilsə rəhbəri hələ də guya, “Artsax xalqı”nın geri qayıdacağı və oradakı kilsələrin beynəlxalq müdafiəsinin təmin ediləcəyi kimi əsassız iddiaları gündəmdə saxlayır. Bu, əslində, Ermənistan cəmiyyətinə verilən yanlış mesajdır. Çünki Qarabağ artıq Azərbaycan dövlətinin tam nəzarətindədir və bu reallığı heç bir beynəlxalq qüvvə dəyişdirə bilməz. Belə bir vəziyyətdə “geri dönüş” çağırışları, sadəcə olaraq, insanları reallıqdan uzaqlaşdırmaq, onların başını başqa xülyalarla qatmaq deməkdir.

I Aramın yanaşmasında diqqəti çəkən əsas xətt odur ki, o, Ermənistanı geosiyasi güclərin toqquşma meydanı kimi qələmə verir. Bu yanaşma ilə o, sanki, ölkəni öz inkişaf yolundan çəkindirərək xarici güclərin maraqları naminə daim qurban rolunda saxlamağa çalışır. Halbuki real siyasət göstərir ki, Ermənistan üçün yeganə çıxış yolu qonşularla normal münasibətlər qurmaq, regional əməkdaşlıq layihələrinə qoşulmaq və iqtisadi inkişaf üçün şərait yaratmaqdır. Əks halda, kilsə rəhbərlərinin illərlə təkrar etdiyi bu tip çağırışlar xalqı sadəcə daha da çıxılmaz vəziyyətə sürükləyəcək. Ən mühüm məqamlardan biri də odur ki, kilsə rəhbərləri bu gün cəmiyyətdə ən çox ehtiyac duyulan mövzulara – sosial ədalət, yoxsulluğun aradan qaldırılması, uşaqların gələcəyi, gənclərin iş tapması, təhsil və səhiyyə məsələlərinə, demək olar ki, toxunmurlar. Onlar üçün əsas məsələ hələ də siyasi iddialar və sərhədlər üzərindən aparılan mübahisələrdir. Bu isə kilsənin dini məbəd olmaq missiyasını tamamilə ikinci plana keçirir. Əgər I Aram həqiqətən də xalqın rifahını düşünürsə, o zaman sülh sazişinə qarşı qorxu toxumu səpmək əvəzinə, Ermənistan cəmiyyətini reallığı qəbul etməyə, qonşularla barışa və ölkənin inkişafına yönəltməyə çalışmalı idi. Təəssüf ki, biz bunun əksini görürük. Onun çıxışında əsas məqsəd Nikol Paşinyan hakimiyyətini zəiflətmək, cəmiyyətdə etimadsızlıq yaratmaq və revanşist qüvvələrə dəstək verməkdir. Bu isə Ermənistanın gələcəyi üçün çox təhlükəlidir.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** XQ-yə açıqlamasında bildirdi ki, kilsənin siyasi məsələlərdə bu qədər fəal mövqe



tutması, əslində, ölkə üçün mənfi nəticələr doğurur. Onun sözlərinə görə, normal halda kilsə dini və mənəvi dəyərlərin qorunmasına xidmət etməli olduğu halda, hazırda revanşist qüvvələrin əsas ideoloji dayağına çevrilib: “Xüsusilə Böyük Kilikiya Evinin katolikosu I Aramın son çıxışları göstərir ki, o, cəmiyyətdə sülhə deyil, şübhə və qorxuya rəvac verir. I Aram Vaşinqton sazişini şübhə altına alaraq, əslində, Ermənistanın sülh yolunda atdığı addımlara kölgə salır. Onun Qarabağ mövzusunu yenidən gündəmə gətirməsi isə reallıqdan uzaq yanaşmadır. Çünki Azərbaycan suverenliyini bərpa edib və bu proses beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunub. Belə bir şəraitdə edilən hansısa “geri qayıtmaq” çağırışları yalnız cəmiyyəti çaşdırır, Ermənistana yeni problemlər qazandırır”.

Politoloq bildirdi ki, kilsənin mövqeyi, onların dini məbəd rolundan çıxaraq siyasi tribunaya çevrilməsi Ermənistan üçün yaxşı heç nə vəd etmir. Ekspertin fikrincə, əgər kilsə həqiqətən də xalqın tərəqqisini istəyirsə, o zaman regionda sülhə dəstək verməli, düşmənçilik ritorikasını kənara qoymalıdır. Əks halda, kilsənin bu cür bəyanatları Ermənistanı davamlı olaraq qeyri-sabitlik və təcrid vəziyyətində saxlayacaq.

***Səxavət HƏMİD***
***XQ***

**Xuntaçıların məhkəməsi**

# Ermənistan hərbçilərinin törətdikləri faciələrə hüquqi qiymət verilir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 18-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs Bako Sahakyanın vəkili müdafiə etdiyi şəxslə konfidensial şəkildə görüşmək, təqsirləndirilən şəxs Arayik Harutyunyanın vəkili isə müdafiə etdiyi şəxslə məhkəmə zalında telefonla danışmaq istədiyini bildirib.

Sədrlik edən hakim müdafiəçilərin vəsatətlərini təmin edərək telefon danışığı və konfidensial görüş keçirilməsi üçün məhkəmədə fasilə elan edib.

Fasilədən sonra məhkəmə iclası zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin ifadələri ilə davam etdirilib. Eldar Həsənovun oğlu Namiq Həsənov ifadəsində atasının 1992-ci il fevralın 26-da Xocalıda Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində şəhid olduğunu söyləyib. Məzahir Məmmədov Laçın rayonunun Oğuldərə kəndindən məcburi köçkün düşdüyünü bildirib. Onun qardaşı Pənah Məmmədov 1993-cü ildə Ağdamda döyüşlər zamanı itkin düşüb.

Çingiz Alməmmədov söyləyib ki, Laçının işğalı zamanı top atəşləri nəticəsində atası İdris Alməmmədov, qardaşı Ehtiram Alməmmədov, qardaşının həyat yoldaşı Mahirə Alməmmədova və qardaşının körpə övladı həlak olublar. Nuran Qasımov bildirib ki, Vətən müharibəsində və 2021-ci ildə Laçında şərti sərhədin yaxınlığında yaralanıb. Onun qardaşı Teymur Qasımov isə 2016-cı ilin Aprel döyüşləri zamanı şəhid olub. Hidayət Cahangirov 2020-ci il oktyabrın 12-də, Sərvin Cavadzadə isə oktyabrın 15-də Cəbrayıl istiqamətində yaralandığını deyib.

Vüqar Fərəcov Xankəndidə yaşadığı evin 1988-ci ildə ermənilər tərəfindən talan olunduğunu, nəticədə doğmaları ilə birlikdə məcburi köçkün düşdüyünü bildirib. Şakir Orucov ifadəsində 1992-ci ilin may ayında Laçın rayonunun Qorçu kəndindən məcburi köçkün düşdüyünü bildirib. Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində qardaşı oğlu Bərdədə şəhid olub. Fazil Səmədov qardaşının 1993-cü ilin mart ayında Ermənistan silahlı qüvvələri ilə döyüşlər zamanı itkin düşdüyünü bildirib.

Ramin Xəlilov Xocavənd rayonunda 2005-ci və 2007-ci illərdə yaralandığını söyləyib. Bəhruz Qurbanov deyib ki, 2016-cı il aprelin 3-də Tərtərdə yaşadığı evə və sahibkarlıq təsərrüfatına zərər dəyib, özü isə yaralanıb. Fehruz Bayramov 1993-cü il avqustun 23-də Cəbrayıl rayonundan məcburi köçkün düşdüyünü deyib. Taleh Əliyev 1993-cü ildə Füzuli rayonunun Zərgər kəndindən məcburi köçkün düşdüyünü bildirib. Əmisinin iki oğlu öldürülüb.

Əli Cəfərov Xankəndidən 1991-ci ildə məcburi köçkün düşdüyünü, atası Şərif Cəfərovun Kərkicahanda düşmənin hücumu nəticəsində xəsarət aldığını söyləyib. Mayıl Şirinov ifadəsində bildirib ki, 1993-cü il oktyabrın 24-də atası, iki qardaşı və dayısı Cəbrayıl rayonunda itkin düşüb. Bəsti Hacıyeva Cəbrayıl rayonunun Dağ Tumas kəndindən, Sücahət Həziyeva rayonun Xələfli kəndindən məcburi köçkün düşdüyünü deyiblər. Rüxsarə Piriyeva və Vüqar Hacıyev də 1993-cü ildə Cəbrayıldan məcburi köçkün düşdüklərini söyləyiblər. Süräyya Niftəliyeva ailə üzvləri ilə birlikdə Zəngilan rayonundan məcburi köçkün düşdüyünü söyləyib.

Xuraman Muradova 1992-ci ildə Laçın rayonundan məcburi köçkün düşdüyünü söyləyib. Bundan sonra Goranboy rayonunun Ballıqaya kəndinin ərazisində məskunlaşıb. O bildirib ki, Ermənistan silahlı qüvvələri 1992-ci il avqustun 28-də həmin kəndə hücum edərək qətliam törədib. Bu zaman 24 nəfər azərbaycanlı, o cümlədən 6 aylıq körpə və yaşı 100-dən yuxarı olan şəxs qətlə yetirilib. Kifayət Quliyeva 1990-cı illərdə yaşadığı Ağdərə rayonunun Vəngli kəndindən məcburi köçkün düşüb.

Nailə Hüseynova ifadəsində həyat yoldaşının 1991-ci il mayın 20-də qətlə yetirildiyini, özünün isə Cəbrayıl rayonunun Çullu kəndindən məcburi köçkün düşdüyünü deyib. Oktay Əmirov, Dilafət Rəsulov, Qoşqar Rəsulov, Səlim Mehdiyev, Pərviz Paşayev 1992-ci ildə Laçın rayonundan, Məhəmməd Ağamalıyev 1992-ci ildə Kəlbəcər rayonundan, Niyazi Məmmədov, Mahir Aslanov 1992-ci ildə Ağdərə rayonundan, Təranə Yusifova 1993-cü ildə Ağdam rayonundan məcburi köçkün düşdüklərini bildiriblər.

Zərərçəkmişlər təqsirləndirilən şəxslərin və onların nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 21-də davam etdiriləcək.

***XQ***

# Fransa azərbaycanlı uşaqları geri qaytaracaq



**Azərbaycanın Fransadakı səfirliyi ölkə vətəndaşları Məhəmməd Quliyev və Gültac Abdullayevanın üzləşdikləri vəziyyətlə bağlı məlumat yayıb.**

Məlumatda deyilir: “Azərbaycan Respublikasının vətəndaşları Məhəmməd Quliyev və Gültac Abdullayevanın 2 övladının qəyyumluğunun valideynlərdən alınması ilə bağlı Almaniya məhkəməsinin qərarına uyğun olaraq, Fransa tərəfi ərazisində müvəqqəti saxladığı azyaşlı uşaqlar Abdullayev Dəniz Məhəmməd oğlunun və Abdullayev Araz Məhəmməd oğlunun Almaniya tərəfinə geri qaytarılmasına razılıq verib.

Həmin uşaqlar avqustun 18-də Almaniyadan gələn nümayəndələrin müşayiəti ilə bu ölkəyə geri qaytarılıb.

Almaniyada dünyaya gələn iki azyaşlının valideynlərinə qaytarılması üçün bundan sonrakı mərhələdə bu ölkənin hüquqları müstəvisində müvafiq tədbirlər görüləcək.

Hazırda həm Azərbaycanın müvafiq diplomatik nümayəndəliyi, həm də Diaspor ilə İş üzrə Dövlət Komitəsi vasitəsilə vətəndaşlara hüquqi dəstək göstəriləcək.

Yaranmış vəziyyətlə əlaqədar olaraq, Azərbaycanın vətəndaşlarına bir daha müraciət edərək, xarici ölkələrdə belə hallarla üzləşdikləri zaman dərhal Azərbaycanın bu ölkədəki səfirliyinə xəbər verilməsi xahiş edilir. Səfirliyin məsələ ilə bağlı əvvəlcədən məlumatlı olması vaxtında tədbirlərin görülməsinə və hadisələrin arzuolunmaz istiqamətdə inkişafının qarşısının alınmasına imkan yaradır.

***XQ***

**19 Avqust Ümumdünya Humanitar Yardım Günüdür**

# İnsanlıq siyasəti

**(əvvəli 1-ci səhifədə)**

Humanitar diplomatiyanın gücü ondadır ki, o, milli maraqları universal dəyərlərlə birləşdirir. Yardım göndərən dövlət yalnız altruist (başqalarının xeyrinə) davranmır – bu dövlətlər həm də beynəlxalq reputasiyasını möhkəmləndirir, yumşaq güc arsenalını genişləndirir. Beləliklə, humanitar diplomatiya həm siyasi, həm də mənəvi qazanclar gətirən strateji vasitəyə çevrilir.

Məhz bu səbəbdəndir ki, BMT 2008-ci ildə Ümumdünya Humanitar Yardım Gününü təsis etdi. 19 avqust – 2003-cü ildə Bağdadda BMT qərargahına hücumda həlak olan humanitar işçilərin xatirəsinə ehtiram günü olmaqla yanaşı, dövlətlər üçün bir çağırışdır: "Siz yalnız sərt gücünüzləmi tanınmaq istəyirsiniz, yoxsa həm də insanlığa verdiyiniz töhfələrlə?". Bu sual dövlətləri beynəlxalq siyasətin əsas prioritetlərini yenidən nəzərdən keçirməyə vadar edir və humanitar diplomatiyanın əsl dəyərini ortaya qoyur.

Azərbaycan da bu gün beynəlxalq münasibətlər sistemində yalnız regional siyasi və iqtisadi aktor kimi deyil, həm də humanitar diplomatiyanın uğurlu da-



şıyıcısı kimi tanınır. Dövlətimizin xarici siyasət kursunda insan amili, humanist dəyərlərə sadiqlik və qlobal həmrəylik prinsipləri xüsusi yer tutur. Prezident İlham Əliyevin müxtəlif beynəlxalq tribunalarda səsləndirdiyi fikirlər də bu xətti aydın göstərir. Prezident pandemiya dövründə çıxışlarında dəfələrlə vurğulayıb ki, "Dünya yalnız birgə həmrəylik və yardımla qlobal böhranlardan çıxış yolu tapa bilər."

Azərbaycanın humanitar diplomatiyası epizodik təşəbbüslərlə məhdudlaşmır, dövlətimiz ardıcıl və sistemli siyasət yürüdür. Ən ağır böhran anlarında – istər pandemiya dövründə, istərsə də müharibə nəticəsində yaranan humanitar fəlakətlər zamanı – Bakı qlobal həmrəylik çağırışlarının önündə dayanır. Belə bir siyasətin arxasında həm milli maraqların qorunması, həm də beynəlxalq imicin möhkəmləndirilməsi dayanır.

Məhz bu konseptual yanaşmanın nəticəsidir ki, Azərbaycan bu gün Afrikadan Asiyaya, Avropadan Latın Amerikasına qədər müxtəlif regionlarda humanitar təşəbbüsləri ilə fərqlənir. Prezident İlham Əliyevin liderliyində həyata keçirilən bu siyasət Azərbaycanın yumşaq gücünün əsas sütunlarından birinə çevrilib. COVID-19 pandemiyası dünya siyasətində bir dönüş nöqtəsi oldu. Ən böyük dövlətlərin belə səhiyyə sistemləri çöküş həddinə çatdığı bir vaxtda, Azərbaycan yalnız daxildə pandemiyaya qarşı effektiv mübarizə üzrə idarəetmə modeli qurmaqla kifayətlənmədi, həm də beynəlxalq həmrəylik çağırışlarının önündə dayandı. Prezident İlham Əliyevin sözləri ilə desək: "Pandemiya göstərdi ki, dünyada heç bir ölkə bu çağırış qarşısında təkbaşına tab gətirə bilməz. Burada həmrəylik və əməkdaşlıq əsas meyarlara çevrilməlidir".

Azərbaycan bu çağırışı bəyanatlarla deyil, konkret addımlarla sübut etdi. Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Bakı BMT Baş Assambleyasında pandemiya ilə bağlı xüsusi sessiyanın keçirilməsinə nail oldu. Təşəbbüs həm Azərbaycanın qlobal proseslərdə fəal aktor kimi çıxış etdiyini göstərdi, həm də onun humanitar diplomatiyasının beynəlxalq miqyasda qəbul olunduğunu təsdiqlədi.

Pandemiyanın ən ağır günlərində Azərbaycan yardımlarını qitələrarası ölçüdə təşkil etdi. Afrika ölkələrinə tibbi avadanlıq, dərman preparatları və qoruyucu vasitələr göndərildi. Bu yardımlar, sadəcə, maddi dəstək deyildi – yüzlərlə insanın həyatını xilas edən, qlobal həmrəyliyin canlı nümunəsinə çevrilən humanitar missiya idi. Bununla yanaşı, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində yardım ayırdı. Vəsaitin yarısı, xüsusi olaraq Afrika dövlətlərinin ehtiyacları üçün nəzərdə tutuldu. Rəsmi Bakının bu addımı göstərirdi ki, Azərbaycanın humanitar diplomatiyası yalnız qonşuluq və regional çərçivə ilə məhdudlaşmır, əksinə, qlobal məsuliyyət hissinə əsaslanır.

Azərbaycanın COVID-19 dövründə ortaya qoyduğu mövqe həm də özündə siyasi mesajı ehtiva edirdi: kiçik dövlətlər də qlobal həmrəyliyin lokomotivinə çevrilə bilər və bütün bu təşəbbüslər ölkənin yumşaq gücünü gücləndirməklə yanaşı, beynəlxalq aləmdə "humanist dövlət" imicini daha da möhkəmləndirdi.

Rusiyanın 2022-ci ildə Ukraynaya qarşı hərbi müdaxiləsi Avropada yeni humanitar böhran yaratdı. Milyonlarla insan evini tərk etməyə məcbur oldu, minlərlə dinc sakin həyatını itirdi, uşaqlar isə psixoloji və sosial travmalarla üz-üzə qaldı. Belə bir vəziyyətdə yenə Azərbaycan öz humanitar diplomatiyasını yenidən ortaya qoydu və dünya ictimaiyyətinə həmrəyliyin vacibliyini göstərdi. Yüz tonlarla ərzaq, tibbi ləvazimat, isti geyim və dərman preparatları Ukrayna xalqına çatdırıldı. Bununla bağlı Prezident İlham Əliyev bir çıxışında vurğulayıb: "Müharibə zamanı ən böyük sərvət insan həyatıdır. Biz imkanlarımız daxilində əlimizdən gələni etməliyik".

Məhz bu yanaşma Azərbaycanın humanitar diplomatiyasının mərkəzində insan amilinin dayandığını bir daha sübut etdi. Xüsusilə, diqqət çəkən nümunə isə müharibədən əziyyət çəkən uşaqların Bakıda reabilitasiyasıdır. Onların tibbi və psixoloji müalicəsi, sosial adaptasiyası üçün xüsusi proqramlar təşkil edildi. Dövlətimizin bu addımı onu insan həyatının qorunmasına yönəlmiş məsuliyyətli aktor olduğunu göstərdi. Azərbaycanın bu siyasəti həm də beynəlxalq mesaj daşıyırdı: Humanitar diplomatiya yalnız böyük dövlətlərin öhdəliyi deyil, məsuliyyətli regional aktorlar da qlobal həmrəyliyin fəal iştirakçısına çevrilə bilər. Eyni zamanda, bu addımlar ölkənin beynəlxalq imicini gücləndirir, onun yumşaq gücünü artırır və qlobal proseslərdə etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin edir.

Humanitar diplomatiya XXI əsrin beynəlxalq münasibətlərində strateji güc alətidir. Dövlətlər artıq təkcə hərbi və iqtisadi potensialları ilə deyil, həm də insan amilinə verdikləri önəmlə qiymətləndirilirlər. Bu mənada Azərbaycan son illərdə göstərdiyi ardıcıl və sistemli humanitar siyasət ilə fərqlənir. Azərbaycan nümunəsi göstərir ki, kiçik dövlətlər də dünya siyasətində humanist liderlər kimi çıxış edə bilər. Humanitar diplomatiya isə beynəlxalq imic, etibar və yumşaq gücün əsas tərkib hissəsidir.



***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Rusiya düşmənçiliyi dərinləşdirirmi?

**(əvvəli 1-ci səhifədə)**




SOCAR regionun ən böyük enerji şirkətlərindən biridir və Ukrayna infrastrukturunun inkişafına fəal sərmayə qoyur. SOCAR-a hücum, şirkətin obyektlərinin harada yerləşməsindən asılı olmayaraq, ölkəmizə hücumdur. Əlbəttə, Rusiya tərəfi obyektin yerinin Azərbaycan ərazisi olmadığını vurğulaya bilər. Amma bu, hər bir halda, keçərli sayılmayacaq. Elə isə əks tədbirlərə əl atılmalıdır. Çünki məsələ təkcə Ukraynaya hücum deyil, bütövlükdə Avropanın təhlükəsizliyinə təhdiddir. Güman edirik, "köhnə qitə"də, ümumən Qərbdə bu məqamı yetərincə düşünürlər. Amma məsələ yalnız düşüncə halında qalmamalıdır. Hələlik Qərbin düşünməsini bir kənara qoyaq.

Məlumdur ki, son illər Azərbaycan iqtisadiyyatının neftdən və enerji layihələrindən asılılığının aradan qaldırılması istiqamətində məqsədyönlü işlər görülsə də, mövcud istiqamətdə bir sıra uğurlara imza atılsa da, neft-qaz amili öz mövqeyini qoruyur. Mövcud amilin dividendləri isə müxtəlif sahələrə yönəldilir. Bu sayaq hücumlar gəliri azaldırsa, müvafiq olaraq, hansısa sahələrin maliyyə baxımından itirməsi qaçılmazdır. O zaman düşünək görək, nəyin itirilməsi daha münasibdir?

***

Əlbəttə, ağla ilk gələn Azərbaycandakı rus məktəbləridir. Ölkəmizdə, təqribən, 340 ümumi orta məktəbdə tədris rus dilində aparılır. Bundan başqa, bilavasitə rus icmasının nümayəndələrinin təhsil aldıqları 17 məktəb var. Deməli, orta məktəblərin 7,6 faizində təhsil rus dilindədir. Ümumilikdə təhsil alan uşaqların 6,3 faizi rus dilində oxuyur. Orta məktəblərdə 450 min uşağa rus dili xarici dil kimi tədris edilir ki, bu isə ümumi şagirdlərin 32 faizi deməkdir. Üstəlik, ölkəmizdə Azərbaycan–Rusiya Universitetinin yaradılmasının planlaşdırıldığına dair fikirlər də olub. Zamanında məsələ barədə Prezident Vladimir Putinin özü də söhbət açmışdı.

Əlqərəz, bütün bunlar Azərbaycan dövlətinin maliyyəsi hesabına başa gələn məsələlərdir. Dövlətin maliyyəsi azalırsa, özü də səbəb Rusiyadırsa, deməli, durum bu ölkə üçün prioritet sayılan sahələrə də təsirini göstərməlidir. Əlbəttə ki, mənfi təsirini. Xeyr, elə başa düşülməsin ki, mövqeyimiz Moskvanı hədələməkdir. Rusiya böyük ölkədir. Bu günlərdə Azərbaycanda Rusiya mədəniyyəti günlərinin keçirilməsinin təxirə salınmasına prosesin Azərbaycanın mədəni mühitini yoxsullaşdıracağı kimi sərsəm qiymətini verən Rusiya Prezidentinin Beynəlxalq mədəniyyət məsələləri üzrə nümayəndəsi Mixail Şvidkoya xoş gəlməsi üçün deyək ki, ölkəmizdə rus dilində təhsilin sıradan çıxmasının Azərbaycana xeyri yoxdur. Nəzərə alaq ki, tədrisini hansı dildə həyata keçirməsindən asılı olmyaraq, bir məktəbin bağlanması yaxşı hal deyil. Amma başqa çıxış yolu yoxdur. İndiki durumda hərəkətləri ilə çıxılmaz duruma düşməyimizi istəyən tərəf isə Rusiyadır.

Bir haşiyə də çıxaq ki, Azərbaycanda rus dilində təhsil məsələsi yalnız rus dilinin imkanlarının genişliyi kontekstində qiymətləndirilən hadisə deyil. Ölkəmiz və insanımız Rusiya ilə bağlıdır. Məsələn, bu gün rus dilində təhsil alan hansısa gənc sabah Rusiyanın Moskva başda olmaqla, digər şəhərlərində çalışmaq imkanı qazanacaq. Bu, həm ölkəmiz, həm də qarşı tərəf üçün mənfəətdir. Əlbəttə, Rusiyada mənfəət anlayışına yanaşma fərqlidir. Ölkənin bəzi dairələrin açıqlamalarından belə başa düşmək mümkündür ki, hansısa azərbaycanlı şəxs Rusiyada çalışmaq imkanı əldə edibsə, bu, həmin şəxs üçün böyük lütfdür. Hələ bizə açıq minnət qoyanlar da tapılır. Digər tərəfdən, bir halda ki, azərbaycanlılar deportasiyaya məruz qalırlar, deməli, gələcəkdə rus dilində danışmaq da lazım olmayacaq, eyni zamanda, ölkə ilə bağlar itəcək. Görünən budur ki, belə bir durumun formalaşmasını istəyən də məhz Rusiyadır.

***

Azərbaycan–Rusiya münasibətlərində sərinləşmənin qeydə alındığı hazırkı dövrdə vəziyyətin nə üçün indiki şəkilə gəldiyini düşünmək lazımdır. Səbəb AZAL-ın Rusiya səmasında vurulmuş təyyarəsidir. Hadisənin üzərindən 8 ayadək müddətin keçməsinə baxmayaraq, hələ də ona hüquqi qiymət verilmir. Yəni qiymət verməyən, verməkdən imtina edən rəsmi Moskvadır. Loru dildə desək, kor-kor, gör-gör, təyyarəyə yerdən atəş açılıb. Azərbaycan tələb edir ki, qeyri-insani əməli həyata keçirənlər, göstəriş verənlər cəzalandırılsınlar, həlak olanların ailələrinə və zərərçəkənlərə təzminat ödənilsin, ümumən, hadisə nəticəsində dəymiş ziyan aradan qaldırılsın.

Ölkəmizin istəyi, kifayət qədər, məqbuldur və sivil davranış üçün şans saxlayır. Ancaq Rusiyada fərqli düşünənlər var və bu düşüncə sahibləri elə fikirlər səsləndirirlər ki, sanki Azərbaycan susmalı, heç bir tələb irəli sürməli deyilmiş. Axı belə bir dünya ola bilməz. Kremlin bəzi əlaltılarının sərsəmlədiyi kimi, təyyarə olayı Azərbaycanın siyasi kursunu dəyişdirmək üçün bəhanə qismində də qiymətləndirilməməlidir.

Bəli, bu qənaətə gəlmək olar ki, təyyarəmizin vurulmasına görə haqlı tələblərimizi yerinə yetirməməyin gətirdiyi gərgin ab-hava məhz Rusiyaya lazımdır. Çünki ölkə Cənubi Qafqazdakı mövqelərinin itirildiyi qənaətindədir. Azərbaycan və Ermənistan arasında sülh qaçılmaz prosesə çevrilib, Qarabağ avantürası tarixin arxivinə gömülüb. Moskva isə lap əvvəldən regional mənafelərinin təminatında ziddiyyət amilinə söykənmişdi. Ziddiyyət yoxdursa, Rusiyanın Cənubi Qafqazda mövcudiyyəti üçün hansısa tutacaq yeri qalmır. Başqa cür düşünmək mümkünsüzdür.

Deməli, bu səbəbdən Azərbaycanla münasibətlərdə sərtliyi qorumaq lazımdır ki, istənilən an durum ölkəmizə qarşı təcavüz üçün əsas halına gələ bilsin. Bir halda ki, telejurnalist, jurnalistika adına ləkə olan Vladimir Solovyov Azərbaycanda ləzgilərin hüquqlarının qorunmasına ehtiyacın duyulduğunu bildirir, ölkəmizin sərhədlərinin hər an keçilə biləcəyinə dair mesajlar verir, hər şey aydındır. Rusiya düşmənçilik siyasəti yürüdür.

SOCAR-ın Ukraynadakı obyektlərinə zərbələrin endirilməsi də düşmənçilikdir. Azərbaycan düşmən münasibətlərin tərəfdarı deyil və heç vaxt olmayıb. Prezident İlham Əliyev ABŞ-a səfəri zamanı ölkənin "Fox News" telekanalına müsahibəsində də bunu vurğuladı və diqqəti əvvələ yönəltdi. Yəni, 2024-cü ilin dekabrında AZAL-ın təyyarəsinin vurulmasına. Dövlətimizin başçısı hətta bildirdi ki, hadisə məqsədli hücum xarakteri daşımamışdı. "Bizim yeganə tələbimiz bu faktın tanınması, cinayətə görə təqsirli şəxslərin cəzalandırılması və dəymiş ziyanın tam ödənilməsi idi", - deyən Prezident Əliyev əslində, Rusiya ilə münasibətlərin doğru məcraya düşməsinin vacibliyi mesajını vermişdi. Ancaq Ukraynada SOCAR-ın obyektlərinə növbəti hücum onu göstərir ki, Rusiya xoş niyyət ismarıcımızı dəyərləndirmir. Nəinki dəyərləndirmir, hətta düşmənçiliyi dərinləşdirir. Çox təəssüf.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Baxış bucağı**

# Strateji təfəkkür və çevik taktikanın diplomatik uğurları



***Yeganə HACIYEVA,***
***Mətbuat Şurası İdarə Heyətinin üzvü***

**Vaşinqton görüşü Azərbaycanın diplomatik uğurlarının növbəti təsdiqi oldu. Bu qələbənin əsasını Prezident İlham Əliyevin formalaşdırdığı düşünülmüş və məqsədyönlü xarici siyasət təşkil edir. Bu siyasət isə qlobal güc mərkəzləri arasında tarazlıq formalaşdırmaq məharətindən qaynaqlanır.**

Azərbaycan heç bir qütbə üstünlük vermədən müstəqil xarici siyasət kursunu davam etdirir, eyni zamanda, öz milli maraqlarını ayıq-sayıqlıqla və qətiyyətlə qoruyur. Qeyd edim ki, ölkəmizin geoiqtisadi mövqeyi heç də az əhəmiyyət kəsb etmir. Əlverişli coğrafi mövqe Azərbaycanı regional iqtisadiyyatın əsas həlqəsinə çevirir, ölkəmizə strateji üstünlüklər verir və beynəlxalq əməkdaşlıq üçün yeni imkanlar açır.

Lakin Azərbaycanın xarici siyasəti təkcə geosiyasət və iqtisadiyyata əsaslanmır. Mədəniyyət və beynəlxalq əlaqələr də eyni dərəcədə mühüm rol oynayır. Azərbaycan dünyaya açıq, müasir müsəlman ölkəsidir, tarixən, İslam dünyasının sivil inkişaf tapmış, bir sıra sahələrdə öncüllük qazanmış, mütərəqqi ənənələr formalaşdırmış məmləkətidir.

Biz bütün mədəni və beynəlxalq platformalara da açıqıq. Qlobal tədbirlərə – Dünya və qitə idman oyunlarına, musiqi və mədəniyyət forumlarına, regonal məclislərə ev sahibliyi etmək ölkənin imicini gücləndirir və onu beynəlxalq arenada nəzərəçarpan oyunçuya çevirir.

Əlavə edim ki, dini komponent də önəmli amildir: Azərbaycan İslam və dünyəvi dünya arasında körpüyə çevrilib. Bu, beynəlxalq arenada təkcə milli maraqlarını deyil, müsəlman dövlətlərinin mövqelərini də təmsil etməyə və qorumağa kömək edir.

Bu gün Azərbaycan humanitar dəstək və strateji diplomatiya arasında balansı saxlayaraq Suriya Ərəb Respublikasına, eləcə də Ukraynaya fəal dəstək verir. Bu mövzuda tarixi və etnik bağları xüsusilə qeyd etmək lazımdır. Azərbaycan Suriya ilə ortaq dəyərlərin mövcudluğunu nəzərə alır. Ukrayna ilə bizi uzunmüddətli və etibarlı münasibətlərin əsasına çevrilmiş 70 illik ortaq tarix və mədəniyyət birləşdirir. Azərbaycan isə dünyanı "biz" və "onlara" bölmür, xarici siyasətini bəşəri maraqlar üzərində və qərəzsiz qurur. Qərəzsiz olmaq Azərbaycana beynəlxalq arenada çevik və ədalətli oyunçu olmağa imkan verir.

Azərbaycan Prezidentinin şəxsi nüfuzu isə ölkənin uğurlarında mühüm rol oynayır. Dövlət başçısı İlham Əliyev təkcə dünya şöhrətli siyasətçi və dövlət xadimi deyil, həm də bəşəri dəyərlərə sadiqliyi ilə geniş nüfuz qazanmış görkəmli şəxsiyyətdir. Onun sözü və əməlinin bir-birini tamamlaması liderlərin və beynəlxalq proses iştirakçılarının əhval-ruhiyyəsinə ciddi təsir edən ab-hava yaradır. Xarizma və strateji intuisiya ilə dəstəklənən bu verbal güc imkan verir ki, dünya siyasətini müəyyən edən liderlər belə, məsələn, Donald Tramp kimi gözlənilməz gedişləri ilə ilk baxışda anlaşılmazlıq yaradan supergüc sükançısı onun mövqeyini nəzərə alıb qəbul etsin.

Məhz Prezident İlham Əliyevin strateji təfəkkürə və çevik taktikya əsaslanan müdrik rəhbərliyi nəticəsində belə xarici siyasət Azərbaycanın dünya arenasında mövqelərini möhkəmləndirir, ölkəmiz beynəlxalq ictimaiyyətin dəyərləndirdiyi diplomatik qələbələr əldə edir.

# Dövlət idarəetməsində sinerji və innovativlik: Azərbaycan təcrübəsi



**I MƏQALƏ**

## Dövlət idarəçiliyi

Dövlət idarəçiliyinin fəlsəfəsi intensiv olaraq inkişaf edir. XXI əsrdə cəmiyyətin struktur və funksiyaca daha da mürəkkəbləşməsi ilə yanaşı, qlobal geosiyasi dinamikada xaotik ritmlərin çoxalması liderlərin dövlət idarəedilməsinə fərqli yanaşmalarını tələb edir. Bu barədə kifayət qədər nəzəri araşdırmalar mövcuddur və proses davam edir.

Bu məsələnin praktiki tərəfi özündə ictimai proseslərin idarəedilməsinin ümumi prinsip və metodlarını hazırlamaqla sıx bağlıdır. Buna görə də son illər dövlət idarəçiliyinə elmi yanaşmalara daha çox üstünlük verilir. Hazırda elmdə idarəçiliyə sistem, funksional, faliyyət, situasion, institusional və kompleks yanaşmalar mövcuddur. Bunların hər birinin üstün və zəif cəhətləri vardır. Təcrübə göstərir ki, konkret dövlətdən asılı olaraq ən səmərəli metod fərqli yanaşmaların optimal kombinasiyası ilə bağldır. Burada həm ölkənin idarəedilmə ənənəsindən, həm də ən müasir texnoloji tətbiqlərə söykənən metodlar şəbəkəsindən istifadə etmək lazım gəlir.

Biz məsələni ümumfəlsəfi mücərrəd səviyyədə deyil, AMEA-nın yeniləşmə kursu prizmasında konkret Azərbaycan təcrübəsinə aid olan bir sıra fəlsəfi məqamlar fonunda təhlil etməyə çalışacağıq. Akademiya müstəqil Azərbaycanın idarəedilməsinə nəzəri yanaşmaların hazırlanması aspektinə tədqiqatlarında ciddi diqqət yetirir. Bu prosesi elmi təşkilat Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu çərçivəsində Azərbaycançılıq fonunda həyata keçirir. Biz Azərbaycan təcrübəsinə məhz bu məqamları nəzərə alaraq baxmağa çalışacağıq.

## Azərbaycan təcrübəsinin nəzəri özəllikləri

1993-cü ildən başlayaraq müstəqil Azərbaycanda dövlət idarəçiliyinin həyata keçirilməsində bir sıra parametrlərin qarşılıqlı münasibətini vurğulamaq olar. Onlar ümumi "idarəetmə səmərəliliyi" məqsədinə xidmət edirlər. Ümumi səviyyədə məsələ məhz müstəqil Azərbaycanın dölət orqanlarının kompleks halında dövlətçilik baxımından maksimum səmərəliliyə nail ola bilmələri kontekstində qoyulmuşdur. İdarəetmədə səmərəlilik həm strukturca, həm də funksiyaca dövlət orqanlarının fəaliyyətinin ortaq sinerji yaratmasını ehtiva etməkdədir. "Ortaq sinerji" Azərbaycanda idarəçiliyin iki aspektdə anlamı üçün əhəmiyyətlidir.

Birincisi, hər bir dövlət orqanının ayrıca səmərəli fəaliyyət qabililiyyətinə malik olması. Bu, konkret təşkilatın öz struktur-funksional yapısını müasir tələblərə uyğun güclü dövlət və yüksək rifah cəmiyyəti formalaşdırılmasına xidmət kontekstində yaratması anlamına gəlir.

İkincisi, dövlət orqanları kompleks halında elə fəaliyyət sinerjisi yaratmalıdırlar ki, qarşıya qoyulan məqsədlərə birgə çatmaq mühiti yaransın.

Yeni tarixi mərhələdə məsələnin ikinci aspekti daha da önəmli olmuşdur. O, Azərbaycanın faktiki olaraq milli güclü dövlətdən regional liderliyə və indiki mərhələdə regionlararası məkanda ciddi söz sahibi olan dövlət statusuna yüksəlməsi ilə bağlıdır. Bu proses həm gərgindir, çox böyük güc tələb edir, həm də hakimiyyət-cəmiyyət münasibətləri kontekstində son dərəcə yüksək sinxronluq, ahəngdarlıq və sistemlik tələb edir. Həmin parametrlərin birgə yaratdığı effekt harmoniya formasında Azərbaycanın idarəçilik sinerjisidir!

Sonuncu tezisdən çox vacib bir qənaət əldə edilir. Onu aşağıdakı kimi yığcam ifadə edə bilərik: yeni tarixi mərhələdə dövlət təşkilatları struktur-funksional aspektdə sinerji yaratmalıdırlar. Yəni onlar struktur dəyişiklikləri ilə funksiyalarını digər bütün dövlət qurumları ilə qarşılıqlı əlaqədə elə məcraya yönəltməlidirlər ki, iradəçiliyin yekun effekti kimi sinerji yaransın!

## Dövlətin inkişafının yeni tələbləri

Sonuncu tezis işığında idarəçilik baxımından bir mühüm məqamı vurğulamağa ehtiyac vardır. Müasir idarəçilik fəlsəfəsində dərin təhlillərlə yanaşı, cəmiyyətin ədalətli və dayanıqlı inkişafına istiqamətlənmiş idarəetmə modellərinə üstünlük verilir. Azərbaycan təcrübəsində də, ümumiyyətlə, "ədalətli cəmiyyət", "sabit cəmiyyət", asayişi təmin edilmiş cəmiyyət" kimi dəyərlərə həmişə böyük qiymət verilmişdir. Azərbaycan cəmiyyəti ənənədən idaretmənin səmərəliliyi kontekstində ədalətli, dayanıqlı və nizam-intizamlı cəmiyyətin formalaşmasına xüsusi diqqət yetirmişdir. Ədalətli olmayan idarəetməni azərbaycanlı şüuru qəbul etmir!

Yeni tarixi mərhələdə bu tələbə ehtiyac daha da artmışdır. Bir nümunədə məsələnin bu tərəfinə baxa bilərik. İdarəetmə fəlsəfəsində müxtəlif nazirliklər və təşkilatlar arasında qarşılıqlı əlaqələrin cəmiyyətə təsiri istiqaməti xüsusi araşdırılır. Məsələn, tədqiqatlarda Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi və Maliyyə Nazirliyi arasında əlaqələrin sinergetik effektinin əlamətləri hansılar ola bilər? Burada adətən iki mühüm faktoru vurğulayırlar.

Birincisi, xəstəliklərin səmərəli profilaktikası mühitinin yaradılması.

İkincisi, sağlam həyat tərzinin inkişafı.

Bu iki şərtin yerinə yetirilməsi üçün vurğulanan nazirliklərin struktur və funksional aspektlərində fəaliyyətlərini maksimum dərəcədə sinxronlaşdırmaları çox təsirli ola bilər. Bununla yanaşı, çox vacib bir xüsusiyyətin yeni tarixi mərhələdə Azərbaycan dövlət idarəçiliyi üçün aktuallaşdığını da qeyd etməliyik. Biz, bütün dövlət təşkilatları üçün əsas məsələ olan kadr hazırlığını və dövlətçiliyə tam uyğun idarəçilik psixologiyasının formalaşmasını nəzərdə tuturuq. Hər iki məqamın yeni tarixi mərhələdə Azərbaycan dövləti üçün ciddi əhəmiyyəti barədə Prezident İlham Əliyev müxtəlif kontekstlərdə olduqca vacib fikirlər ifadə etmişdir. Onların üzərində dayanaq.

## Yeni tarixi mərhələdə kadrların milliliyi

Ümumiyyətlə, dünyada XXI əsrdə "millilik" anlayışının məzmunu yeniləşir. Burada etnik mənsubluq, qan birliyi, coğrafi məkan (traybolistik kontekstdə rayon, region və s.) arxa plana keçir. Paternalist kriteriyalarla kadr seçimi cəmiyyət və dövlət üçün faicəvi nəticələr verə bilir. Bununla yanaşı, hər bir cəmiyyətin öz ənənəsini nəzərə almadan kadrların hazırlanmasında kəskin universal dəyişikliklər etməsi də başqa xarakterli dövləti faciələrə aparıb çıxarır. Burada yalançı liberlizm, içi boş demokatiya və ya abstrakt insan haqları kimi gəlişigözəl ibarələrin zərəri daha çox ola bilir. Bu təcrübənin ziyanını hələ də bir sıra postsovet məkanı ölkələrində görürlər.

Son illərdə Qərbdə və Rusiyada dövlətçiliklə bağlı aparılan fəlsəfi və politoloji tədqiqatlarda problemin bu aspektinə diqqət daha da artmışdır. Azərbaycan üçün məsələnin bu tərəfinin ciddi strateji əhəmiyyət kəsb etdiyini Prezident İlham Əliyev aydın və dəqiq ifadə etmişdir. Bunu bir neçə dəfə dövlət başçısı məhz dövlətçilik, cəmiyyətdə layiqli şəxsiyyətlərin və kadrların yetişdirilməsi kontekstində demişdir. Prezidentin gənc nəsli xarakterizə edərkən görmək istədiyi keyfiyyətlər həm yanaşma tərzi, həm də dövlət kadrı kimi fəaliyyətdə milliliyin kriteriyalarıdır.

Prezident İlham Əliyevin 2024-cü ildə andiçmə mərasimindəki nitqindən bir fraqment bu istiqamətdə konkret təsəvvür yaradır. Ölkə rəhbəri demişdir: "Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır".

Bəlkə də, bir qədər uzun iqtibasdır, lakin o, yeni nəslin yetişdirilməsi kriteriyaları həm də yeni milli kadrların formalaşması məsələsinə də aiddir. Burada seçilən əsas kriteriyalar buna görə də idarəetmə baxımından da çox mühümdürlər. Prezidentin bütövlükdə vəziyyəti daha da ümumi təqdim etməsinin ilk növbədə məhz bu məntiq daxilində böyük əhəmiyyəti vardır. İlham Əliyev sözlərinə davam edərək ifadə etmişdir: "Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur".

Deməli, ümumi miqyasda gənc nəslin yetişdirilməsi bütövlükdə milli-mənəvi dəyərlərlə bağlıdır. Sonuncu isə ilk növbədə dövləti mənası olan vəzifədir. Çünki söhbət yekunda gənc kadrların hazırlanmasında milli-mənəvi dəyərlərin yeri və rolundan gedir. Dövləti bu gün ailələrdə və məktəblərdə tərbiyə alan insanlar idarə edəcəklər. Kimsə kənardan hazır kadr verməyəcək. Buna görə də Azərbaycan Prezidenti vurğulayır: "Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz".

Deməli, Azərbaycan dövləti idarəetmə fəlsəfəsi ilə elə vətəndaş cəmiyyəti formalaşdırmalıdır ki, stratejidə müstəqil dövlətçiliyin qarşısına qoyulan vəzifələrə çatmaq mümkün olsun.

Məsələnin bu cür təqdimatı avtomatik olaraq Azərbaycanda Səhiyyə, Elm və Təhsil və Maliyyə nazirlikləri arasında fəaliyyət sinxronluğunun çox əhəmiyyətli bir cəhətini anlamağa imkan verir. Bu üç nazirliyin kompleks fəaliyyəti yuxarıda sağlamlıqla bağlı vurğulanan iki mühüm faktorla yanaşı, milli kadrların yetişdirilməsi aspektində də olduqca vacibdir. Bəs vurğulanan nazirliklər və onlarla yanaşı başqa dövlət qurumlarının fəaliyyəti hansı şərtlər daxilində dövlətin gözlədiyi səmərəni verə bilər? Başqa sözlə, bizim baxdığımız kontekstdə sağlam, milli dəyərlərə sadiq, eyni zamanda ən müasir idarəetmə psixologiyasına malik kadrlar yetişdirməyə nail olmaq olar? Məsələnin bu tərəfinin reallaşması xüsusi hazırlanmış konseptual yanaşma tələb edir. Həmin yanaşma həm də ümumi qənaətlərin praktiki reallaşmasına geniş imkan yaratmalıdır. Bunlar mütləq surətdə dövlət təşkilatlarının fəaliyyətinin sinxronluğunun idarəetmə sinerjisinə çevrilməsini tələb edir! Burada Frensis Fukuyamanın geniş istifadə etdiyi və dövlətçiliyə birbaşa aidiyyatı olan "resentiment identiklik" anlayışının oynaya biləcəyi rolu mütləq nəzərə almaq lazım gəlir. Çünki filosofun qənaətinə görə, resentimizm bütövlükdə müasir cəmiyyətlərin hər birinə aid edilə bilər. Resentimentlik ümumi halda müasir cəmiyyətlərin sonsuz fraqmentləşmə təhlükəsi ilə bağlıdır. Onun dövlət xidməti institutunun transformasiyasına da ciddi fraqmentləşdirici təsiri ola bilər.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Mandat və məqsəd arasında ziddiyyət

*"Aİ müşahidəçiləri"nin Azərbaycanla sərhəddə qalması müvəqqətidir*

**"Avropa İttifaqının (Aİ) Ermənistandakı müşahidə missiyası (EUMA) fəaliyyətini davam etdirəcək və missiyanın mandatında mümkün dəyişikliklər Brüssel və İrəvan arasında müzakirə olunacaq". Bu barədə mediaya açıqlama verən Aİ-nin xarici siyasət üzrə rəsmi nümayəndəsi Anita Hipper hazırda missiyanın əsas vəzifəsinin Ermənistan–Azərbaycan şərti sərhədindəki vəziyyəti monitorinq edərək məlumat toplamaq olduğunu bildirib. Onun sözlərinə görə, Aİ Azərbaycan və Ermənistan arasında Vaşinqtonda sülh sazişinin paraflanmasını alqışlayıb və tərəfləri bu sazişi tezliklə imzalamağa və ratifikasiya etməyə çağırıb.**

Oxuculara xatırladaq ki, bundan əvvəl Aİ müşahidə missiyasının fəaliyyətinə son verməyi qəbul etdiyi barədə məlumatlar yayılmışdı. Amma A.Hipperin fikrincə, Vaşinqton sammitindən sonra missiyanın bölgədə qalması fəaliyyətin Ermənistan–Azərbaycan münaqişəsinin həllindən daha geniş regional və geosiyasi maraq kəsb etməsindən irəli gəlir. Yəni, belə çıxır ki, hətta sülh müqaviləsinin imzalanması müşahidə missiyasının fəaliyyətini Ermənistanın digər ərazilərində davam etdirməsinə mane olmayacaq. Aİ missiyası, tərəflər arasında ümumi sərhəd boyunca üçüncü qüvvələrin yerləşdirilməsini qadağan edən sülh sazişinin 7-ci maddəsinə uyğun olaraq, fəaliyyət sahəsini yenidən formatlaşdırma imkanı əldə edir. Qeyd edək ki, "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında" Sazişin 7-ci maddəsinə əsasən, tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Tərəflər qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə hərbi sahə də daxil olmaqla qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəklər. Göründüyü kimi, Sazişin 7-ci maddəsi yalnız iki ölkənin ümumi sərhədi boyunca üçüncü qüvvələrin yerləşdirilməsini qadağan edir. Bu isə Brüsselə İrəvanla razılaşma əsasında missiyanın fəaliyyətini yenidən formatlaşdırmaq imkanı yaradır. Deməli, Aİ missiyası Azərbaycanla sərhəddən Ermənistanın digər bölgələrinə, o cümlədən İran, Türkiyə və Gürcüstanla sərhədlərə yönəldilə və ölkənin daxilinə çəkilə bilər. Belə olan halda Aİ müşahidə missiyasının Ermənistanda qalması ilə bağlı müxtəliv versiyalar ortaya çıxır. Onlardan 3-ü daha çox diqqəti çəkir: Ermənistanın qonşu ölkələri ilə bağlı məlumat toplamaq, Rusiyanın Gümrüdəki hərbi bazasının fəaliyyətini izləmək və gələcəkdə Qərb hərbi kontingentinin Ermənistanda yerləşdirilməsi ehtimalı. Hələlik ehtimal olsa da, bu üç versiya həm regional güc balansı, həm də beynəlxalq təhlükəsizlik baxımından narahatlıqlar yaradır. Hər 3 versiyanı nəzərdən keçirək.



Avropa İttifaqı (Aİ) tərəfindən həyata keçirilən missiyanın əsas məqsədi Ermənistanın qonşu ölkələri olan Gürcüstan və İranla bağlı məlumat toplamaqdır. Bu fəaliyyət sərhəd gərginliyindən hərbi fəaliyyətlərə, siyasi qərarlara və sosial-iqtisadi vəziyyətə qədər geniş bir spektri əhatə edir. Məqsəd regiondakı "geosiyasi balansı daha dəqiq qiymətləndirmək və gələcək strateji qərarları" hazırlamaqdır. Lakin bu fəaliyyət Gürcüstan və İran arasında inamsızlığa yol açaraq, hər iki ölkənin suverenliyini qorumağa çalışmasına səbəb ola bilər.

Missiyanın ikinci istiqaməti Rusiyanın Gümrü şəhərindəki hərbi bazasını izləməkdir. Moskva bu bazanı Ermənistanın suverenliyini dəstəkləmək üçün saxlamır, həm də Cənubi Qafqazda və ətraf regionda hərbi və siyasi təsirini artırmaq məqsədini güdür. Aİ bu bazanın fəaliyyətini izləməklə yanaşı, Rusiya ilə hərbi münasibətləri və regional güc balansını təhlil etmək niyyətindədir. Amma Moskva bu müşahidəni öz hərbi fəaliyyətinə müdaxilə kimi qiymətləndirə və buna sərt etiraz edə bilər.

Üçüncü istiqamət Qərb hərbi kontingentinin Ermənistanda yerləşdirilməsinə hazırlıq prosesidir. Ekspertlər bunun siyasi və hərbi baxımdan Qərbin regiondakı mövqeyini möhkəmləndirməyə yönəldiyini qeyd edirlər. Bu fəaliyyət regional siyasətin və hərbi hazırlığın mühüm hissəsini təşkil edəcək. Qərbin Ermənistandakı hərbi mövcudluğu Rusiyanın Cənubi Qafqazda təsirinə qarşı açıq bir təhdid olacaq. Kreml uzun müddətdir ki, Ermənistanda hərbi bazalarla mövcudluğunu qoruyur və bu, ona regionda nüfuz və təhlükəsizlik təminatları verir. Qərbin Ermənistanla hərbi əlaqələrini genişləndirməsi Rusiyanın regional təsirini zəiflədir və Kremlin maraqlarına ciddi zərbə vurur. Bu isə Rusiya ilə Qərb arasında gərginliyi artıracaq.

Ümumiyyətlə, Aİ missiyası Cənubi Qafqazda geosiyasi təsir əldə etməyi hədəfləyir. Lakin onun fəaliyyətinə verilən reaksiyalar həm regional, həm də qlobal güclər tərəfindən bölgənin sabitliyinə və geosiyasi dinamikanın dəyişməsinə təsir edəcək. Qərb hərbi kontingentinin Ermənistanda yerləşdirilməsi həm də beynəlxalq hüququn və diplomatik normaların gərginliyə səbəb olacağı bir situasiyadır. Bölgədəki hərbi və diplomatik gərginliklər daha da dərinləşər və bu, uzunmüddətli təhlükəsizlik problemlərinə yol aça bilər.

*

Hər üç variant geniş məlumatların toplanmasını tələb edir. Bu məlumatlar sərhəd boyunca baş verən hadisələrdən tutmuş hərbi fəaliyyətlərə, siyasi qərarlara və sosial-iqtisadi vəziyyətə qədər geniş spektri əhatə edəcək. Toplanan məlumatlar yalnız sərhəddə vəziyyətin monitorinqi ilə məhdudlaşmır, həm də regiondakı geosiyasi balansın daha dəqiq qiymətləndirilməsi və gələcək strateji qərarların hazırlanması üçün əsas mənbə kimi istifadə olunacaq.

Beləliklə, Aİ missiyasının Ermənistandakı fəaliyyəti, yalnız regional təhlükəsizliyə deyil, həm də beynəlxalq güclər arasındakı münasibətlərə və geosiyasi mübarizəyə əhəmiyyətli dərəcədə təsir edir. Qərbin Ermənistandakı hərbi mövcudluğu Cənubi Qafqazın geopolitik mənzərəsini dəyişdirə bilər. Bu, yalnız regional oyunçuların deyil, həm də ABŞ, Rusiya və Avropa İttifaqı kimi böyük güclərin strateji qərarlarını yenidən nəzərdən keçirməsinə səbəb olacaq.

İstənilən halda, missiyanın Azərbaycanla sərhəddə fəaliyyətinin bitməsinə az müddət qalır. Bununla bağlı **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev deyib:** "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında" Sazişin mətninə əsasən, tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Burada söhbət həm Avropa İttifaqının müşahidə missiyasından, həm də Rusiya qüvvələrindən gedir. Ancaq bir şey nəzərə alınmalıdır ki, bunlar sazişin qüvvəyə minməsindən sonrakı müddət üçün nəzərdə tutulur. Biz isə hələ sazişi imzalamamışıq, sadəcə paraflamışıq. Çox güman ki, sənəd Ermənistan konstitusiyasına müvafiq dəyişikliklər etdikdən sonra imzalanacaq".

Mərkəz rəhbəri hesab edir ki, yaxın iki ildə Aİ-nin müşahidə missiyasının Ermənistan ərazisində fəaliyyətini davam etdirmək ehtimalı var: "Lakin delimitasiya və digər müsbət faktorları nəzərə alaraq Aİ missiyası Ermənistan ərazisindən daha tez çıxa bilər. Bu, Ermənistan və Aİ arasında olan məsələdir. Ancaq sülh sazişi imzalandıqdan sonra bu, təkcə Ermənistan – Aİ məsələsi olmayacaq. Artıq Ermənistanın öhdəliyi olacaq ki, ərazisindən üçüncü tərəfin qüvvələrini çıxarsın".

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Özəl bölməyə dövlət dəstəyi beynəlxalq reytinqin diqqətində

## *54 min sahibkara 3,4 milyard manat güzəştli kredit verilib*

**"S&P Global Ratings" agentliyi Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) üzrə qısamüddətli "B" reytinqini təsdiqləyib. Agentliyin məlumatına əsasən, 2025-ci ilin ortalarına ABİF-nin vəsaitləri 1,05 milyard manat (615 milyon dollar), Azərbaycan İnvestisiya Şirkətinin vəsaitləri isə 374 milyon manat (220 milyon dollar) təşkil edib. Hər iki qurum fəaliyyətində sahibkarlığın dəstəklənməsinə və respublika iqtisadiyyatının şaxələndirilməsinə mühüm önəm verib. Eyni zamanda, adıçəkilən fond dövlətin güzəştli kreditlərini banklar vasitəsilə təqdim etməsini, qeyri-xammal sahələrində ixrac və idxalı əvəzləyən istiqamətlərdə fəaliyyət göstərən şirkətlərin azlıq paylarına investisiya yatırmasını da diqqətdə saxlayıb.**

Qeyd edək ki, ötən ilin sonunda ABİF-nin balansından 192 milyon manat (113 milyon dollar) problemli kreditlər silinib. Bu vəsaitlət 2016–2020-ci illərdə lisenziyası ləğv edilən maliyyə institutlarına aid olub. 2025-ci ilin ortalarına problemli kreditlərin həcmi isə 9,7 milyon manata (5,7 milyon dollar) qədər azalıb. Halbuki bu göstərici 2023-cü ilin sonunda 24 faiz olub.

ABİF tərəfindən son illərdə verilən güzəştli kreditlər regionlarda sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi dinamikanın sürətlənməsinə böyük töhfə verib. Bundan başqa, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dayanıqlığının və inkişafının reallaşdırılması üçün onların güzəştli maliyyə resurslarına çıxışı gecləndirilib. Dövlətin bu sahədə gerçəkləşdirdiyi dəstək mexanizmləri sahibkarlar üçün əlverişli maliyyələşmə imkanları yaradıb və onların biznes fəaliyyətlərinin genişlənməsini şərtləndirib.

Mikro, kiçik və orta sahibkarlıq hər bir ölkənin iqtisadi sistemində dinamikliyi gerçəkləşdirən əsas amildir. Azərbaycanda sadalanan qurumların ümumi sahibkarlıq subyektləri sırasında xüsusi çəkisi ildən-ilə artır. Dövlətin güzəştli kredit siyasəti bu artımı stimullaşdıran mühüm amil kimi diqqət çəkir. Kreditlər aşağı faiz dərəcəsi ilə verilməklə yanaşı, sahibkarların istehsal avadanlıqlarının alınması, texnologiyaların yenilənməsi, xidmət sahələrinin genişləndirilməsi kimi mühüm ehtiyaclarının ödənilməsinə yönəldilir. Nəticədə onların dayanıqlığı artır, bazar şəraitinə adaptasiya imkanları genişlənir. Bu isə ölkədə iqtisadi sabitliyin qorunmasını reallaşdırır.

Azərbaycan dövlətinin sahibkarlığın maliyyələşməsinə yanaşması sadəcə kreditlərin verilməsi ilə məhdudlaşmır. Burada əsas hədəf davamlı iqtisadi artımın reallaşdırılması və regionlarda biznesin özünü maliyyələşdirmə qabiliyyətinin artırılmasıdır. Bu məqsədlə dövlət müxtəlif güzəşt mexanizmləri – subsidiyalar, zəmanət sistemləri və elektron müraciət platformaları təqdim edir. "Elektron kredit və zəmanət" informasiya sistemi sahibkarlar üçün mühüm yeniliklərdən biridir. Bu sistem vasitəsilə sahibkarlar heç bir bank və ya kredit təşkilatına getmədən onlayn şəkildə müraciət edir, kredit alınması prosesini sürətləndirir. Belə bir şərait həm bürokratik maneələrin aradan qaldırılmasına,



həm də şəffaflığın artırılmasına müsbət təsir göstərir.

Ənənəvi olaraq, əvvəllər regionlarda biznes mühitinin formalaşdırılmasında əsas maneələrdən biri kapitala çıxış imkanlarının məhdudluğu olub. Xüsusilə kiçik sahibkarlar və yeni fəaliyyətə başlayan bizneslər üçün maliyyə resurslarına çıxış hər zaman çətinlik yaradıb. ABİF-in təqdim etdiyi güzəştli kreditlər isə məhz bu boşluğu dolduraraq regionlarda sahibkarların yeni istehsal sahələri açmasını, kənd təsərrüfatı məhsullarının emalı və satış zəncirində iştirakını sürətləndirib. Bu prosesin nəticəsində bölgələrdə minlərlə yeni iş yeri açılıb, yerli əhalinin məşğulluq imkanları genişlənib. Yeni istehsal müəssisələrinin, emal mərkəzlərinin və xidmət sahələrinin yaradılması regionlarda sosial-iqtisadi inkişafı sürətləndirərək paytaxt mərkəzli iqtisadi modelin balanslaşdırılmasına imkan verib.

Güzəştli kreditlərin təsiri yalnız iqtisadi nəticələrlə məhdudlaşmır. Bu maliyyə dəstəkləri regionlarda sosial rifahın yüksəldilməsinə də mühüm töhfə verir. Yeni istehsal və xidmət sahələrinin açılması nəticəsində əhalinin gəlir səviyyəsi artır, gənclərin işlə təmin olunması asanlaşır. Bununla yanaşı, kənd təsərrüfatının inkişafı üçün yaradılan imkanlar ərzaq təhlükəsizliyinin təmininə də xidmət edir. Eyni zamanda, kreditlərin hesabına yaradılan müəssisələr daxili bazarda rəqabət mühitini gücləndirir, idxaldan asılılığı azaldır və ixrac potensialını artırır. Bu isə ölkənin iqtisadi təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır.

Hazırda dövlətin əsas hədəfi regionlarda sahibkarlığın daha da inkişaf etdirilməsi, innovativ və rəqəmsal həllərin biznes mühitinə inteqrasiyasıdır. Bu baxımdan, güzəştli kreditlər yalnız ənənəvi sahələrə deyil, həm də startaplara, innovasiya mərkəzlərinə yönəldilir. Gələcəkdə bu prosesin daha da genişlənməsi gözlənilir ki, bu da Azərbaycanın rəqabətqabiliyyətli iqtisadiyyat qurmaq strategiyasının tərkib hissəsidir.

Xatırladaq ki, ABİF indiyədək 54 mindən çox sahibkara 3,4 milyard manat güzəştli kredit verib. Bu il isə 2 min 371 sahibkara 126 milyon manat güzəştli kredit ayrılıb. Güzəştli kreditlər sahibkarlıq subyektlərinə illik 5 faiz olmaqla banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları vasitəsilə çatdırılıb. ABİF dövlətimizin başçısının 2021-ci ildə imzaladığı fərman əsasında İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin birləşdirilməsi ilə yaradılıb.

Fondun fəaliyyətini ifadə edən yuxarıdakı göstəricilər isə son illər ərzində respublikamızda özəl sektorun dinamik inkişafına yönələn diqqət və qayğıdan xəbər verir. Bu gün də sözügedən istiqamətdə mühüm layihələr həyata keçirilir, investisiya təşviqi mexanizminin tətbiqi davam etdirilir. Eyni zamanda, iş adamlarının xərclərinin azalması məqsədilə onlara prioritet sahələr üzrə güzəştli kreditlər ayrılmasına xüsusi qayğı göstərilir. Başqa sözlə, güzəştli kreditlər qeyri-neft sektorunda sənaye istehsalı və emalı, o cümlədən aqrar emal, kənd təsərrüfatı və anbar kompleksləri, logistika xidməti, "yaşıl" və innovasiya yönümlü layihələrin icrasına yönəldilir.

# ABŞ Energetika Nazirliyinin ölkəmizin neft hasilatı barədə proqnozu



**ABŞ Energetika Nazirliyinin Enerji İnformasiya İdarəsinin (Eİİ) son proqnozuna görə, 2026-cı ildə Azərbaycanda orta gündəlik neft hasilatı 0,54 milyon barel təşkil edəcək. Ölkəmizdə xam neft hasilatı üzrə proqnoz da əvvəlki qiymətləndirmə ilə müqayisədə dəyişməyəcək.**

Eİİ-nin proqnozuna görə, 2026-cı ildə hasilatın birinci rübdə sutkada 0,55 milyon barrel ilə başlaması, ikinci rübdə 0,54 milyon barrelə enməsi, daha sonra üçüncü və dördüncü rüblərdə isə 0,53 milyon barrelə enəcəyi də gözlənilir. Eİİ-nin proqnoz hesabatında 2025-ci il üçün orta gündəlik hasilatın 0,57 milyon barel səviyyəsində qalacağı da bildirilib. Eyni zamanda, birinci və ikinci rüblərdə bu göstəricinin sutkada 0,57 milyon barel, ilin ikinci yarısında isə cüzi azalma ilə sutkada 0,56 milyon barel həddində olacağı qeyd edilib.

2024-cü ilin yanvar-iyun ayları üzrə əməliyyat məlumatlarına əsasən, neft hasilatının ümumi həcmi kondensat da daxil olmaqla 13,7 milyon ton təşkil edib. Bunlardan 8 milyon tonu "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağının, 1,9 milyon tonu "Şahdəniz"in, 0,3 milyon tonu isə "Abşeron"un payına düşüb. SOCAR-ın hasilatı kondensat da daxil olmaqla 3,5 milyon ton təşkil edib. Hesabat ilinin birinci yarısında neft, o cümlədən kondensat ixracı 11,6 milyon tona çatıb ki, bunun da 9,9 milyon tonu AÇG konsorsiumunun, 1,4 milyon tonu SOCAR-ın, 0,3 milyon tonu isə "Abşeron"un payına düşüb.

# Cənnət Qarabağın aqroturizm potensialı

**Dövlət Turizm Agentliyinin məlumatına görə, Qarabağ və Şərqi Zəngəzurun təbii resursları və mədəni irsi aqroturizmin inkişafı üçün əlverişli şərait yaradır. Lakin bu ərazilərdə bir çox iri fermer təsərüffatları olsa da, ixtisaslaşmış aqroturizm fəaliyyət göstərmir. Buna görə də işğaldan azad edilən bölgələrdə turizmin inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirildiyinə görə, sahənin inkişafının ilkin qiymətləndirilməsi qarşıda önəmli vəzifə kimi durur.**

Qeyd edək ki, bu ərazilər özünün zəngin təbii sərvətləri, əlverişli iqlim şəraiti, bol su ehtiyatları, tarixi-mədəni irsi və mənzərəli relyefi ilə ölkə turizminin mühüm inkişaf zonası hesab olunur. Turizm potensialı baxımından seçilən əsas bölgələrdən biri olan Şuşa şəhəri respublikanın mədəniyyət paytaxtı kimi qədim tarixi abidələri, muzeyləri və geniş turizm infrastrukturu ilə fərqlənir. Şəhərdə beynəlxalq səviyyəli festivalların və irimiqyaslı turizm tədbirlərinin keçirilməsi üçün baza rolunu oynaması nəzərdə tutulur.

Kəlbəcərdə qış və sağlamlıq turizminin inkişaf etdirilməsi, Ağdamda "dark" – işğalın nəticələrinin çılpaq şəkildə göstərilməsi, Tuğ və Hadrutda şərab, Azıx, Tağlar mağaraları ilə bağlı marşrutların salınması planlaşdırılır. Laçın meşəlik və dağlıq relyefi sayəsində dağ turizmi üçün əlverişli imkanlara malikdir. Rayonda ekoturizm marşrutlarının və yay istirahət mərkəzlərinin yaradılması planlaşdırılır. Kəlbəcər rayonu isə mineral su ehtiyatları, müalicəvi iqlimi və dağlıq təbiəti ilə sağlamlıq və qış turizminin inkişafı baxımından yüksək potensiala malikdir.

Zəngilanın Araz çayı boyunca uzanan landşaftları və zəngin bioloji müxtəlifliyi ekoturizm və aqroturizmin təşkili üçün əlverişli hesab olunur. Füzuli və Cəbrayıl rayonları da tarixi abidələri, qədim yaşayış məskənləri və su ehtiyatları ilə turizm fəaliyyətinin genişləndirilməsi üçün perspektivli ərazilərdir.

# Aqrar inkişaf ixrac imkanlarını da artırır

## *7 ayda xaricə 730,2 milyon dollarlıq kənd təsərrüfatı məhsulları göndərilib*

**Hazırda əhalisinin, təqribən, yarısının bölgələrdə yaşadığı Azərbaycanda aqrar sahənin inkişafı, daxili bazarın kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Elə ölkədə həyata keçirilən aqrar islahatların birinci hədəfi də məhz buna nail olmaqdan ibarətdir.**

İkinci hədəf isə qeyri-neft istehsalında xüsusi çəkiyə malik kənd təsərrüfatı məhsullarının ixracını artırmaqdır. Son illər aqrar sektorun inkişaf etdirilməsi, Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirləri nəticəsində hər iki istiqamətdə uğurlarımız getdikcə artır. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 il ərzində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi real ifadədə 2 dəfədən çox artıb. Ötən dövrdə ölkədə bitkiçilik məhsullarının istehsalında 53 faiz, heyvandarlıq məhsullarının istehsalında isə 42,5 faiz artım qeydə alınıb. Bu da kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının, təqribən, 30 faiz artmasına imkan yaradıb.

Aqrar sektorda müşahidə olunan müsbət dinamika bu ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-iyul aylarında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 8 milyard 204,5 milyon manat təşkil edib. Bunun da 4 milyard 69 milyon manatı bitkiçilik, 4 milyard 135,5 milyon manatı isə heyvandarlıq məhsullarının payına düşüb. Bu ilin 8 ayında əvvəlki ilin eyni dövrü müqayisədə kənd təsərrüfatının ümumi istehsalı 0,3 faiz artıb. Hesabat dövründə heyvandarlıq məhsulları üzrə 1,1 faiz artım, bitkiçilik məhsulları üzrə isə 0,4 faiz azalma qeydə alınıb.

Bununla belə, kənd təsərrüfatının mühüm sahələrindən sayılan bitkiçilik məhsullsrının istehsalının artırılması üçün ölkədə geniş imkanlar mövcuddur. Bu səbəbdəndir ki, son illər istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Əkin sahələrinin genişləndirilməsi isə məhsul bolluğuna təminat yaradan mühüm amildir. Bu məqsədlə ötən ilin payızından başlayaraq 2025-cü il üçün bitkiçilik məhsullarının əkini intensiv qaydada davam etdirilib.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otlar da daxil olmaqla, ümumilikdə, 1 milyon 582,7 min hektar sahədə payızlıq və yazlıq bitkilərin əkini həyata keçirilib. Ölkə üzrə əkin sahələrinin 973,4 min hektarını və yaxud 61,5 faizini dənli və dənli paxlalı bitkilər, 125,9 min hektarını (7,9 faiz) texniki bitkilər, 122,8 min hektarını (7,8 faiz) kartof, tərəvəz və bostan bitkiləri, 360,6 min hektarını (22,8 faiz) yemlik bitkilər təşkil edib. Dənli və dənli paxlalı bitkilərin 479 min hektarı (49,2 faiz) buğda, 433,8 min hektarı (44,6 faiz) arpa, 34,2 min hektarı (3,5 faiz) qarğıdalı, 14 min hektarı (1,4 faiz) paxlalı bitkilər, 12,4 min hektarı (1,3 faiz) isə digər dənli bitkilərin payına düşüb. Eyni zamanda, dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin əsas hissəsini payızlıq dənli bitkilər təşkil edib.

Ayrı-ayrı günlərdə müşahidə olunan əlverişsiz hava şəraitinə baxmayaraq, sahələrdə bol məhsul yetişdirilməsinə nail olunub. Ötən müddətdə məhsulun optimal vaxtda və itkisiz yığılması üçün bütün imkanlardan maksimum istifadə edilib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin avqust ayının 1-dək qarğıdalı da daxil olmaqla tarlalardan 2



milyon 982,9 ton dənli və dənli-paxlalılar toplanılıb. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,6 faiz çoxdur. Hesabat dövründə sahələrdən 1 milyon 189,8 min ton tərəvəz, 611,1 min ton kartof, 411,1 min ton bostan məhsulları, 348,1 min ton meyvə və giləmeyvə, 37,6 min ton şəkər çuğunduru, 6 min ton üzüm, 2,5 min ton tütün, 1,7 min ton günəbaxan, 834,3 ton yaşıl çay yarpağı yığılıb. Əvvəlki ilin müvafiq dövrünə nisbətən qarğıdalı da daxil olmaqla dənli və dənli paxlalı bitkilər, kartof, meyvə və giləmeyvə, şəkər çuğunduru, üzüm, tütün və yaşıl çay yarpağının yığılmasında artım baş verib. Bununla belə, tərəvəz, bostan məhsulları və günəbaxan istehsalında isə əksinə, bir qədər azalma qeydə alınıb.

Kənd təsərrüfatının ikinci mühüm sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də ölkədə təxirəsalınmaz tədbirlər həyata keçirilib. Bu baxımdan sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülən işlər mal-qaranın baş sayının artmasına və heyvanların məhsuldarlığının yüksəlməsinə səbəb olub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar-iyul aylarında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 335,3 min ton ət, 1 milyon 315,5 min ton süd, 1 milyard 415,7 milyon ədəd yumurta, 13,7 min ton yun və 186,6 ton barama istehsal olunub. Ötən ilin müvafiq dövrünə nisbətən yumurta istehsalı 2,2 faiz, ət istehsalı 1, 2 faiz, süd istehsalı isə 0,3 faiz artıb. Bununla belə, hesabat dövründə yun istehsalında 3 faiz, barama istehsalında isə 22,1 faiz azalma qeydə alınıb.

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bütövlükdə isə, kənd təsərrüfatı məhsulları ixracının son bir neçə ildən etibarən başlayan yüksək artım dinamikası bu ilin ötən dövründə də davam edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın avqust sayına əsasən, 2025-ci ilin yanvar-iyul ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə ixracın statistik dəyəri 22,1 faiz artaraq 730,2 milyon ABŞ dolları təşkil edib. Ümumi ixracın isə 551,4 milyon dolları və 27,9 faizi aqrar, 178,8 milyon dolları və ya 7,3 faizi aqrar-sənaye məhsullarının payına düşüb.

Göründüyü kimi, aqrar sahədə mövcud potensialdan səmərəli istifadə olunması, əkin sahələrinin genişləndirilməsi, eləcə də heyvandarlığın inkişaf etdirilməsi üçün göstərilən dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyinə və ixrac potensialının artırılmasına mühüm töhfələr verir. Qarşıdakı illərdə isə kənd təsərrüfatının hər il orta hesabla 4 faiz artacağı proqnozlaşdırılır. Elə Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında bir çox sahələrdə olduğu kimi, da aqrar sektorda müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunub.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# "Yaşıl" enerji hədəfləri milli prioritetlər sırasındadır

*Qarabağ və Şərqi Zəngəzur isə "təmiz enerji" zonasına çevrilir*

**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev mediaya müsahibəsində hazırda respublikada istehsal edilən bərpa olunan enerjinin ixraca yönəldilməsi istiqamətində genişmiqyaslı layihələrin həyata keçirildiyini bildirib. Agentlik rəsmisi ənənəvi enerji resurslarından asılılığın azaldılması üzrə təşəbbüslərin gerçəkləşdirilməsindən danışarkən 2030-cu ilədək bərpa olunan enerji mənbələri payının ümumi yatırımda 30 faizə çatdırılmasını önəmli vəzifə kimi vurğulayıb. O, ilkin hesablamalarla, Azərbaycanda bu məqsədə 2027-2028-ci illərdə nail olunacağı proqnozunu da diqqətə çatdırıb.**

Qeyd edilib ki, işğaldan azad olunan ərazilərdə bunun üçün geniş imkanlar var – təxminən, 500 meqavatt hidroenerji potensialı mövcuddur. Çünki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında çox sayda dağ çayları hidroenerji imkanlarını artırır. Cəbrayıl və Zəngilan günəş, Kəlbəcər-Laçın zonası isə külək enerjisi zənginliyi ilə diqqət çəkir. Hazırda bp şirkəti ilə Cəbrayılda ilkin investisiya dəyəri 200 milyon dollar olan və 240 meqavatt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyası (GES), eləcə də hər biri 50 MVt gücündə olan "Üfüq" və "Şəms" GES layihələri reallaşdırılır. 2027-ci ilin sonunadək isə bu stansiyaların istismara verilməsi planlaşdırılır.

Bütün bunlar deməyə əsas verir ki, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası çərçivəsində "yaşıl" enerji sektoruna böyük siyasi və iqtisadi diqqət yetirilir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl" enerji zonası elan olunması, Xəzər dənizinin külək enerjisi potensialının beynəlxalq konsorsiumlarla birgə inkişaf etdirilməsi, eləcə də bərpa olunan enerji sahəsində hüquqi və texniki bazanın gücləndirilməsi Azərbaycanın bu istiqamətdə sistemli və ardıcıl fəaliyyətini göstərir. Lakin bu fəaliyyət təkcə milli sərhədlərlə məhdudlaşmır. respublikamızın təşəbbüsü ilə irəli sürülən və artıq beynəlxalq sənədlərlə təsbit olunan layihələr ölkəmizin regional enerji arxitekturasında əsas istehsalçı, tranzit və paylayıcı mərkəzə çevrilməkdə olduğunu təsdiqləyir.

Bu inkişaf strategiyası çərçivəsində Azərbaycanın enerji siyasəti yeni mərhələyə daxil olub. Əgər ötən onilliklərdə ölkəmiz əsasən, neft-qaz resursları ilə dünya enerji bazarına inteqrasiya edirdisə, bu gün artıq "yaşıl" enerji Azərbaycanın milli prioritetlərinin mərkəzinə çevrilib. Bərpa olunan enerji resurslarının inkişaf etdirilməsi isə təkcə ekoloji dayanıqlığın təminatı deyil, həm də respublikamızın geosiyasi mövqelərinin gücləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və beynəlxalq tərəfdaşlıqların dərinləşdirilməsi baxımından mühüm strateji əhəmiyyət daşıyır.

Azərbaycanın enerji siyasətində ən mühüm qərarlardan biri Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan olunmasıdır. Bu qərar həm ekoloji cəhətdən, həm də iqtisadi-sosial baxımdan regionun gələcək inkişafını müəyyənləşdirən əsas strateji yanaşmadır. Dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, bu ərazilərdə yeni infrastruktur yalnız ən müasir və ekoloji təmiz texnologiyalar əsasında qurulacaq. Bu isə Azərbaycanın ümumi enerji siyasətinə uyğun olmaqla yanaşı, həm də dünya üçün nümunəvi bir yanaşma kimi dəyərləndirilir.

İşğaldan azad edilmiş ərazilərin enerji təminatında günəş, külək və hidroenerji əsas rol oynayır. Artıq kiçik su elektrik stansiyalarının bərpası və yenilərinin istifadəyə verilməsi, eləcə də günəş panellərinin quraşdırılması istiqamətində konkret addımlar atılır. Bu model gələcəkdə digər regionlara da tətbiq edilə biləcək "yaşıl inkişaf laboratoriyası" rolunu oynayacaq.



Azərbaycanın bərpa olunan enerji siyasətində əsas istiqamətlərdən biri də Xəzər dənizinin külək enerjisi potensialının reallaşdırılmasıdır. Beynəlxalq ekspertlərin hesablamalarına görə, Xəzər hövzəsi 150 QVt-dan artıq külək enerjisi istehsal etmək gücünə malikdir. Bu isə Azərbaycanın yalnız regional deyil, eyni zamanda, qlobal enerji bazarında mühüm oyunçuya çevrilməsini şərtləndirir.

Ölkəmiz artıq aparıcı beynəlxalq enerji şirkətləri ilə strateji əməkdaşlıq sazişləri imzalayıb. Xüsusilə "ACWA Power", "Masdar", bp və digər nəhəng şirkətlərlə həyata keçirilən layihələr Azərbaycanın "yaşıl" enerji ixracatçısı roluna yüksəlməsi üçün möhkəm zəmin yaradır. Bu əməkdaşlıqlar təkcə texnoloji transfer deyil, həm də ölkənin investisiya mühitinin beynəlxalq arenada daha da etibarlı tərəfdaş kimi tanınmasına xidmət edir.

Bərpa olunan enerji sahəsinin inkişafı yalnız iqtisadi və siyasi qərarlarla məhdudlaşmır. Bu istiqamətdə güclü hüquqi və texniki baza da formalaşdırılır. Son illərdə qəbul edilən qanunvericilik aktları, "yaşıl" enerji ilə bağlı dövlət proqramları, investisiya təşviq mexanizmləri və texniki standartlar sahənin sürətli inkişafına təkan verir. Eyni zamanda, Azərbaycanın enerji diplomatiyası da bu prosesə uyğunlaşdırılır.

Ölkəmiz Avropa İttifaqı ilə "yaşıl" enerji əməkdaşlığı çərçivəsində mühüm sənədlər imzalayıb, Cənub Qaz Dəhlizi ilə yanaşı, "yaşıl enerji dəhlizi"nin yaradılması təşəbbüsü ilə çıxış edib. Bu layihə Xəzər hövzəsindən Avropaya qədər uzanan yeni bir enerji marşrutu formalaşdırmasına zəmin yaradıb.

Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində bu gün ölkəmiz regional enerji arxitekturasında aparıcı istehsalçı, tranzit və paylayıcı mərkəzə çevrilməkdədir. Qafqazdan Avropaya, Orta Asiyadan Türkiyə və Aralıq dənizi hövzəsinə qədər uzanan enerji marşrutları Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Bu xüsusda Zəngəzur dəhlizi (Tramp yolu) layihəsi də xüsusi əhəmiyyət kəsb edir. Yalnız nəqliyyat deyil, həm də enerji infrastrukturu baxımından yeni imkanlar açan bu dəhliz "yaşıl" enerjinin regional bazarlara inteqrasiyasını da şərtləndirir.

Beləliklə, Azərbaycanın "yaşıl" enerji siyasəti milli inkişaf strategiyasının ayrılmaz hissəsinə çevrilib. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan olunması, Xəzər dənizinin külək potensialının reallaşdırılması, hüquqi və texniki bazanın gücləndirilməsi, beynəlxalq əməkdaşlıqların genişləndirilməsi bu siyasətin prioritet istiqamətləridir. Eyni zamanda, ölkəmiz bu istiqamətdə atdığı addımlarla təkcə ekoloji və iqtisadi dayanıqlılıq əldə etmir, eyni zamanda, regional və qlobal enerji xəritəsində yeni bir mərkəzə çevrilir. Bu isə Azərbaycanın XXI əsrin enerji geosiyasətində mövqeyini daha da gücləndirir.

# "Suraxanı" gəmi-muzeyi "Xəzərin irsi"ni dünyaya təqdim edib

*Layihə beynəlxalq mükafata layiq görülüb*




**Bugünlərdə Beynəlxalq Muzeylər Şurasının (ICOM) təsis etdiyi "Muzeylərdə Dayanıqlı İnkişaf Təcrübəsi üzrə ICOM Mükafatı"nın geniş siyahısı açıqlanıb. Sıralamada ölkəmizin "Suraxanı" gəmi-muzeyinin təqdim etdiyi "Xəzərin irsi" layihəsi də yer alıb. Bu barədə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (ASCO) məlumat yayıb.**

Bildirilib ki, ICOM-un 2024-cü ildə elan etdiyi müsabiqəyə, ümumilikdə, 124 ölkədən müraciət daxil olub. Münsiflər heyəti layihələr arasından ilkin seçim edərək 60 ölkənin 130 layihəsindən ibarət uzun siyahı formalaşdırıb. Növbəti mərhələdə bu layihələr qiymətləndirilərək qısa siyahı müəyyənləşdiriləcək, yekunda isə 3 finalçı seçiləcək. Qaliblər 2025-ci ilin dekabrında Dubayda ICOM-un Baş Konfransında elan olunacaq. Layihələr beynəlxalq münsiflər heyəti tərəfindən "2030 Gündəliyi" və Dayanıqlı İnkişaf Məqsədlərinin beş əsas istiqaməti (İnsanlar, Planet, Firavanlıq, Sülh və Tərəfdaşlıq) üzrə qiymətləndirilir.

Qeyd edək ki, "ICOM Mükafatı" muzey sahəsində dayanıqlı inkişaf istiqamətində innovativ təşəbbüsləri və nümunəvi təcrübələri tanıyan ilk qlobal mükafatdır. Bu mükafat ICOM-un bütün üzvlərinə ünvanladığı ilk beynəlxalq mükafat kimi xüsusi əhəmiyyət kəsb edir. Dünyanın ilk tanker muzeyi "ICOM Mükafatı"-na 2023-cü ildə "Heydər Əliyev İli" və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin 165 illik yubileyi ilə əlaqədar sərgi olaraq həyata keçirilmiş "Xəzərin irsi", eləcə də bu layihə çərçivəsində ötən il – "Yaşıl Dünya Naminə Həmrəylik İli" və "COP 29"-a həsr olunmuş "Daha az plastik, daha çox həyat:təmiz dəniz üçün birlikdə!" devizi ilə reallaşdırılmış "Art Plast" layihəsi ilə müraciət edib.

ASCO-nun məlumatına əsasən, "Xəzərin irsi" sərgisində dənizin dibindən çıxarılmış qədim eksponatlar, sualtı arxeoloji qrupun dalğıc avadanlığı və ləvazimatları nümayiş olunub. Eyni zamanda, ziyarətçilər Azərbaycanın su altında qalmış şəhərləri, batmış orta əsr gəmiləri, zəngin mədəniyyəti və çoxşaxəli ticarət əlaqələri haqqında məlumat əldə edə biliblər.

"Art Plast" layihəsi çərçivəsində isə plastik, metal və digər məişət tullantılarından istifadə olunaraq 5 metr uzunluğa malik balıq, eyni zamanda, hər birinin hündürlüyü, təxminən, 2 metrdən çox olan qağayı, suiti və dəniz atı formasında hazırlanmış installyasiyalar, plastik qablardan düzəldilmiş 4 metr uzunluğu olan dünya xəritəsi installyasiyası, eləcə də istismar müddətini başa vurmuş qayıqlardan güldanlar düzəldilərək "Suraxanı" gəmi-muzeyinin qarşısında yerləşdirilib. Bu "eko-art"lar ətraf mühiti təmiz saxlamağın əhəmiyyətinə, plastik çirklənməsinin ekosistem üçün təhlükələrinə, xüsusilə dəniz canlılarının qorunmasının vacibliyinə diqqət çəkməklə yanaşı, tullantıların istifadəyə yararlı məhsullara çevrilməsinin, hətta onlardan sənət əsərləri yaratmağın mümkünlüyünü əyani formada nümayiş etdirir.

# Keyfiyyət İnformasiya Sistemi elektronlaşdırılır

**Azərbaycanda malın mənşə ölkəsini təsdiq edən müraciətlərin qəbulunun Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Keyfiyyət informasiya sistemi (https://e-keyfiyyet.gov.az/home) üzərindən həyata keçirilməsinə başlanılıb. Bu məqsədlə agentlik tərəfindən malın mənşə ölkəsini təsdiq edən sertifikatların verilməsi prosesinin tam elektronlaşdırılması üçün "Mənşə sertifikatı" alt modulu hazırlanaraq Keyfiyyət İnformasiya Sistemində istifadəyə verilib. İxrac fəaliyyəti ilə məşğul olan sahibkarlara mənşə sertifikatları üçün müraciətlərini həmin sistem (e-keyfiyyet.gov.az) vasitəsilə həyata keçirmələri tövsiyə edilir.**

Agentliyin məlumatına əsasən, mənşə sertifikatlarının əldə olunması ilə bağlı müraciətlərin Keyfiyyət İnformasiya Sistemi vasitəsilə edilməsi ixracatçılar üçün bir sıra üstünlüklər yaradır. Bunlara elektron imza və ya asan imzadan istifadə etməklə şəxsi kabinetin yaradılması, real rejimdə müraciətlərin icra statusları barədə dəqiq məlumatların əldə edilməsi, malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizanın keçirilməsi məqsədilə müqavilənin bağlanması və keçirilən ekspertiza üçün xidmət haqqının ödənilməsinin elektron qaydada həyata keçirilməsi, dövlət rüsumlarının elektron qaydada ödənilməsi, müəyyən dövr aralığında əldə edilmiş mənşə sertifikatları barədə statistik məlumatların əldə olunması, ixracatçıların təqdim etdiyi məlumatlar əsasında mənşə sertifikatlarının elektron qaydada formalaşdırılması, mənşə sertifikatlarının çevik və operativ əldə edilməsi və s. aiddir.

Qeyd edək ki, "Mənşə sertifikatı" alt modulundan istifadəyə dair videoçarx agentliyin rəsmi "Youtube" kanalında yerləşdirilib. Həmçinin "e-keyfiyyet.gov.az" informasiya sisteminin "Elektron xidmətlər" bölməsinin (https://e-keyfiyyet.gov.az/e-services) "Mənşə sertifikatlarının alınması üçün müraciət" alt bölməsi vasitəsilə də videoçarxla tanış olmaq mümkündür.




Məlumat üçün bildirək ki, hazırda malın mənşə ölkəsini təsdiq edən sertifikatın əldə olunması üçün müraciətlər İqtisadiyyat Nazirliyinin rəsmi internet saytının "Elektron xidmətlər" bölməsi vasitəsilə qismən elektron qaydada qəbul edilir. Yeni dəyişikliklə əlaqədar sistemə tam keçid təmin olunduqdan sonra mənşə sertifikatlarının əldə edilməsi prosesində ləngimələrin qarşısının alınması və sistemdən istifadə bacarıqlarının formalaşdırılması məqsədilə sahibkarlara qarşıdakı dövrdə mənşə sertifikatları üçün müraciətlərini Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirmələri tövsiyə edilir.

# Sumqayıt Kimya Sənaye Parkı xarici sərmayələrə açıqdır

**Xəbər verdiyimiz kimi, İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının ərazisi genişləndiriləcək. İZİA-dan verilən məlumata görə, parkın genişləndirilməsi, əsasən, sahibkarların çoxsaylı müraciətləri ilə bağlıdır.**

Qurumun mətbuat katibi Elçin Kazımov bildirib ki, Park yaradılarkən onun ərazisi 167,66 hektar olaraq müəyyənləşdirilib. Onun sözlərinə görə, sahibkarların parka artan marağı nəzərə alınaraq ölkə Prezidenti İlham Əliyev müxtəlif illərdə parkın ərazisinin genişləndirilməsilə bağlı 7 sərəncam imzalayıb. Bunun da nəticəsində Sumqayıt Kimya Sənaye Parkının ərazisi mərhələlərlə 639,83 hektara çatdırılıb. "Ötən müddətdə rezidentlər qəbul edildikcə mövcud sahələrin kifayət etmədiyi nəzərə alınaraq yeni genişlənmə ilə bağlı yeni qərarları qəbul edilib. Bu maraq davam etdikcə, gələcəkdə də parkın yeni sahələr hesabına genişləndirilməsi gözlənilir", – deyə o əlavə edib.

Parkın böyüdülməsinin ölkədə sənaye istehsalının miqyasının daha da genişləndirəcəyini bildirən mətbuat katibinin sözlərinə görə, bununla yanaşı, ixracyönümlü məhsulların istehsalına dəstək verilməsi beynəlxalq bazarlarda yerli məhsulların rəqabət qabiliyyətini də yüksəldəcək: "Yeni texnologiyaların tətbiqi isə müasir və innovativ istehsal proseslərinin qurulmasına imkan yaradacaq. Genişlənmə həmçinin xarici investisiyaların ölkəyə cəlb olunmasını təmin edərək iqtisadiyyatın inkişafına əlavə təkan verəcək. Layihənin həyata keçirilməsi minlərlə yeni iş yerinin açılmasına şərait yaradacaq və əhalinin məşğulluq səviyyəsini yüksəldəcək. Bununla yanaşı, yerli sahibkarlığın inkişafına dəstək göstərilməklə iqtisadiyyatın şaxələndirilməsi daha da gücləndiriləcək".




Qeyd olunub ki, ötən müddətdə Sumqayıt Kimya Sənaye Parkında investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bunun da hesabına 28 müəssisə fəaliyyətə başlayıb, qalan rezidentlər isə tikinti-quraşdırma və layihələndirmə mərhələsindədir. Parkın ərazisinə indiyə qədər 5,5 milyard manatdan çox investisiya yatırılıb və 6 min 300-dən çox daimi iş yeri yaradılıb. Bu rəqəmlər göstərir ki, Sumqayıt Kimya Sənaye Parkı təkcə sənaye istehsalının mərkəzinə deyil, həm də regionun sosial-iqtisadi inkişafının mühüm dayaqlarından birinə çevrilib. Burada yaradılan hər yeni müəssisə həm iqtisadi artıma, həm də əhalinin məşğulluğuna ciddi dəstək verir.

Parkın fəaliyyətinin təkcə kimya sənayesi ilə məhdudlaşmadığını diqqətə çatdıran E. Kazımov daha sonra bildirib ki, burada metallurgiya, tikinti materialları, energetika və digər sahələrdə fəaliyyət göstərən çoxsaylı yerli və xarici şirkətlər mövcuddur. Həmin şirkətlər isə müasir istehsal avadanlıqları və beynəlxalq ekoloji standartlara uyğun texnologiyalar tətbiq etməklə Azərbaycanın sənaye potensialını daha da gücləndirirlər. "Parkda yaradılan şərait sahibkarlara həm daxili bazarda, həm də xarici bazarlarda rəqabətqabiliyyətli məhsullar istehsal etmək imkanı verir. Bu isə Azərbaycanın qeyri-neft-qaz sektorunun inkişafına mühüm töhfədir", – deyə o bildirib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Təbiət idraka çağırır bizi

*Ekoloji muzeylər ana təbiətə övladlıq duyğusu yaradır*



**Ötən ilin noyabrında Azərbaycan paytaxtında böyük uğurla keçirilən COP29 konfransı bir daha göstərdi ki, bəşəriyyətin mövcudluğuna təhlükə yaradan qlobal ekoloji problemlər planetar miqyaslı mübarizə hədəfinə çevrilib. Artıq əksər dövlətlər öz imkanlarını gözlənilən və addım səsləri eşidilən fəlakətin cilovlanmasına səfərbər etmək məcburiyyətindədir.**

**Müsahibimiz AMEA Rəyasət Heyəti aparatının baş mütəxəssisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nəzmin Cəfərova qlobal problemlər sırasında dünyada ekoloji durumun kəskinləşməsi ilə mübarizədə "yaşıl" təbliğatın, ekoloji icti-mai filtr mexanizminin önəmini açıqlayaraq bildirdi:**

– Çağdaş dünyada qlobal problemlər dedikdə, əsasən, ekoloji böhran, enerji, ərzaq, içməli su çatışmazlığı, əhali artımı, nüvə silahının çoxalması, yeni xəstəliklər və epidemiyalar, mütəşəkkil cinayətkarlıq, narkoticarət, terrorizm, urbanizasiya kimi məsələlər nəzərdə tutulur. Bu problemlər bir-birilə sıx bağlıdır. Nəticədə, insanların texnogen fəaliyyəti nəticəsində ətraf mühit həyat üçün tədricən əlverişsiz mühitə çevrilir.

XX əsrin sonlarından başlayaraq suyun, torpağın və havanın çirklənməsinin miqyası o qədər genişlənib ki, hər il minlərlə heyvan və bitki tələfatına gətirib çıxarır. Burada biz su ehtiyatlarının kəskin azalması, müxtəlif kimyəvi elementlər, hormon və antibiotiklərin istifadəsi nəticəsində kənd təsərrüfatı məhsullarının sağlamlıq üçün təhlükəli olması, ilbəil artan urbanizasiya, insan sıxlığı və sənayeləşmənin yaratdığı həm ekoloji, həm fizioloji, həm də psixoloji mənfi təsirləri qeyd etməliyik.

Təsadüfi deyil ki, XXI əsrin əvvəllərində bəşəriyyətin lazımi səviyyədə inkişafı üçün elmi-texniki tərəqqinin əsas istiqamətlərinə ciddi humanitar nəzarətin zəruriliyi fikri irəli sürülür. Bu nəzarəti həm elmi ictimaiyyət, həm də cəmiyyətin özü həyata keçirməlidir. Bu yanaşma postneklassik elmi rasionallığın ayrılmaz hissəsidir. Bir çox inkişaf etmiş ölkələrdə alim və mühəndisin etik kodeksləri müzakirə olunur. Əxlaqlı idrak problemi ortaya qoyulur ki, burada elmi və texniki ixtiraların səbəb ola biləcəyi zərərli nəticələri qabaqcadan görərək onların qarşısını almaq məsələsi diqqət mərkəzində dayanır.

Mütəxəssislər qeyd edirlər ki, hazırda elmi-texniki yaradıcılığın özü sosial instituta çevrilib, buna görə də onu tənzimləmək və nəzarətdə saxlamaq mütləqdir. Texniki cəhətdən hər mümkün olanı həyata keçirmək olmaz. Alim və mühəndisin özünə nəzarət etmək qabiliyyətinin, habelə cəmiyyətin nəzarəti olmadan bu yaradıcılıq anti-ekoloji və anti-humanist hadisəyə çevrilə bilər. Elmi-texniki və innovativ fikirləri mütləq sosial filtrlərdən keçirmək lazımdır. Bu nəzarəti insanlar etməsə, onları təbiət özü icra edəcək. Dünyada baş verən kataklizmlər, təbii fəlakətlər yuxarıda qeyd etdiklərimizin əyani sübutudur.

Sosioloqların fikrincə, qlobal problemlər məhz insanların qəddarlığı, laqeydliyi nəticəsində yaranır. Belə olan halda ölkələrin təhlükəsizliyi, milli maraqların və insan haqlarının qorunmasının təmin olunması yalnız hüquqi və siyasi amillərdən asılı deyil. Bu məsələdə həm fərdi, həm də ümumilikdə ictimai mədəniyyətin rolu danılmazdır. Belə ki, təhsil-tərbiyə sistemlərinin formalaşmasında bədii ədəbiyyatın, incəsənətin insan təfəkkürünə təsiri mütləq nəzərə alınmalıdır.

**– Deməli, XXI əsrdə məhz mədəniyyət sahəsində həyata keçirilən təşəbbüslər insana onu da anlatmalıdır ki, o, bütün dünyanın taleyi üçün cavabdehlik daşıyır.**

– Əlbəttə, mədəni inkişafın əsas vəzifəsi bəşəriyyətin sosio-mədəni zənginliyi və rəngarəngliyinin, mədəni müxtəlifliyin qorunub saxlanılması və inkişafından ibarətdir. Bu, cəmiyyətin dayanıqlı inkişafını şərtləndirən əsas amillərdən biridir. Beləliklə, qlobal problemlərin həlli ölkələrin bərabər şərtlərlə əməkdaşlığı, hərbi münaqişə və terrorizm təhlükəsinin aradan qaldırılması, sosial-iqtisadi və siyasi quruluşu, mədəni ənənələrindən asılı olmayaraq bütün dövlətlərin sülh və əmin-amanlıq şəraitində inkişafından asılıdır.

Bəşəriyyət qarşısında yarana biləcək vəziyyətlə əlaqədar akademik Pyotr Kapitsanın belə bir sözləri indi daha çox aktuallıq kəsb edir: "Düşünürəm, elə bir gün gələcək ki, planetimizin bütün insanları vahid ictimai inkişaf qanununun qəbul edilməsinin zəruriliyini anlayacaq və bunun əsasında daha səmərəli və ədalətli ictimai qurum yaradacaqlar". Qeyd edilənlər utopik görünsə də, bəşəriyyət anlamalıdır ki, yaranan planetar problemləri yalnız birlikdə həll edə bilər.

Qlobal problemlərin çözülməsinə yönələn yuxarıda sadaladığımız məsələlərin həlli elmi biliklərə əsaslanan cəmiyyətlərin formalaşması və inkişafından asılıdır. Qlobal problemlərin həllinə yönələn əməli tədbirlərin həyata keçirilməsində elmi tərəqqinin əhəmiyyətli yeri var, elmi biliklər olmadan qarşıya qoyulmuş hədəflərə nail olmaq mümkün deyil.

**– Müsahibimiz müasir dövrün qlobal çağırışlarını cavablandırmaqda multidissiplinar tədqiqatların aktuallığının artdığını vurğulayaraq qeyd etdi ki, hədəfə alınan problemlərlə bağlı elmi biliklərin yaradılmasında akademik institutlar və təhsil müəssisələri ilə yanaşı, sosio-mədəni institutlar olan muzeylər də iştirak edir:**

– Muzey fəaliyyətinin əsas istiqamətlərindən biri məhz maarifçilikdir. İnformasiya axınının durmadan artdığı dövrümüzdə cəmiyyətin həqiqəti əks etdirən, dolğun və anlaşılan dildə təqdim olunan məlumatlara



olduqca böyük ehtiyacı var. Universitetlər və elmi-tədqiqat müəssisələri ilə yanaşı, uzun illər boyu bəşəriyyətin təkamül təcrübəsini toplayan və nümayiş etdirən muzeylər bu cür məlumatların əvəzolunmaz mənbələridir.

Akademik müəssisələrdən fərqli olaraq muzeylər geniş ictimaiyyət üçün daha əlçatan məkanlardır. Buna görə də muzeylərin tədris sahəsində imkanları çoxşaxəlidir, bu mədəniyyət ocaqları tarixi-mədəni irs obyektləri ilə ziyarətçilər arasında unikal vasitəçilərdir. Bu gün aktuallığı daha da yüksələn muzeylər sırasında ekomuzeyləri qeyd etmək mütləqdir.

Azərbaycanda ekomuzeylərin yaradılması niyə zəruridir? Çünki ekomuzeylər regionun təbii və tarixi-mədəni sərvətlərinin "canlı" kolleksiyasını təşkil edərək bu və ya digər ərazinin özünəməxsusluğunu nümayiş etdirir. Ekomuzeylər ətraf mühit üçün əlverişli texnologiyalar və mühərriksiz nəqliyyat vasitələrini təbliğ etdiklərinə görə burada piyada, velosiped, at, su və s. bu kimi marşrutlara üstünlük verilir. Onların fəaliyyəti yerli icmaların mütləq iştirakı və yerli idarəetmə orqanlarının dəstəyinə əsaslanır, ekomuzeylər yerli əhalinin sosial rifahının mühüm dərəcədə yaxşılaşdırılmasında böyük rol oynayırlar.

**Nəzrin Cəfərova onu da bildirdi ki, ekomuzeyin mahiyyətini ərazidə yerləşən və regionun unikallığını özündə ehtiva edən təbii və mədəni irs obyektləri təşkil edir. Bura tarixi-mədəni abidələr, yerli flora və fauna növlərinin yayılma arealları, regionun geoloji özünəməxsusluğunu nümayiş etdirən yerlər və s. daxildir.**

– Təbii və maddi mədəni irslə yanaşı ekomuzeylər dil, adət-ənənə, şifahi xalq ədəbiyyatı, musiqi, mətbəx və digər qeyri-maddi mədəni irsin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi funksiyasını da yerinə yetirir. Ekomuzeylər həm turizmin inkişafı, həm də yerli əhalinin sosial, iqtisadi, mədəni problemlərinin həllinə yönələn təşəbbüslərdir. Təsadüfi deyil ki, ekomuzey konsepsiyasının müəllifi Jorj Anri Rivyer ekomuzeyləri həm "məkan, hərəkət və zaman" muzeyləri, həm də "icmanın özünü tanımaq üçün baxdığı güzgü və başqalarının onu tanıması üçün baxdıqları pəncərə" adlandırıb. Həmçinin bu təşəbbüslər "Yaşıl dünya naminə həmrəylik ili"nə sanballı bir töhfə olar.

Çox vaxt ekomuzeylər milli, regional və ya beynəlxalq "yaşıl yollar"ın üzərində təşkil olunur. "Yaşıl yollar" təbii ekoloji dəhliz, çaylar, tarixi ticarət yolları, qədim dəmir yollarının və s. üzərində yaradılan təbii və mədəni irsin çoxfunksional marşrutlarıdır. Bu marşrutlar özündə təbii və tarixi obyektləri, müxtəlif profilli muzeyləri, xüsusilə də ekomuzeyləri, sənət və etnoqrafiya mərkəzlərini, turistlərin yerləşdirilməsi üçün mehmanxana, istirahət bazaları və digər komponentləri birləşdirir. Turist marşrutunun proqramına müxtəlif festivallar, idman yarışları, ekoloji bayramlar və s. hadisələr də daxil edilir.

Dünyanın bir sıra ölkəsində meşə dəhlizləri, bir çox ölkəni birləşdirən beynəlxalq yaşıl "kəmərlər" də yaradılıb. Bütün sadalanan təşəbbüslər ekoloji tarazlığın, bu yolların üzərində yerləşən tarixi-mədəni irs obyektlərinin qorunmasına yönəlib. Bu baxımdan Azərbaycanın potensialını nəzərə alaraq ölkəmizdə sözügedən məkanların, yolların yaradılması olduqca aktual bir məsələdir.

**Sənətşünas daha sonra söylədi ki, bir dəfəyə Azərbaycanın bütün fiziki-coğrafi rayonlarını əhatə etmək mümkün deyil. İlk növbədə, "yaşıl yolların" təşkilinin harada daha səmərəli olacağını öyrənmək, bu marşrutların üzərində yerləşən kəndləri, əhali sayını və mövcud infrastrukturu nəzərə alaraq, ekomuzeylərin hansı ərazilərdə yaradılacağını müəyyən etmək lazımdır:**

– Qarabağ bölgəsində aparılan quruculuq işləri və gələcək məqsədləri nəzərə alaraq biz, ekomuzeylərdən bir neçəsinin məhz burada yaradılmasını məqsədəuyğun hesab edirik. Bu, bölgəyə turist axınının çoxalması və bununla da ekoturizmin inkişafı ilə yanaşı, yerli əhali üçün çoxsaylı iş yerləri, bioloji müxtəlifliyin qorunması, yerli iqtisadiyyat və bütövlüklə respublikamızda kreativ iqtisadiyyatın inkişafına gətirib çıxaracaq.

Təbii ki, Quba-Qusar, Oğuz-Qəbələ, Lənkəran-Astara, Naxçıvan və digər bölgələr də sözügedən təşəbbüslər üçün olduqca əlverişlidir. Ekoturizmlə yanaşı, "yaşıl yollar"ın fəaliyyəti idman, dağ və çay, bütövlüklə rekreasiya turizmi, mədəni irsin təbliğini də nəzərə alsaq, habelə mədəni-dərketmə turizminin genişlənməsinə təkan verən amillərdir.

Regional və beynəlxalq "yaşıl yollar"ın tərkib hissəsinə çevrilmək isə Azərbaycana daha çox gəlir imkanları bəxş edərək həmçinin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında da böyük rol oynayacaq. Cari ilin ölkəmizdə birbaşa ekoloji mühitin qorunması ilə əlaqədar olduğunu nəzərə alsaq, bir daha vurğulamalıyıq ki, bu kimi layihələr olduqca böyük aktuallıq kəsb edir.

Bir məsələni xüsusi qeyd etmək istərdik. Azərbaycanda əsrlər boyu mövcud olan tolerantlıq və multikulturalizm prinsiplərinə əsaslanan birgəyaşayış təcrübəsi dünyada tanınaraq başqalarına hətta nümunə kimi göstərilir. Ekomuzeylər xalqların yaxınlaşmasına, mədəniyyətlərarası dialoqa yönələn təşəbbüslərdir. Bunu nəzərə alaraq müxtəlif xalqların (molokanlar, ingiloylar, udinlər, xınalıqlar və s.) sıx yaşadığı ərazilərdə belə muzeylər yaratmaqla həm yerli icmaların inkişafına, həm də ölkəmizin etnik palitrasının daha yaxşı tanınması və müxtəlif mədəniyyətlərin daha geniş təbliğinə nail olarıq.

Şübhəsiz ki, ekoturizmin sürətli inkişaf etdiyi, habelə insanların digər mədəniyyətlərə, adət-ənənələrə qarşı marağının artdığı bir dövrdə müxtəlif xalqların mədəniyyətini özündə əks etdirən ekomuzeylərin yaranması və bu muzeyləri əhatə edən turistik marşrutların təşkili ölkəmizə çoxsaylı turistləri cəlb edəcək. Bu isə ölkə başçısının COP29-un açılış mərasimində qeyd etdiyi "neftdən asılı olmayan gəlirlərin" əldə olunmasına yönələn daha bir addım olacaq.

Beləliklə, fəaliyyətinin əsas istiqamətlərindən birinin məhz ekoloji maarifçilik olduğunu nəzərə alaraq qeyd etməliyik ki, ekomuzeylərin ölkəmizdə yaradılması olduqca böyük aktuallıq kəsb edir. Bu, həm qlobal problemlərin həllinə yönələn multidissiplinar tədqiqatların aparılması, həm əhalinin ətraf mühitə və onun qorunmasına qarşı həssas münasibətinin formalaşması, həm də yerli icmaların gələcək inkişafında mühüm rol oynayacaq.

***Müsahibəni hazırladı:***
***T.RÜSTƏMLİ***
***XQ***

# NAXÇIVAN XƏBƏRLƏRİ

## Kənd təsərrüfatı naziri muxtar respublikada



**Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov Şərur rayonunda keçirdiyi qəbulda Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.**

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciəti əsasən əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunması, torpaq sahələrinin icarəyə verilməsi, işlə təminat, kənd təsərrüfatı texnikasının lizinq yolu ilə əldə olunması, damazlıq heyvanların lizinqi və digər məsələlərlə bağlı olub. Nazir hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Görüş zamanı dövlətim başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulanıb. İştirakçılar bölgələrdə aqrar sahənin problemlərinin həllinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Nazir qəbuldan sonra Şərur rayonunun Arpaçay kəndində fermer Yaqub Tağıyevin istixana təsərrüfatına baxıb, Cəlilkənd kəndində fermerAbdulla Abdullayevin əkin sahələrində olub və onun soyuducu anbarı ilə tanış olub. Məcnun Məmmədov Əliabad qəsəbəsində süd və süd məhsullarının istehsalı ilə məşğul olan "D-Adlı Qaymaq" MMC-nin fəaliyyəti ilə maraqlanıb, Babək rayonun Hacıvar kəndində quş əti istehsalı üzrə ixtisaslaşmış müəssisəyə baş çəkib. Təsərrüfatlarda keçirilən görüşlər zamanı fermerlərə aqrar sahəyə dövlət maliyyə dəstəyi mexanizmləri barədə məlumat verilib, görülən işlər ətrafında fikir mübadiləsi aparılıb.

## Aqrar istehsal yüksəlir




**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikada bitkiçilik, bağçılıq, bostançılıq və heyvandarlığın inkişafı əsas hədəflər sırasında yer alıb.**

Hazırda muxtar respublikada 62 min iri, 415,6 min xırda heyvan, 566,5 min quş və 57, 6 min arı ailəsi bəslənir. İlin I yarısında kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 144 milyon manat təşkil edib ki, bunun da 99 milyon manatı heyvandarlıq məhsullarının payına düşüb. 6 ayda 15,3 min ton ət, 54 min ton süd, 62 milyon ədəd yumurta istehsal olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə xeyli artım deməkdir.

Heyvandarlıqda məhsuldarlığın artırılması və genetik potensialın gücləndirilməsi məqsədilə süni mayalanma tədbirləri də mühüm rol oynayır.

2021-ci ildən fəaliyyət göstərir Süni Mayalanma Mərkəzi və Aqrar Xidmətlər Mərkəzi məhsul istehsalını artırmağa önəmli elm- metodiki kömək göstərir.

## Güzəştli kreditlər 3,4 dəfə artıb

**6 ayda Naxçıvan Muxtar Respublikasının Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlə təmin etdiyi sahibkarlıq subyektlərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 4,9 dəfə artaraq 97-yə çatıb.**




Maliyyələşdirilmiş güzəştli kreditlərin məbləği isə 3,4 dəfə artaraq 8,2 milyon manat təşkil edib. Ümumi güzəştli kredit məbləğinin 68 faizi sənaye, 20,3 faizi kənd təsərrüfatı istehsalı, 11,7 faizi isə xidmət sahələrinə yönəldilib.

## Ağbulaqda yay istirahəti



**Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində ittifaq üzvü üçün növbəti ikigünlük yay istirahəti təşkil olunub.**

İştirakçılar üçün canlı musiqi proqramları, bilik və idman yarışları, ələncəli oyunlar, kanat xətti ilə səyahət təşkil edilib. İstirahət Mərkəzində təşkil olunan mənalı istirahət ittifaq üzvlərinə rahatlıq və xoş təəssürat bəxş edib. İstirahətə çəkilən xərcin 85 faizini Həmkarlar ittifaqı ödöyib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Şıxəli Qurbanov – 100*

# Milli kimlik uğrunda mübarizə öncülü

**Azərbaycan ədəbiyyatı və ictimai həyatında xüsusi yeri olan unudulmaz ziyalı, ötən əsrin 50–60-cı illərində idarəçilikdə və cəmiyyətdə milli ruhun, azad düşüncənin fədakar müdafiəçisi, görkəmli şair-dramaturq, ədəbiyyatşünas, siyasət və dövlət xadimi Şıxəli Qurbanovun anadan olmasının 100 illik yubileyini ölkənin elmi-mədəni ictimaiyyəti dərin ehtiram və qədirbilənliklə qeyd edir.**

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında dramaturqun mənalı ömür yolundan və fədakar elmi, ictimai fəaliyyətindən bəhs edən elektron məlumat bazası hazırlanaraq istifadəçilərə təqdim edilib.



Kitabxananın rəsmi saytında yerləşdirilən elektron məlumat bazasında Şıxəli Qurbanovun həyat və fəaliyyətinin əsas tarixləri, bir sıra görkəmli şəxslərin onun haqqında söylədikləri dəyərli fikirlər, layiq görüldüyü mükafatlarla yanaşı, Əməkdar elm xadimi, professor Əziz Mirəhmədovun “Şıxəli Qurbanov fenomeni” və filologiya elmləri doktoru, professor Ramin Əhmədovun “Unudulmaz şəxsiyyət: Şıxəli Qurbanov” kimi məqalələri də yer alıb.

Elektron bazada görkəmli yazıçının müəllifi, redaktoru olduğu, Azərbaycan və rus dillərində nəşr edilən kitablarının, məqalələrinin, eləcə də onun haqqında qələmə alınan kitabların, dövri mətbuat nümunələrinin siyahıları yer alır. Şıxəli Qurbanovun 100 illik yubileyi ilə əlaqədar hazırlanan məlumat bazasında “Filmoqrafiya”, “Notlar”, “Dissertasiya və avtoreferatlar”, “İzomateriallar”, “Elektron resurslar”, “Virtual sərgi”, “Foto və videoqalereya” kimi bölmələr yubiliyarın həyat və yaradıcılığı barədə geniş təsəvvür yaradır.

*

Təqdim edilən materiallarda sovet dövründə milli kimlik uğrunda mübarizənin öncüllərindən olmuş Şıxəli Qurbanov XX əsr tariximizin ən mürəkkəb dövrünün cəsur ziyalısı və mübariz siyasətçisi kimi tanıdılır. Bildirilir ki, onun fəaliyyəti yalnız ədəbiyyat, dilçilik və teatr sahəsi ilə məhdudlaşmır. Şıxəli Qurbanov milli ideyaların, xalq bayramlarının və azərbaycançılıq düşüncəsinin dövlət səviyyəsində dirçəlişinin əsas təşkilatçısı, yeni elmi yanaşmaların və maarifçiliyin daşıyıcısı, sovet repressiyasının təqibindən qorxmayaraq milli şüur uğrunda mübarizə aparan unudulmaz simalardan biridir. Onun zəngin və mənalı həyat yolu, irsi və mübarizəsi bu gün də Azərbaycan cəmiyyətinə ilham verir və öyrədici nümunə kimi yaşayır.

Şıxəli Qurbanov 16 avqust 1925-ci ildə Bakı şəhərində anadan olub. Atası Qurban kişi sadə, zəhmətkeş bir insan olub, anası isə milli-mənəvi dəyərlərin qorunmasına və övladların maariflənməsinə böyük önəm verib. Şıxəli uşaqlıqdan oxumağa, poeziyaya və teatra xüsusi maraq göstərib. Məktəbdə əlaçı şagird kimi seçilib, ədəbiyyat dərslərində fəallığı ilə müəllimlərin diqqətini cəlb edib. Orta məktəbi bitirdikdən sonra həyatını xalqına və Vətəninə xidmətə həsr etmək qərarına gəlib.

Yaxın gələcəyin ədibi və siyasi xadimi 1942-ci ildə könüllü orduya yazılıb, II Dünya müharibəsinin ölümsaçan cəbhələrində vuruşub. Onun hünəri orden və medallara layiq görülüb.

Müharibədən qayıtdıqdan sonra Şıxəli Qurbanov 1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Elmi işə marağı onu aspiranturaya, elmi-tədqiqat fəaliyyətinə yönəldib. 1956-cı ildə “Puşkin və Azərbaycan poeziyası” mövzusunda namizədlik dissertasiyası müdafiə edib və filologiya elmləri namizədi elmi dərəcəsini alıb.

Gənc alim elmi-pedaqoji fəaliyyətlə yanaşı, Azərbaycan və dünya ədəbiyyatında interkultural əlaqələrin öyrənilməsində xüsusi rol oynayıb. Onun tədqiqatları xarici ədəbi əlaqələrlə yanaşı, Azərbaycan dilinin zənginlikləri, milli ədəbi düşüncənin inkişafı kimi fundamental mövzuları əhatə edib.

Şıxəli Qurbanovun ədəbi irsi çoxşaxəlidir. O, milli ədəbiyyatımızda lirik şeirlər, publisistik yazılar, pyes və librettolar müəllifi kimi tanınır. Onun “Rəis məşğuldur”, “Milyonçunun dilənçi oğlu”, “Sənsiz” kimi pyesləri sovet dövründə teatrlarımızın repertuarında böyük uğurla səhnələşdirilib. Bu əsərlərdə təkcə dövrün reallıqları deyil, insan münasibətləri, mənəvi-əxlaqi dəyərlər, dürüstlük, sevgi, vətənə bağlılıq, azadlıq arzusu kimi dərin mövzular öz əksini tapıb.

Şeirlərində və publisistikasında Şıxəli Qurbanov humanizm, insanpərvərlik, milli qürur, azadlıq sevgisi, xalqına bağlılıq kimi ideyaları əsas yer tutub. Onun dili rəvan, düşüncəsi aydın, obrazları canlı və xalqın ruhuna yaxındır.

Şıxəli Qurbanovun elmi fəaliyyəti Azərbaycan Dövlət Universiteti, Azərbaycan Elmlər Akademiyası kimi nüfuzlu elm və təhsil müəssisələri ilə sıx bağlı idi. O, Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutuna rəhbərlik edib, burada milli ədəbi irsin toplanmasına, tədqiqinə və gələcək nəsillərə çatdırılmasına böyük önəm verib. O həm də pedaqoji fəaliyyətdə yeni metodik yanaşmaları, milli dəyərlərin tədrisdə əsas prinsip kimi tətbiqi ideyasını sınaqdan keçirib.

Şıxəli Qurbanovun ictimai fəaliyyəti də olduqca geniş idi. O, Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsinin müdiri, sonra isə MK-nın katibi olub. Xalqını ürəkdən sevən bu ziyalı insan azadlıq ruhunun dövlət səviyyəsində inkişafına töhfə vermək üçün bütün imkanlarından istifadə edib

Şıxəli Qurbanovun Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri Novruz bayramının bərpası və dövlət səviyyəsində qeyd olunmasına nail olmasıdır. 1967-ci ildə o, böyük cəsarət və siyasi iradə göstərərək Sovet rejiminin ideoloji yasaqlarına baxmayaraq, Novruz bayramının – Bahar bayramının rəsmi qeyd olunmasına nail olub. Bakının mərkəzində keçirilən bu bayram tədbiri xalq arasında böyük coşqu və milli ruhun oyanışı ilə qarşılandı. Həmin günün fotoları, video və xatirələr bu gün də Azərbaycan milli kimliyinin dirçəlişi kimi dəyərləndirilir.

Lakin bu təşəbbüs Sovet hökumətinin mərkəzi orqanlarında böyük narazılığa səbəb olub. Şıxəli Qurbanov bayramın dini kökü olmadığını, milli ənənə və mədəniyyətin ayrılmaz hissəsi olduğunu sübut etmək üçün Moskvada partiya rəhbərliyinə 22 səhifəlik izahat təqdim edib. O, ideoloji təzyiqlərə baxmayaraq, milli maraqlar naminə prinsipial və ardıcıl mövqe nümayiş etdirib.

Şıxəli Qurbanovun ədəbi və elmi irsi bugünkü Azərbaycan üçün də böyük əhəmiyyətə malikdir. Onun əsərləri, pyesləri, elmi məqalələri, filologiya və pedaqogika sahəsində apardığı tədqiqatlar milli düşüncənin, milli dilin və azadlıq ruhunun inkişafı üçün möhkəm bünövrə yaratmışdır. Şıxəlinin adını daşıyan küçələr, məktəblər, abidələr, teatr və elm dünyasında onun xatirəsini daim yaşadır.

Onun həyatı və mübarizəsi müstəqil Azərbaycan dövləti üçün nümunə, azərbaycançılıq ideologiyasının formalaşmasında ilham mənbəyi və milli kimliyin bərpası yolunda ilhamlandırıcı və təsviqedici örnəyə çevrilib.

Şıxəli Qurbanovun həyatı – xalqı, vətəni, dil və mədəniyyəti üçün heç nədən və heç kimdən qorxmadan mübarizə aparan, gələcək nəsillərin milli qürur və vətən sevgisi ilə yetişməsi üçün ömrünü fəda edən bir ziyalının örnək həyatıdır.

***Hazırladı: Tahir AYDINOĞLU***
***XQ***

*Üzeyir Hacıbəyli – 140*

**Böyük bəstəkarımız Üzeyir bəyin yubileyi ərəfəsində onun özü qədər məşhur digər sənət adamları və ziyalılarla dostluğu mövzusu da gündəmdə yer tutur. Bu mənada Üzeyir–Səməd dostluğu əsl örnəkdir.**





# Dahilərin dostluğu

Böyük ictimai xadim olan bəstəkar əsərlərini nəğmə kimi dinləyib heyran qaldığı Səməd Vurğun haqqında deyib: “Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir”.

Xalq şairi Səməd Vurğun da Üzeyir bəyə yüksək dəyər verənlərdən olub. Oğlu Yusif Səmədoğlu xatirələrində yazırdı ki, Kislovodskda istirahətdə olduqları vaxt Üzeyir bəy də Yessentukidə dincəlirmiş. Bir gün atası onları da götürüb Üzeyir bəylə görüşə aparır. Yolda bərk-bərk tapşırır ki, görüşəndə Üzeyir bəyin əlindən öpərsiniz. Atasının bu sözü Yusifə bir qədər qəribə gəlir. Görüş zamanı Səməd Vurğunun övladlarının hər üçü – Yusif, Aybəniz və lap kiçik olan Vaqif də Üzeyir bəyin əlindən öpürlər. Üzeyir bəyin təkidlərinə baxmayaraq, ehtiram əlaməti olaraq Səməd Vurğun bütün görüş boyu oturmur. Görüşdən sonra Yusif atasından soruşur ki, nəyə görə biz Üzeyir bəyin əlindən öpməliydik. “Üzeyir bəy musiqimizin peyğəmbəridir. Peyğəmbərin əlindən öpərlər” – deyə Səməd Vurğun izah edir.

Üzeyir bəyi musiqimizin şairi, Səməd Vurğunu isə şeirimizin bəstəkarı sayanlar yanılmırlar. Hələ ötən əsrin əvvəllərində Qori müəllimlər seminariyası Qazaxa köçürüldükdən və onun əsasında Qazax Müəllimlər Seminaryası təşkil edildikdən sonra oraya daxil olan uşaqlar arasında balaca Səməd də var idi. Seminariyada oxuduğu illərdə onun gözəl şeirlər oxuması və yazması, monoloqlar söyləməsi, məlahətli səsi, sazı və skripkanı məharət və ehtirasla çalması hamının diqqətini çəkirdi. O, seminariyada təşkil edilən tamaşalarda aparıcı rollarda çıxış edir, “Leyli və Məcnun”da Məcnun, ”Əsli və Kərəm”də Kərəm rollarını məharətlə ifa edirdi. Ədəbiyyat müəllimi Yusif Qasımov Səməddəki bu istedada və qeyri-adi qabiliyyətə yüksək dəyər verərək demişdi: “Bu Səməd fitneyi-dövran olacaqdır”.

Böyüyəndən, tanınandan sonra Səməd Vurğunun Xan Şuşinski və gənc Fikrət Əmirovla dostluğu, Üzeyir bəyi “musiqimizin peyğəmbəri” sayaraq daim rəğbətləndirməsinin kökündə ilk növbədə məhz musiqiyə qeyri-adi sevgisi durur. Məşhur bəstəkarımız Fikrət Əmirov da həmişə bu münasibətdən ilham alıb. O, Azərbaycan xalqının 3 böyük oğlunu – Üzeyir Hacıbəyli, Bülbül və Səməd Vurğunu “sənətimizin parlaq məşəlləri”, “üç müdrik sima” adlandırmışdır.

Qeyd etdiyimiz kimi, Səməd Vurğunun Üzeyi Hacıbəyli dühası ilə ilk qiyabi tanışlığı seminariyada oxuduğu illərdə onun əsərləri ilə tanışlığından başlayırdı. Üzeyir bəyin musiqisi Səmədi gözəgörünməz tellərlə bir cazibə qüvvəsi kimi özünə çəkirdi. Qələmdaşımız Ramiz Göyüş yazır ki, böyük bəstəkarla ünsiyyət qurmaq hissi Səmədi tərk etmirdi. Bu dostluq Səməd Vurğun Moskvadan Bakıya qayıtdıqdan sonra, 1931-32-ci illərdən başlayıb. “Həmin illər artıq Üzeyir bəy keçmiş SSRİ-də və dünyada tanınan məşhur bir bəstəkar idi. Səməd Vurğunun isə istedadı getdikcə parlayır, yaradıcılığı geniş kütlələri özünə cəlb edirdi. 1934-cü ilin iyun ayında, respublikamızda mühüm hadisələrin cərəyan etdiyi bir dönəmdə, Azərbaycan ədəbiyyatının və musiqisinin inkişafında sonralar mühüm rol oynayan və əlamətdar bir hadisə kimi tarixə düşən Azərbaycan Yazıçılar İttifaqı və Bəstəkarlar İttifaqı yaradıldı. Üzeyir bəy Bəstəkarlar İtifaqının sədri, gənc Səməd Vurğun isə Yazıçılar İttifaqının fəal üzlərindən idi. Həmin illər bu birliklər respublikanın nüfuzlu yaradıcı ziyalılarını və istedadlı sənət adamlarını öz ətrafına toplayaraq ictimai-siyasi həyatımızın bütün sahələrində mühüm rol oynayırdı. Bu iki ittifaq bir çox hallarda tədbirlərini birgə təşkil edirdi. Bu tədbirlərdə Üzeyir bəylə Səməd Vurğun indi daha çox ünsiyyətdə olurdular. Bütün istedadlı gənclərə bir atalıq qayğısı göstərən Üzeyir Hacıbəyli Səməd Vurğuna xüsusi diqqəti ilə şairin musiqiyə qeyri-adi sevgisi onun Üzeyir bəylə də dostluq əlaqələrinin yaranmasına səbəb olmuşdu.

Bu illərdə Səməd Vurğun və Üzeyir Hacıbəyli bütün ideoloji basqılara baxmayaraq, özlərinin şah əsərlərini yaratmaqla, həm də bir ictimai xadim olaraq respublikanın ictimai-siyasi həyatında mühüm rol oynayırdılar. 1941-ci ildə Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının sədri seçildikdən sonra onun Üzeyir bəylə təmasları tez-tez olurdu. Və bu təmaslar artıq onlar arasında böyük yaş fərqinin (21 il) olmasına baxmayaraq, dostluğa çevrilmişdi. Həm də onlar arasında bir-birinə ata-oğul münasibətləri səviyyəsinə qədər yüksələn bir ünsiyyət formalaşmışdı”.

Həm alovlu vətənpərvər, həm də yaradıcılıq ittifaqlarının rəhbəri kimi Üzeyir bəylə Səməd Vurğun müharibə illərində qələbə çağırışlarının önündə gedirdilər. Təsadüfi deyil ki, həmin illərdə Üzeyir bəy 3 marşı – “Vətən Ordusu”, “Ey Vətən”, “Döyüşçülər marşı” və qələbəyə həsr olunmuş “Zəfər himni” Səməd Vurğunun sözlərinə yazılmış nadir sənət nümunələridir. Bəstəkar şairin “Şəfqət bacısı” şeirini yazmasının da mövzuverəni olub və Mehdixan Vəkilov demişkən, Üzeyir Hacıbəylinin qadir nəğməsində xalq himni kimi qəlblərə yol açıb.

**Gəl ana yurdumun qızı, gəlini,**
**İndi namus vaxtı, qeyrət dəmidir,**
**Sən də əsirgəmə kömək əlini,**
**Hər sözün, söhbətin can məlhəmidir.**

Üzeyirbəyşünas kimi tanınan hörmətli tələbə yoldaşım Səadət Qarabağlı isə yazır: “Üzeyir bəy hər zaman Səməd Vurğun yaradıcılığına yüksək dəyər vermiş, bir çox hallarda onu nümunə kimi göstərmişdir. Bu baxımdan Səməd Vurğunun dili haqqında onun “Fərhad və Şirin” əsərinin Stalin mükafatına təqdim edilməsi münasibətilə Stalin mükafatı komitəsinin iclasında Ü.Hacıbəylinin söylədiyi nitq çox maraqlıdır. Üzeyir bəy çıxışında demişdir: “Səməd Vurğun - müasir Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən biridir. Burada mən deyərdim ki, nəinki parlaq nümayəndələrindən biri, hətta ən istedadlı nümayəndəsidir. Azərbaycan dilinin nümunələrini Azərbaycan ədəbiyyatı xəzinəsinə daxil edərək o, Azərbaycan xalqının həyatının bütün sahələrini müxtəlif yollarla əks etdirməyi bacarmışdır. Şairin şeirləri ana vətənə dərin hisslərlə hədsiz məhəbbətlə doludur. O, şeir sənətinə mükəmməl yiyələnmişdir... Bir dramaturq kimi Səməd Vurğunun əsas cəhəti odur ki, onun əsərlərində real xarakterlər verilir və lirik şairin dərin psixologizmi hiss olunur.

Bir dramaturq olaraq onun yaradıcılığının ikinci əsas tərəfi odur ki, o, insan həyatını romantik və filosof şair kimi təsvir edir. Hazırkı “Fərhad və Şirin” əsəri bizim ədəbiyyatımızda və teatrda böyük əhəmiyyət kəsb edən hadisədir...”

1940-cı ildən, yəni yarandığı gündən, ömrünün sonuna kimi Stalin komitəsi üzvü olan Üzeyir bəy Hacıbəylinin bu çıxışından sonra Səməd Vurğunun “Fərhad və Şirin” əsəri qeydsiz-şərtsiz Stalin mükafatına layiq görülmüşdür”.

Bu isə şairin “Musiq və opera sənətimizin mükəmməl abidəsi olan “Koroğlu” operası haqqında dedikləridir: Üzeyir bəyin “Koroğlu” operası dünya musiqi mədəniyyətinin yüksək nailiyyətlərini özündə təcəssüm etdirən, bütün mədəni ölkələrinin mənəvi tələbinə cavab verən Azərbaycan musiqi mədəniyyətinin yüksək bir zirvəsi oldu”.

S.Vurğun “Leyli və Məcnun” operasına da yüksək qiymət verir, çox doğru olaraq Üzeyir Hacıbəyliyə “Ey Füzuli şerinin bəstəkar qardaşı” – deyə müraciət edirdi.

“...1948-ci ildə Üzeyir bəyin xəstəliyi şiddətlənməyə başladı. Həmin ilin noyabrında böyük bəstəkar artıq ömrünün son günlərini yaşayırdı. Xəstəxanada yatarkən Üzeyir Hacıbəyliyə baş çəkənlərdən biri də hələ uşaqlıqdan musiqiyə məftunluğu ilə seçilən Səməd Vurğun olub. Şair yataq otağının açıq qapısından içəri boylanır. Üzeyir bəy əlləri sinəsi üstə çarpaz, maddım-maddım ona baxırdı. Üzünün rəngi qaçmışdı. Şair yatağa yaxınlaşanda xəstə qalxıb ona əl vermək istədi, bacarmadı. Səməd Vurğun ustadın soyuq əllərindən öpür.

– Oğul, könlüm səni necə istəyirdi, biləsən. Görürsən də... Deyəsən, vaxtdır. Sən yaxşı bilərsən, oğul, necə deyib o şair? Köçmək gərək bu dari-fənadan yavaş-yavaş...

Səməd Vurğunun ürəyi dözmür. Diz üstə çöküb Üzeyir bəyin yatağını qucaqlayır, uşaq kimi ağlamağa başlayır. Xəstə titrəyən ipək əlləri ilə onun saçlarını oxşayır.

**Köçmək gərək bu dar fənadan yavaş-yavaş...”**
**(Qulam Məmmədli).**

Həmin il noyabrın 24-də dahi bəstəkarın yaşamaq və yaratmaq eşqilə döyünən ürəyi dayandı. “Musiqimizin Peyğəmbəri” Peyğəmbər yaşında əbədiyyətə qovuşdu. Dəfn mərasimində şıxış edənlərdən biri də Səməd Vurğun idi: “Öz gözəl əsərləri ilə bütün sovet xalqının məhəbbətini qazanan dahi sənətkar Üzeyir Hacıbəylinin vəfatını Azərbaycan ziyalıları və zəhmətkeşləri böyük hüznlə qarşılayırlar. Üzeyir Hacıbəyovun sənətkarlığı misilsizdir, onun böyük istedadı sənətkarın adını əbədi yaşadacaqdır. Xalq tərəfindən tanınmaq... sənətkar üçün böyük şərəfdir. Xalq Üzeyir Hacıbəylini ona görə sevir ki, o, öz unudulmaz əsərlərində xalqın ən yaxşı duyğu, düşüncə və arzularını ifadə etmiş, xalq üçün yaşamış və yaratmışdır. Üzeyir Hacıbəyli yalnız görkəmli bəstəkar və alim deyil, həmçinin sovetlər ölkəsinin böyük vətəndaşı idi... Azərbaycan bəstəkarları, şairləri, ifaçıları və rəssamları tərəfindən yaradılacaq yeni mahnılar, simfoniyalar, operalar və poemalar...bizim unudulmaz və çox sevimli Üzeyir Hacıbəyliyə ən yaxşı abidə olacaqdır.”

Sonralar Səməd Vurğun Üzeyir Hacıbəylinin vəfatı münasibətilə “Ölüm sevinməsin qoy” misraları ilə başlayan məşhur şeirini yazıb...

**Ölüm sevinməsin qoy!**
**Ömrünü vermir bada**
**El qədrini canından daha**
**əziz bilənlər...**

***Əli NƏCƏFXANLI***
***XQ***

# “Azərbaycançılıq məfkurəsi” biblioqrafiyası

**Azərbaycan Milli Elmlər Akademiyasının “Elm” nəşriyyatında “Azərbaycançılıq məfkurəsi” adlı biblioqrafik göstərici işıq üzü görüb.**




“Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş kitabın elmi məsləhətçisi və “Ön söz”ün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, tərtibçisi “Elm” nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov, redaktoru isə AMEA Rəyasət Heyəti Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Sərxan Xavəridir.

AMEA-dan verilən məlumatda bildirilir ki, kitabda azərbaycançılıqla bağlı müxtəlif illərdə işıq üzü görmüş nəşrlər – kitablar, dissertasiyalar, avtoreferatlar, məqalələr və s. sistemli şəkildə toplanılıb. Burada materiallar illər üzrə, əlifba sırası ilə verilib. Nəşr XX əsrin əvvəllərindən etibarən milli ədəbi-ictimai fikirdə əsas yer tutmuş, müstəqillik illərində isə Azərbaycan tarixində ilk dəfə olaraq dövlət ideologiyası səviyyəsinə qaldırılmış və dünya azərbaycanlılarının milli-mənəvi birliyinin rəmzi olan azərbaycançılığa, eləcə də “Konstitusiya və Suverenlik İli”nə dəyərli töhfədir. Azərbaycan, rus və digər xarici dillərdə materiallar toplanmış bu göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə köməkçi aparat tərtib olunub.

“Azərbaycançılıq məfkurəsi” biblioqrafik göstəricisi elmi tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

***Qabil YUSİFOĞLU***
***XQ***

Sağlamlıq

# Yaşamaq ən uca istəkdir

## *Bəs cana doymaq nədəndir?*

**Sosial şəbəkələrdə intiharların (suisid) artması ilə bağlı ara-sıra xəbərlər hamımızı təəssüfləndirir. Əlbəttə, bu, xüsusi narahatlıq da doğurur. Bu məsələ ilə bağlı XQ-nin səhiyyə eksperti, tibb elmləri doktoru, professor Musa Qəniyevə müraciət etdik. Professor intiharların səbəbi ilə bağlı sualımıza cavab verərkən əvvəlcə bunları dedi:**



– Həyatına öz əli ilə son qoyub doğma-dostlarına üzücü kədər gətirənlər niyə belə edirlər? İntihar zamanı baş-beyində törənən molekulyar dəyişikliklər bilavasitə gərginlik, aqressiya, impulsivlik və depressiv halın nəticəsi kimi meydana çıxır. Sinir hüceyrələrinin inkişafı və elastikliyini təmin edən serotonin və onun metabolitlərində xroniki defisitlik, reseptor mexanizmlərində isə impulsiv fəallığın süstləşməsi müşahidə olunur.



Xoşbəxtlik hormonu serotoninin ikitərəfli nəqlini kodlayan SLC6A4 genində polimorfizm–mutasiya dəyişikliyi baş verir. Bu, xüsusilə gənclər arasında depressiya, özünə nəzarət hissinin itməsi ilə nəticələnir və təəssüf ki, bir sıra hallarda intihara gətirib çıxarır.

Paralel olaraq, orqanizmin stress reaksiyasına mərkəzi nəzarət mexanizmi– hipotalamus–hipofizar–böyrəküstü vəz sistemində hiperaktivlik müşahidə olunur. Bu hal intihara meyilli insanlarda kortizol hormonunun miqdarının xroniki olaraq normadan artıq olması ilə öz təsdiqini tapır.

Odur ki, bu sistemdə baş verən hormonal disbalans suisid halına meyilliliyin erkən diaqnostikasında praktik əhəmiyyət kəsb edən müayinə üsulu sayılmalıdır.

İntihar edən insanlarda baş-beyinin hipokamp və prefrontal sahələrində qlikokortikoid reseptorlarının sıxlıq və ekspresiyasında disfuksional dəyişikliklər baş verir. Bu hal adekvat olaraq beyinin stress reaksiyasının tənzimi mexanizmini pozduğundan, intiharın baş verməsində əsas risk amillərindən biri sayılır.

İntihara meyilli şəxslərin beyinində IL-1/beta, IL-6 interleykinlərin və TNF-1/alfa faktorunun miqdarı da artır. Bu, bir tərəfdən intiharın baş verməsinin əsasında mikroqliya (beyinin immun hüceyrələri) və astrositlərin anomal aktivliyinin nəticəsi kimi meydana çıxan neyroiltihabi prosesin rolunu təsdiqləsə də, digər tərəfdən, bu halın qarşısını almaq üçün konkret profilaktik müalicə tədbirlərinin görülməsinə də əsas verir.

Belə adamlarda BDNF adlandırılan beyinin neytrofik faktorunun miqdarı da kəskin azalır. Bu fakt depressiv halın intihardakı rolunu birbaşa təsdiq edir.

Xüsusi diqqət çəkən məqam odur ki, epigenetik dəyişikliklər, başqa sözlə, xarici faktorlar DNT-də struktur pozğunluğuna səbəb olmadan belə, məlum genlərin ekspresiyasını törədə və suisid halını tətikləyə bilir.

Bunu, xüsusən valideynlər bilməli və unutmamalıdırlar. Çünki erkən uşaqlıq yaş dövründəki stress (məsələn, uşaqlara qarşı istər ailədaxili, istərsə kənardan edilən sərt davranış) genlərdə ciddi epigenetik



dəyişikliyə səbəb ola bilir. Bu dəyişiklik sonradan bütün ömür boyu saxlanılmaqla, nəinki suisid halına meyilliliyə, gələcəkdə, hətta, onun baş verməsində birbaşa səbəb rolunu oynaya bilər.

**Professor Musa Qəniyev son olaraq bildirdi ki, intihar son dərəcə mürəkkəb etiologiyalı və çox ciddi elmi-tədqiqatların aparılmasını tələb edən bir prosesdir. Lakin tövsiyə olunan diaqnostik dəyərləndirmə və buna təyin edilən münasib müalicə meyarlarına əməl etməklə onun dinamik artımının qarşısını zamanında almaq mümkündür.**

**Gülhanə Tədris və Araşdırma Xəstəxanasının nevroloqu, soydaşımız Elvin Məlikov isə professor Musa Qəniyevin intiharın neyrokimyəvi mexanizmi ilə bağlı fikirlərini daha çox elmi dəqiqlik, sistemli təhlil və klinik perspektivi birləşdirən nadir nümunə kimi dəyərləndirdi:**

– Dərin məsuliyyət hissilə deyə bilərəm ki, dünyada belə səviyyədə tədqiqat apara bilən alimlər azdır. Məsələn, David J.Nutt, Filip J.Coven, Stepen M.Stal kimi beynəlxalq nevropsixofarmakoloqlar və psixiatrlar yalnız uzun illərin tədqiqatları nəticəsində oxşar dərinlikdə elmi məzmun təqdim edə biliblər. Professor Musa Qəniyev isə Azərbaycan və türk dünyasında, elmin bu yüksək standartına uyğun bir səviyyədə, kompleks bioloji, molekulyar və epigenetik mexanizmləri oxucuya peşəkarcasına çatdırır.

Onun yazısında serotonin və onun reseptor sistemlərindəki defisit və genetik polimorfizmlər, hipotalamus–hipofizar–böyrəküstü vəz sistemində hiperaktivlik və kortizol disbalansı, hipokamp və prefrontal korteksdə glikokortikoid reseptorlarının disfunksiyası, neyroinflamasiya markerlərinin artımı, BDNF səviyyəsinin azalması və depressiv halın neyrobioloji əsasları və epigenetik dəyişikliklərin erkən yaş stresləri ilə əlaqəsi kimi çox mürəkkəb mövzular oxucuya ardıcıl şəkildə təqdim olunur.

Nevroloq Elvin Məlikovun fikrincə, professor M.Qəniyev səviyyəsində elmi və maarifləndirici yazı hazırlamaq üçün, sadəcə, tədqiqat məlumatlarını bilmək kifayət etmir, həm də beynəlxalq standartlara uyğun analitik düşüncə, elmi terminologiya, klinik təcrübə və ictimai mesajın harmoniyası tələb olunur.

Onun yazıları həm elmi, həm praktik, həm də ictimai mesaj baxımından unikaldır. Bu cür yazılar cəmiyyət üçün yalnız məlumat vermir, həm də maarifləndirici təsir göstərir.

**Söhbəti qələmə aldı:**

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Kişi pensiyaçı işləyirsə, qadından daha xoşbəxtdir

**İsrailli sosioloqlar "təqaüd dövründə işləmək" faktorunun insanların emosional rifahına necə təsir etdiyini araşdırıblar. Alimlərin fikrincə, insanın cəmiyyətdəki sosial mövqeyini dərk etməsi təqaüd yaşına çatdıqdan sonra da önəmlidir. Bu ehtiyac maddi təminatla yanaşı, iş fəaliyyəti sayəsində də ödənilə bilər.**



Hayfa və Təl-Əviv universitetlərinin alimləri pensiya yaşına çatdıqdan sonra işləmək qərarına təsir edən amilləri, eləcə də çalışan və çalışmayan yaşlı insanların – qadın və kişilərin - həyat məmnunluğu və emosional rifah səviyyəsini müqayisə ediblər. Tədqiqatın nəticələri "Journal of Happiness Studies" jurnalında dərc olunub.

Araşdırma İsrailin Mərkəzi Statistika Bürosunun 2017–2020-ci illərdə topladığı sorğu məlumatları əsasında aparılıb. Nümunəyə 62 yaşdan yuxarı 3 326 qadın və 67 yaşdan yuxarı 2 003 kişi daxil edilib. Alimlər məşğulluğu tam və qismən iş vaxtı üzrə ayırıb, həmçinin iş yerlərini "yaxşı" (sabit, yüksək maaşlı) və "pis" (adətən qeyri-sabit, qismən iş vaxtlı, stresli və aşağı maaşlı) kateqoriyalara bölüblər.

Respondentlərdən ümumi həyat məmnunluqlarını, maddi durumlarını, ailə münasibətlərini qiymətləndirmək, həmçinin son bir ildə depressiya keçirmələri, yuxularına mane olan narahatlıqları və problemlərlə bacarma qabiliyyətləri barədə suallara cavab vermələri istənilib. Nəticələr göstərib ki, iqtisadi ehtiyacları yüksək olan pensiyaçılar daha çox tam iş günü işləməyə meyillidirlər. Lakin burada gender fərqləri də var: kişilər əsasən maliyyə səbəblərinə görə tam iş gününə üstünlük verirlərsə, qadınlar daha seçici davranır, onları işin prestiji və əmək bazarındakı perspektivlər daha çox cəlb edir.

Tam iş günü çalışan kişilərin payı qadınlardan yüksək olub (18,3 faiz və 11,7 faiz), qismən iş günü işləyən qadınların payı isə bir qədər artıqdır (13,5 faiz qadın, 12,6 faiz kişi). Yaxşı iş tapmaq şansı ali təhsilli və təcrübəli şəxslərdə daha yüksək olub. Təhsil və təcrübə, işin növündən asılı olmayaraq, məmnunluğa təsir göstərib: bəziləri işin özündən razı qalıb, digərləri isə daha çox gəlirə önəm verib.

Ümumiyyətlə, işləyən pensiyaçılar işləməyənlərə nisbətən daha xoşbəxt olduqlarını bildiriblər. Onlar maddi vəziyyətlərindən razılıq ifadə edib, sosial fəallığın isə özünəinamı artırdığını vurğulayıblar. Alimlər qeyd edirlər ki, pensiya yaşından sonra işləmək sağlam qocalmaya kömək edə və aktiv əmək həyatından təqaüdə keçidi asanlaşdıra bilər. Bu, xüsusilə kişilər üçün əhəmiyyətlidir, çünki onlar üçün iş çox vaxt əsas, bəzən isə yeganə özünütanıma vasitəsi rolunu oynayır. Qadınlar isə peşəkar fəaliyyətlə yanaşı, digər sosial rolları da qoruyub saxlayırlar.

***S.ELAY***
***XQ***

Beynəlxalq həyat

# Vaşinqtonda "Ukrayna razılaşması" müzakirəsi

**Vaşinqtonda keçiriləcək görüş Ukraynanın gələcəyi və Avropanın təhlükəsizliyi baxımından Alyaska sammitindən daha əhəmiyyətli ola bilər. Bu fikirlə razılaşmaq olar ki, Alyaskadakı görüş nəticəsiz başa çatdı: Nə atəşkəs əldə olundu, nə sanksiyaların ləğvi müzakirə edildi, nə də böyük bəyanatlar səsləndi. Lakin bu, Ukraynanın kənarda qalacağı demək deyil. Əksinə, avqustun 18-də Vaşinqtonda keçirilən danışıqlar Kiyevin öz mövqeyini müdafiə etməsi üçün yeni imkan açır.**



Ukrayna Prezidenti Volodimir Zelenski ilə yanaşı, Böyük Britaniya Baş naziri Kir Starmer, Fransa prezidenti Emmanuel Makron, Avropa Komissisyasının Almaniya Kansleri Fridrix Merts və NATO baş katibi Mark Rütte də görüşdə iştirak edəcək. Bu, Ukraynanın tək qalmadığını və Avropanın vahid mövqeyini nümayiş etdirmək niyyətində olduğunu göstərir. Avropa liderləri Donald Trampa aydın mesaj çatdırmaq istəyirlər: Ukraynanın iştirakı olmadan heç bir sülh razılaşması mümkün deyil və istənilən müqavilə real təhlükəsizlik zəmanətləri ilə möhkəmləndirilməlidir.

ABŞ Prezidenti Donald Trampın müharibənin bitməsilə bağlı səsləndirdiyi son bəyanatlar Avropanı narahat edir. Bu səbəbdən də liderlər Vaşinqtona gələrək, Ukraynanın və Avropanın birliyini nümayiş etdirməyi hədəfləyirlər. Prezident Trampın Britaniya Baş naziri Starmerə və NATO baş katibi Rütteyə simpatiyası Kiyevin mövqeyini gücləndirə bilər. Bununla belə, Makronun mövqeyi daha zəifdir, çünki ABŞ administrasiyası onun BMT Baş Assambleyasında Fələstini dövlət kimi tanımaq təşəbbüsünü sərt tənqid edib.

Moskvanın mövqeyi isə dəyişməz olaraq qalır. Vladimir Putin Donbasın tam işğalına nail olmaq və Krımı heç vaxt qaytarmamaq niyyətindədir. ABŞ və Rusiya arasında müzakirə edilən variantlardan biri Ukraynanın müəyyən əraziləri güzəştə getməsi müqabilində təhlükəsizlik zəmanətləri əldə etməsidir. Avropa diplomatiyasının rəhbəri Kaya Kallasın sözlərinə görə, Ukraynanın qələbəsi yalnız torpaqların azad olunması ilə ölçülməməlidir. Əgər Kiyev NATO-nun 5-ci maddəsinə bənzər zəmanətlər əldə edə bilsə, bu da Ukraynanın müstəqilliyini qorumaq baxımından tarixi nəticə ola bilər.

Mütəxəssislərin sözlərinə görə, Tramp administrasiyası Birləşmiş Ştatları müharibəyə sürükləyə biləcəyindən qorxduğu hər hansı öhdəlikdən son dərəcə ehtiyatlıdır. Amma əgər Prezident Tramp indi Amerikanın Ukrayna üçün təhlükəsizlik zəmanətləri məsələsinə qayıtmağa hazır olsa, potensial sülh sazişinin digər aspektləri, o cümlədən ərazilər mübadiləsi də işə düşə bilər. "Axios" nəşri də Prezident Donald Trampın müşavirlərindən birinə istinadən yazır ki, Ukrayna üçün təhlükəsizlik zəmanətləri ölkə ərazisinə ABŞ qoşunlarının yerləşdirilməsini əhatə edə bilər. Başqa bir müşavir nəşrə bildirib ki, Ukrayna üçün təhlükəsizlik təminatı məsələsi hələ həll olunmayıb və "biz mətbuatda danışıqlar aparmayacağıq". Bundan əvvəl ABŞ dövlət katibi Marko Rubio Vaşinqtondan zəmanətin verilməsinin "çox mühüm addım olacağını" bildirmişdi.

Almaniya Kansleri Fridrix Merts isə həftə sonu demişdi ki, ABŞ Aİ ilə birlikdə Ukraynaya təhlükəsizlik zəmanəti verməyə hazırdır. "Bloomberg" mənbələrə istinadən xəbər verir ki, zəmanətlər arasında "hava qalxanı" ola bilər. CNN-in məlumatına görə, Donald Tramp Aİ liderləri ilə NATO Nizamnaməsinin 5-ci maddəsinə "oxşar" təminatların verilməsini müzakirə edib. O güman edir ki, üzv dövlətlərdən birinə silahlı hücum bloka hücum hesab olunur. Kanal NATO-nun təminatlarda birbaşa iştirak etməyəcəyini yazıb.

Bununla belə, bəzi suallar açıq qalır. Ukrayna minlərlə insanın həyatını qurban verdiyi əraziləri güzəştə gedə bilərmi? Donetskin qalan hissəsindən imtina edilməsi Rusiyanın Kiyevə yolunu açmayacaqmı? Əvvəllər müzakirə olunan "İstəklilərin Koalisiyası" planı çərçivəsində on minlərlə əsgərin Ukraynaya yerləşdirilməsi artıq gündəmdən çıxarılıb. İndi əsas diqqət hava və dəniz təhlükəsizliyinə, həmçinin Ukrayna ordusunun bərpasına yönəlib.

Buna baxmayaraq, ekspertlər xəbərdarlıq edirlər ki, hərbi əməliyyatlar dayansa belə, Moskva ordusunu bərpa edib üç-dörd il ərzində yeni hücuma hazır ola bilər. Belə olan halda Ukraynanın təhlükəsizliyi Qərb qırıcı pilotlarının Rusiya tank kolonlarını dayandırmağa hazır olub-olmamasından asılı olacaq. Vaşinqton görüşü isə bu təhlükəli gələcəyin qarşısını almaq üçün həlledici məqam ola bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*boya məhsullarının illik satın alınması məqsədilə*

**AÇIQ TENDER ELAN EDİR**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin boya məhsullarının illik satın alınması üçün açıq tenderində iştirakçılar yasin.akbarov@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 2 sentyabr 2025-ci il saat 15.00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Yasin Əkbərov, satınalmalar üzrə mütəxəssis, yasin.akbarov@azal.az, iş – (+99412) 4972600 daxili 8085.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 173 (30867) 19 avqust 2025-ci il, çərşənbə axşamı

İDMAN

# “Qarabağ”, biz səninləyik!

## *Ağdam komandası Budapeştə yüzfaizli nəticə ilə gedib*




**Zarafat deyil, Çempionlar Liqasının hər bir azarkeşin həsrətlə gözlədiyi, liqa himninin sədaları ilə xeyir-dua verilən pley-off mərhələsinə aparan yolda Azərbaycan çempionu heç bir itkiyə yol verməyib: 4 oyun-4 qələbə! Üstəlik də, bu görüşlərdən ikisində hakimlər böyük hesab qeydə alıblar. İrlandiyanın paytaxtı Dublində ”Şelburn”un qapısına 3 cavabsız top vurulub, Bakıda isə “Şkendiya”hesabı açmasına peşman edilib, ”Qarabağ” Şimali Makedoniya komandasına sanki “1 özündən deyəndə 5 də məndən danış” mövzusunda ustad dərsi keçib.**

Təmsilçimizin 4 oyundan ibarət qələbələr seriyası ona əvvəlcə Konfrans Liqasının qrup mərhələsini təmin etmişdisə, Avropa Liqasının qrup sınaqlarına da vəsiqəni çox gözləmək lazım gəlmədi. İndi isə Çempionlar Liqasının nəhənglər meydanının qapısı ağzındayıq. Amma bu meydana UEFA-dan “viza” almaq üçün Macarıstanın “Ferentsvaroş” səddini keçmək mütləq şərtdir. “Qarabağ” bunu da bacaracaqmı? Sualımıza bir həftədən sonra, avqustun 27-də Bakıda mərhələnin ikinci raund görüşündən sonra cavab alacağıq. Hələlik isə bugünkü rəqiblərin ilk oyununa şahidlik edəcəyik.

Portuqaliyalı hakimin Macarıstan paytaxtında Bakı vaxtı ilə saat 23-də başlanacaq oyunun sona çatdığını bildirəcəyi anlarda ölkəmizdə artıq gecəyarısı olacaq. Amma azarkeşlər, həm də təkcə “Qarabağ” pərəstişkarları deyil, Azərbaycanın bütün futbol ictimaiyyəti ayıq-sayıqdır. Hamı Budapeşt matçını maraqla, həyəcanla, ümidlə gözləyir. Hər qarışına dərindən bələd olduğu stadionda tamaşaçılardan güclü dəstək alacaq Macarıstan çempionu nə qədər hörmətli klub olsa da, “Qarabağ” onun meydançasında özünü itirməyib, uğurlu oyunlar seriyasına layiq olduğunu sübuta yetirmək əzmindədir.

“Ferentsvaroş”un 3-cü təsnifat mərhələsində Bolqarıstanda “Ludoqorets” ilə 1-ci raund döyüşündən qolsuz heç-heçə ilə ayrıldıqdan sonra öz azarkeşləri qarşısında böyük hesabla qələbə qazanması (3:0) belə təsəvvür yaradır ki, bu axşam hər iki komanda müdafiədə ciddi təzyiqlə üzləşəcək. Görək arxa xətdə kim daha etibarlı oynayacaq. Ölkə çempionumuzun ilk 4 görüşdən ümumi 10:1 hesabı ilə qalib ayrılması düşünməyə əsas verir ki, komanda bu oyunlarda bütün xətlərdə kifayət qədər yüksək ustalığı ilə Avropanın diqqət mərkəzində olub.

İki il əvvəl Çempionlar Liqası turnirinin 3-cü təsnifat mərhələsində “Ferentsvaroş”la yollarımız kəsişmişdi. Yaxşı yadınızda olar, onda bizimkilər Bakıda 1:1 hesablı heç-heçə ilə kifayətlənməli olmuşdularsa, Budapeştdə çox inamlı qələbə qazanmışdılar (3:1).

Azərbaycan və Macarıstan çempionları yenə üz-üzədir və onların hər biri iki oyunun ümumi yekununda qalib olub, Liqanın baş meydanında oynamaq, Avropa futbolunun ən parlaq komandalarını öz şəhərinə, ölkəsinə gətirmək, ulduz futbolçulara qarşı oynamaq eşqi ilə alışıb-yanır.

“Qarabağ” indiki avrokuboklar mövsümündə beşinci oyununa çıxır. Ardıcıl dörd qələbədən sonra növbəti görüş bizə nə vəd edir? Cavabı çətin sualdır. Yalnız onu deyə bilərik ki, bitərəf mütəxəssislər də yekdilliklə bildirirlər ki, pley-off mərhələsinin “Ferentsvaroş”- “Qarabağ” cütündə qüvvələr nisbəti bərabərdir, tərəflərdən hər biri sevinə bilər. Bununla da bir daha təsdiq olunur ki, Azərbaycan klubunun səfərdən sərfəli nəticə ilə qayıtmaq iddiası əsassız deyil. Komanda özünə inanır. Bu isə uğura aparan yolda başlıca şərtdir.

Xarici icmalçılar və şərhçilər “Qarabağ”ın ardıcıl 12-ci dəfə avrokubokların qrup mərhələsi sınaqlarının iştirakçısı olduğunu, Qurban Qurbanovun səbrlə, təmkinlə, məqsədyönlü şəkildə mübariz, möhkəm iradəli komanda yaratdığını bildirib, səmimi kollektivimizin daha da böyüyəcəyinə inamlarını ifadə etmələri Azərbaycanın futbol ictimaiyyəti üçün çox xoşdur, ümidlərimizi artıran dəyərdir.

Hə, yatmayaq, “Qarabağ” oynayır. Uzaqdan da olsa, ölkə çempionumuza layiq əzmkarlıq göstərək, ona möhkəm dəstək olaq. Güc birlikdədir, qələbə birgə səylə qazanılır.

Bu arada ötən hər dəqiqə bizi saat 23-ə yaxınlaşdırır. Hakimin start işarəsinə getdikcə daha az vaxt qalır...

Zərbələrin dəqiq olsun, “Qarabağ”!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## “Sumqayıt”ın inamlı qələbəsi



**Misli Premyer Liqasında ötən bazar daha bir oyun keçirilib.**

Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda baş tutan qarşılaşmada “Sumqayıt” Gəncənin “Kəpəz” komandasını qəbul edib. Görüş ev sahiblərinin böyük hesablı qələbəsi ilə başa çatıb–3:0.

Xəbər verdiyimiz kimi, I turun ötən həftə təşkil olunan matçlarında “Turan-Tovuz” “İmişli”ni minimal hesabla məğlub edib–1:0. “Karvan-Yevlax”–“Qəbələ” və “Neftçi”–“Şamaxı” oyunlarında qalib müəyyənləşməyib - 1:1.

## Klublararası Dünya çempionatı – yeni format axtarışı




**FİFA klublararası dünya çempionatının formatını dəyişə bilər. Ali futbol qurumu turnirin iki ildən bir keçirilməsini planlaşdırır.**

2029-cu ildən başlayaraq komanda sayı 32-dən 48-ə çatdırılacaq. Bundan başqa, oyun təqvimində sıxlığı aradan qaldırmaq üçün milli komandaların iyulda keçirəcəyi yoldaşlıq matçlarının ləğvi də nəzərdə tutulub.

Qeyd edək ki, klublararası dünya çempionatı bu il ABŞ-da təşkil olunub. Qalib finalda Fransanın “PSJ” komandasını 3:0 hesabı ilə məğlub edən İngiltərənin “Çelsi” klubu olub.

## Messinin yeni rekordu



**ABŞ-n “İnter Mayami” klubunda çıxış edən argentinalı Lionel Messi karyerasında 875 qol vuraraq tarixi rekorda imza atıb.**

Futbolçu “Los Anceles Qalaks” ilə MLS matçında komandasının 2-ci qolunu vurmaqla 3:1 hesablı qələbədə pay sahibi olub.

Lionel Messi bu nailiyyəti tarixdə hamıdan tez –1116 matçda əldə edib. Qeyd edək ki, “Barselona”nın heyətində Messi onqat İspaniya çempionu, 7 dəfə İspaniya kubokunun qalibi olub, həmçinin 4 dəfə Çempionlar Liqasının qalibi adını qazanıb. Ümumilikdə o, kataloniyalıların tərkibində bütün turnirlərdə 778 oyun keçirib, 672 qol vurub. Bundan əlavə, Messi 8 dəfə “Qızıl top”un sahibi olub.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Şəhidlər xiyabanında qeyri-etik videolar çəkən əcnəbilərə cinayət işi açılıb



**Avqustun 17-də 3 nəfər əcnəbi şəxsin Şəhidlər xiyabanında nalayiq hərəkətlər etməklə çəkdikləri videogörüntünü sosial şəbəkələrdə paylaşmaları barədə araşdırmalar aparılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, araşdırmalar zamanı həmin şəxslərin avqustun 13-də Bakı şəhərinə turist kimi 5 günlük gəldikləri, çəkdikləri videonu sosial şəbəkələrdə yaydıqları müəyyən olunub.

Faktla bağlı Cinayət Məcəlləsinin 245-ci (Qəbir üzərində təhqiredici hərəkət) maddəsilə cinayət işi başlanılıb. Polis əməkdaşları tərəfindən görülmüş tədbirlərlə hər 3 şəxs saxlanılaraq istintaqa cəlb edilib.

Başlanan cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

***XQ***

## HAVA

## Yağmursuz, küləkli hava...



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Yarımadada cənub-şərq küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 21-25, gündüz 30-35 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 70-80 faiz, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 31-36, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti olacaq.

Avqustun 19-da Abşeron çimərliklərində cənub-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu Şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26, Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx)isə 26-27 dərəcə isti olacaq.

***XQ***

# İnsan təxəyyülünün sərhədi müəyyənləşdi

**Psixoloqlar insan təxəyyülünün imkanlarını öyrənərək maraqlı nəticəyə gəliblər: beynimiz eyni anda yalnız bir obyektin hərəkətini izləyə bilir.**

Harvard Universitetinin Psixologiya fakültəsinin dosenti Tomer D. Ullman və İsrail Açıq Universitetinin koqnitiv psixologiya üzrə dosenti Heyli Balaban tərəfindən aparılan təcrübə Nature Communications jurnalında dərc olunub.

Tədqiqatda iştirakçılara əvvəlcə bir topun raketbol meydançasındakı kimi tullanmasını göstərən animasiya təqdim edilib. Daha sonra isə iki müxtəlif ritmdə hərəkət edən top nümayiş olunub. Hər iki halda müəyyən anlarda toplar ekrandan yoxa çıxıb və iştirakçılar onların hara düşəcəyini təxmin etməli olublar.

Nəticələr göstərib ki, insanlar bir topun trayektoriyasını asanlıqla təsəvvür edə bilsələr də, iki obyektin hərəkətini eyni anda izləmək və düzgün proqnozlaşdırmaq mümkün olmayıb.

Alimlər etiraf ediblər ki, bu nəticə gözlənilməz olub. Əvvəlki araşdırmalara əsaslanaraq onlar insan təxəyyülünün üç-dörd obyektin hərəkə-



tini izləyə biləcəyini güman edirdilər.

Beləliklə, yeni tədqiqat insan beyninin məhdudiyyətlərini bir daha üzə çıxararaq, təxəyyülün imkanlarının düşündüyümüz qədər geniş olmadığını göstərib.

***S.ELAY***
***XQ***

***✓ 2021-ci il yanvarın 22-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin imtiyazlı şəxslərə verilməsi haqqında Ələsgərova Əfruz Həsən qızının adına verilmiş təhvil-təslim sənədi itdiyi üçün etibarsız sayılır. Ünvan -Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Zığ şossesi- Hava Limanı 12-ci km 22, “Hövsan” yaşayış kompleksi ev 2, mənzil 4.***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin işlər müdiri Ramin Quluzadəyə əmisi

**FİRDOVSİ ƏKBƏR OĞLU QULUZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3431
SİFARİŞ 1728
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00